# Xalq qəzeti

Xalqın qəzeti!

№ 03 (30697) 9 yanvar 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Avropa İttifaqı Azərbaycanın qitənin enerji təhlükəsizliyinə töhfəsini yüksək dəyərləndirir

*Prezident İlham Əliyevin Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşü*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.**

Maqdalena Qrono yeni vəzifədə dövlətimizin başçısı tərəfindən qəbul olunmasına görə minnətdarlığını ifadə etdi.

O, təyyarə qəzası ilə bağlı dərin hüznlə başsağlığını çatdıraraq, aviaqəzanın bütün səbəblərinin hərtərəfli şəkildə araşdırılacağına ümidvarlığını bildirdi.

Azərbaycanın Avropa İttifaqının vacib tərəfdaşı olduğunu deyən qonaq vurğuladı ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasında maraqlıdır.

Maqdalena Qrono ölkəmizin region və onun hüdudlarından kənar kontekstində əhəmiyyətinə toxunaraq, bu xüsusda Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqun önəmini vurğuladı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini deyən qonaq xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın zəngin tarixə malik olduğunu vurğuladı. Bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, nəqliyyat, investisiyalar, ticarət və qarşılıqlı maraq doğuran digər sahələrlə bağlı məsələlərə toxunuldu.

Dövlətimizin başçısı ölkəmizin Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirdi və Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesinin ikitərəfli müstəvidə aparıldığını dedi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün təmasların davam etdirilməsinin vacibliyi vurğulandı.

**AZƏRTAC**

## Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə zəng edib

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edəcəyini vurğulayıb. Türkiyə Prezidenti ölkəsinin Cənubi Qafqaz regionunda davamlı sülhün əldə edilməsinə tam dəstək göstərdiyini deyərək, hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyini bildirib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan–Türkiyə qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin "Bir millət, iki dövlət" prinsipi ilə inkişaf etdiyini deyib, ölkələrimizin hər zaman bir-birinin yanında olduqlarını vurğulayıb.

Telefon söhbəti zamanı 2025-ci ildə iki qardaş ölkə arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin dövlət başçıları təmasların davam etdirilməsi məsələsini qeyd ediblər.

**Prezidentin Mətbuat Xidməti**

## Qaçılmaz missiya



Səhifə ⇨ 4

## İqtisadiyyatın uğur düsturu

*Şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət*

**2024-cü il ölkə həyatında mühüm islahatlar dövrü kimi yadda qaldı. Müasir iqtisadi yanaşmaların diqqətdə saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin gücləndirilməsi, vergi və gömrük sistemində köklü dəyişikliklər edilməsi, şəffaflığın artırılması kimi mühüm addımlar atılması respublikada dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafı daha da sürətləndirdi. Bütün bunlar möhkəm təməllərə əsaslanan milli tərəqqi modelinin tam olaraq formalaşdırılmasını şərtləndirdi.**



Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində də bu barədə ətraflı məlumat verdi. Keçən ilin iqtisadi inkişaf baxımından yenə də uğurlu il olduğunu vurğulayan dövlət başçısı hesabat dövründə ümumi daxili məhsulun (ÜDM) 4 faizdən, qeyri-neft sənayesində isə 7 faizdən çox artdığını bildirdi. Ölkə rəhbəri əldə olunan uğurun səbəbini isə belə xarakterizə etdi: "Bu göstəricilər, sadəcə olaraq, keçən ilin məhsulu deyil. Uzun illər aparılan iqtisadi islahatlar, şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində biz beynəlxalq aparıcı reytinq agentliklərinin Azərbaycana olan münasibətində müsbət dəyişiklik görürük. Bütün bunlar isə deməyə əsas verir ki, biz iqtisadi sahədə dayanıqlı inkişafa nail ola bilmişik və əminəm ki, bu il və gələn illərdə bu dinamika saxlanılacaq".

(ardı 4-cü səhifədə)

## TAP-ın hidrogen nəqli imkanları



Səhifə ⇨ 7

## Xızı–Abşeron KES-də günəş panelləri də quraşdırılıb



Səhifə ⇨ 7

## Fransa Gürcüstandan qətiyyən əl çəkmir



**"ATƏT Parlament Assambleyasının rəhbəri Pia Kauma "liberal faşizm"in təsirini hiss etdi. Bir vaxtlar biz xanım Pia Kauma ilə, məsələn, Gürcüstanda "liberal faşizm"in necə işlədiyi barədə danışmalı olduq və əslində o, bu barədə kifayət qədər məlumatlıdır... Bu ideologiya ölkəmizdə məğlub edilməlidir". Bu sözləri Gürcüstanın baş naziri İrakli Kobaxidze deyib.**

Kobaxidze "liberal faşizm"ə açıqlıq gətirib: "Bu yalan, başqa fikirlərə tam dözümsüzlük və xaricdən maliyyə yardımı ilə cəmiyyətdə nifrətin qızışdırılması deməkdir".

(ardı 11-ci səhifədə)

## Vikipediya: düşməni tanıyaq, amma başa keçirməyək

**Azərbaycan vikipediyası bizi heyrətləndirməkdə davam edir. Az bir vaxt əvvəl fəallarımız şəhidlərimizin, tanınmış ziyalılarımızın səhifələrinin silinməsi ilə bağlı sosial şəbəkələrdə etirazlarını bildirmişdilər. Amma bu gün diqqətimizi daha fərqli bir məsələ çəkir.**




Belə ki, vikipediyada erməni "tanınmışlarının" səhifələri, az qala, göz deşir. O tanınmışlar ki, onlar sovet dövründə Xocalıda, əsrimizin çox yaxın vaxtlarında Azərbaycan xalqının başına olmazın müsibətlərin gətiriblər.

(ardı 10-cu səhifədə)

## Paşinyan özünü sülhpərvər göstərir, amma unudur ki...



Səhifə ⇨ 5

## Geosiyasətin "Suriya möcüzəsi"



Səhifə ⇨ 6

# Prezident İlham Əliyev İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edib.**

Dövlətimizin başçısı Əli Əkbər Əhmədianın ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən qonaq qeyd etdi ki, dost və qardaş Azərbaycana səfər etməkdən məmnunluq duyur.

Əli Əkbər Əhmədian İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın Ali Rəhbərinə və Prezidentinə çatdırmağı xahiş etdi.

Əli Əkbər Əhmədian vurğuladı ki, regionda Azərbaycan ilə İranın mədəni, tarixi, dini, o cümlədən, sivilizasiya əlaqələrinin oxşarı yoxdur və bu cür qədim əlaqələrə malik iki ölkə tapmaq mümkün deyil.

O, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və bütün bunlara görə çox sevindiklərini dedi.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev xalqlarımızın çox sıx tellərlə bir-birinə bağlı olduğunu deyərək, iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının vacibliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz İran İslam Respublikası ilə əlaqələrin bütün sahələrdə inkişafına həmişə xüsusi əhəmiyyət verir. İranda yeni prezident seçkilərindən sonra Azərbaycanın bir neçə yüksəksəviyyəli nümayəndə heyətinin bu ölkəyə səfər etdiyi məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan işğal dövründə Azərbaycanın həmin ərazilərini darmadağın edib, mədəni və dini abidələrimizi, o cümlədən məscidlərimizi təhqirə məruz qoyub, ibadət ocaqlarında donuz və inək saxlayıb.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz regional məsələlərin region dövlətləri tərəfindən həll edilməsinin tərəfdarıdır və bu xüsusda regional əməkdaşlıq xarakteri daşıyan 3+3 formatının təşəbbüskarı da məhz Azərbaycan Respublikası olub. Regiondankənar xarici qüvvələrin regiona cəlb edilməsinin qəbuledilməz olduğu bir daha qeyd edildi.

Görüşdə Şimal–Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin və bu baxımdan Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq formatının vacibliyinə toxunuldu, Azərbaycanda bu istiqamətdə böyükhəcmli yüklərin olduğu bildirildi. Həmçinin "Araz dəhlizi" layihəsi və bu çərçivədə Ağbənd məntəqəsi istiqamətində, Araz çayı üzərində körpülərin və yol-nəqliyyat infrastrukturunun tikintisi ilə bağlı fikir mübadiləsi aparıldı, bu layihənin də regional nəqliyyat bağlantılarının inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd edildi. Azərbaycan ilə İran arasında Araz çayı boyunca su elektrik stansiyalarının inşası layihələri müzakirə olundu. Azərbaycan, Rusiya və İran arasında elektrik xətlərinin birləşdirilməsi məsələsinə toxunuldu, bu istiqamətdə əməkdaşlıq üçün böyük potensialın olduğu vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsipi əsasında münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyi qeyd olundu, yaxın gələcəkdə Azərbaycanla İran arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçiriləcəyi bildirildi. İclas çərçivəsində dövlət başçıları tərəfindən qeyd olunan konkret layihələrin müzakirəsi baxımından əlverişli imkanın olacağına ümidvarlıq ifadə edildi.

# Daxili İşlər naziri İsmayıllıda vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov yanvar ayının 7-də və 8-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir əvvəlcə İsmayıllı rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra İsmayıllı Rayon Polis Şöbəsində İsmayıllı, Göyçay, Ağsu, Şamaxı, Qobustan şəhər və rayonlarından qəbula gələn 294 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili İşlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 196 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanda faciəvi şəkildə qəzaya uğraması nəticəsində çox sayda insanın həyatını itirməsi və yaralanması xəbərini dərin kədər hissi ilə qarşıladım.

Zati-alinizə və dost Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, həlak olanların ruhlarının şad olmasını diləyir, onların ailələrinə səbir və dözüm arzulayıram. Yaralananların tezliklə şəfa tapacaqlarına ümid edirəm.

Hörmətli cənab Prezident, bir daha dərin hüznlə başsağlığımı bildirir, Sizə və dost Azərbaycan xalqına sülh, əmin-amanlıq, sabitlik arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

*

Zati-aliləri.

Azərbaycana məxsus təyyarənin qəzaya uğraması nəticəsində baş vermiş faciə ilə bağlı Zati-alinizə və həlak olanların ailələrinə Qətər Dövlətinin Hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını arzu edirəm.

Dünyasını dəyişənlərə Uca Allahdan rəhmət diləyirəm. Məkanları behişt olsun!

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

*

**Zati-aliləri!**

Azərbaycana məxsus təyyarənin qəzaya uğraması nəticəsində baş vermiş faciə ilə əlaqədar Zati-alinizə və həyatını itirənlərin ailələrinə Qətər Dövlətinin Hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmalarını arzulayıram.

Həlak olanlara Uca Allahdan rəhmət diləyirəm. Məkanları behişt olsun!

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

*

**Zati-aliləri!**

Azərbaycana məxsus təyyarənin faciəvi şəkildə qəzaya uğraması ilə bağlı Zati-alinizə və həlak olanların ailələrinə Qətər Dövlətinin Hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, hadisə nəticəsində xəsarət alanlara tezliklə sağalmalarını arzu edirəm.

Həyatını itirənlərə Uca Allahdan rəhmət diləyirəm. Məkanları behişt olsun!

***Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al TANİ,***
***Qətər Dövlətinin Baş naziri və***
***xarici işlər naziri***

*

Dost Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasında qəzaya uğraması nəticəsində insanların həlak olmaları və yaralanmaları xəbərini dərin hüznlə qarşıladıq.

Zati-aliləri, bu faciəvi hadisə ilə bağlı kədərinizi bölüşür, Sizə başsağlığı veririk. Qəzanın qurbanlarına Uca Allahdan rəhmət diləyir, yaralananların tezliklə sağalmalarını arzulayırıq.

**Dərin hörmətlə,**

***Əhməd Abdullah əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Yanvarın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə Komissiyanın 2025-ci il 6 yanvar tarixli iclasının protokolu təsdiq edilib.

Sonra yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına təyin edilmiş məşvərətçi səs hüquqlu üzvün təsdiq olunmasına qərar verilib.

İclasda daha sonra qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar daxil olmuş müraciətlərə baxılıb. Media subyektləri nümayəndələrinin də iştirakı ilə Komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin bələdiyyə seçkilərinə hazırlıq istiqamətində proseslərin qanunvericiliyin tələblərinə uyğun gedişi barədə məlumat verilib, müxtəlif məsələlərə dair statistik göstəricilər diqqətə çatdırılıb və cari məsələlərə baxılıb.

**XQ**

# Erməni irqçiliyi bəşəri cinayətdir

**Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun Bəyanatı**

Milli Məclisinin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu Bəyanat yayıb.

Çağırışda deyilir: "Məlum olduğu kimi, Ermənistanın 1987-ci ildə başlatdığı münaqişə Azərbaycan xalqını misilsiz əzablara düçar etmişdir. Ermənistanın təcavüzkar siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurdlarından didərgin salınmışdır. Bu cinayətlərin kökündə Ermənistanın siyasi mühitində dərin kök salmış irqçilik dayanır. Ermənistanda irqçilik dövlət siyasəti kimi institusionallaşdırılıb.

Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın 23 iyul 1993-cü ildə etdiyi çıxışın ortaya çıxmış videoyazısı bunu bir daha sübut edir. Onun bəyanatında deyilir: "Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemi həll etdi. Ermənistan və Artsax tamamilə əcnəbilərdən təmizləndi". Levon Ter-Petrosyanın prezident qismində səsləndirdiyi və onun özünün hakimiyyəti dövründə baş vermiş işğal və etnik təmizləməni dövlət siyasəti kimi təqdim edən bu bəyanat, sözügedən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətini və bu cinayətlərin sistematik və mütəşəkkil şəkildə törədilməsini birmənalı şəkildə sübut edir.

Qeyd olunmalıdır ki, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, bu siyasət dəyişmədən davam etmişdir. Levon Ter-Petrosyanın xələfi, keçmiş prezident, qaniçən hərbi cani Robert Koçaryan, azərbaycanlılarla ermənilərin "etnik və genetik uyğunsuzluğu" kimi irqçi ideyaları təbliğ edirdi. Digər keçmiş prezident və hərbi cani Serj Sarkisyan isə 1992-ci ildə azərbaycanlı mülki şəxslərin Xocalıda qətliamında oynadığı rolu ilə açıq şəkildə öyünür və nasist general Qaregin Njdenin faşist ideologiyasını rəsmi dövlət siyasəti kimi qəbul etmişdi. Vaxtilə "Qarabağ Ermənistandır" deyərək ilhaqçılıq siyasəti aparan hazırkı baş nazir Nikol Paşinyan da Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına imkan verməməklə, öz sələflərinin irqçi siyasətini davam etdirir.

Prezident İlham Əliyev 2025-ci il yanvarın 7-də Azərbaycan mediasına verdiyi müsahibəsində Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi irqçilik, zorakı ekstremizm, revanşizm və militarizmin yaratdığı təhdidin miqyasını dəqiq ifadə etmişdir. Biz Prezident İlham Əliyevin regionda sülh və sabitliyin bərqərar olunmasına dair baxışını və Ermənistana ünvanladığı tələbləri tam və birmənalı şəkildə dəstəkləyirik. Həmçinin bu fürsətdən istifadə edərək, Qərbi azərbaycanlıların doğma yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına verdiyi möhkəm dəstəyə görə cənab Prezidentə dərin təşəkkürümüzü bildiririk.

Biz beynəlxalq ictimaiyyəti Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi sistematik irqçiliyi və etnik təmizləmə siyasətini pisləməyə çağırır, Ermənistan hökumətindən isə silahlanmanı dərhal dayandırmağı, irqçi siyasətlərdən imtina etməyi, Qərbi azərbaycanlıların doğma yurdlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməyi və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağı tələb edirik".

**Xarici ölkə parlamentləri Ermənistana təzyiq etməyə çağrılıb**

Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qrupları və beynəlxalq parlament assambleyalarındakı nümayəndə heyətləri xarici dövlətlərin parlamentlərinə və parlament assambleyalarına məktublar ünvanlayıblar.

Müraciətlərdə deyilir: "Məlum olduğu kimi, Ermənistan irqi ayrı-seçkilik və radikal millətçilik ideologiyası əsasında Azərbaycan xalqına və dövlətinə qarşı genişmiqyaslı hüquq pozuntuları törətmişdir. Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də etdiyi çıxışın bu günlərdə ortaya çıxmış videoyazısı bunu bir daha göstərir. Levon Ter-Petrosyanın prezident qismində səsləndirdiyi və onun özünün hakimiyyəti dövründə baş vermiş işğal və etnik təmizləməni dövlət siyasəti kimi təqdim edən bu çıxış, sözügedən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətini və bu cinayətlərin sistematik və mütəşəkkil şəkildə törədilmiş olmasını birmənalı şəkildə sübut edir".

Məktublarda bütün bunları və eləcə də Ermənistanın irqi ayrı-seçkilik və sülhə zidd siyasətinin davam etməsini nəzərə alaraq, xarici dövlətlərin parlamentlərinə və beynəlxalq parlament assambleyalarına Ermənistanı irqçi siyasətdən, revanşizm və militarizm yolundan çəkindirmək və onun Qərbi azərbaycanlıların qayıdışına şərait yaratması üçün bu dövlətə təzyiq etməyə çağırış ifadə olunur.

**XQ**

# Ermənistana və havadarlarına “soyuq duş”

## *Azərbaycan Prezidentinin qətiyyət manifesti*

**Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bir çox vacib məqamlara toxundu. Dövlətimizin başçısının bildirdiyi hər fikrin geniş və zəngin məna çalarları var. Ümumən, müsahibəni nəzərdən keçirərkən, gözlər önündə iki obraz canlanır. Birincisi, Prezident İlham Əliyevin parlaq və mahir siyasətçi obrazı, ikincisi, rəhbərlik etdiyi güclü və qüdrətli Azərbaycan. Yazımızda ölkəmizin möhkəm iradəsini vurğulayan cəhətlərin siyasi tərəfləri üzərində dayanacaq, dövlətimizin başçısının Ermənistana və havadarlarına mesajlarının müxtəlif məqamlarını təhlil edəcəyik.**



### Əlimiz tətikdədir!

Bəli, Azərbaycan nəyə nail olubsa, öz gücü hesabınadır. Bu mənada, Prezidentin haqqında söz açdığı monoloq məntiqi həm də diktədir. Çünki Ermənistan bizə başqa yol buraxmayıb. Əgər ölkəmiz gücdən istifadə etməsəydi, sərhədlərin delimitasiya və demarkasiyasındakı hazırkı status-kvo formalaşmazdı. Qazaxın işğal altındakı dörd kəndi geri qayıtmazdı.

Status-kvonu formalaşdıran 44 günlük Vətən müharibəsi və onun nəticəsində qazandığımız möhtəşəm Zəfər, lokal xarakterli antiterror tədbirləri ilə suverenliyimizin bərpasıdır. Ona görə rəqiblərimizlə monoloq dili ilə danışırıq və dövlətimizin başçısının qətiyyəti göstərir ki, bundan sonra da danışacağıq.

Prezident İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda ciddi qəbul edilməlidir. Qəbul edilməlidir ki, ölkəmiz Cənubi Qafqazda söz sahibidir. Bu status Azərbaycanı regionda baş verən hadisə və proseslər üçün məsuliyyət daşıyan tərəfə çevirir. Ölkəmiz isə mövcud siyasi coğrafiyada balansın pozulmasını yolverilməz sayır və Ermənistanda gedən silahlanma prosesinə laqeyd yanaşmır.

Silahlanmanın Ermənistanın müdafiə qabiliyyətinin yüksəldilməsinə yönələn tədbir kimi qiymətləndirilməsi mənasızdır. İrəvana belə bir haqq tanınmır. Çünki, o, özünün işğalçı ampluasını aradan qaldırmaq istiqamətində heç bir əməli tədbir görməyib, səmimiyyət nümayiş etdirməyib. Bu səbəbdən dövlətimizin başçısı vurğulayıb: “Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq, Azərbaycan bu imkanları verməyəcək”.

Azərbaycanın dövlət büdcəsindən hərbi və təhlükəsizlik məqsədləri üçün 8,4 milyard vəsait ayrılıb. Halbuki, vəziyyət başqa cür ola bilərdi. Dövlətimizin başçısının dediyi kimi, Ermənistanın silahlanma yarışı, ölkəmizin maliyyə resurslarını hərbi məsələlərə səfərbər edir. Çünki haqqında söz açdığımız regional balansın və təhlükəsizliyin pozulma riski var.

İrəvanda Azərbaycanın riskə getməyəcəyini, boşluq buraxmayacağını nəzərə almalıdırlar. Nəzərə almalıdırlar ki, söhbət heç də təkcə təhdidə qarşı əli tətikdə dayanmaqdan getmir. Başlıca məqam odur ki, Ermənistanın silahlanması ölkəmizi digər əsas vəzifələrin həllinə maliyyə yatırımından məhrum duruma salır və zamanı gəldikdə bunun hesabı sorulacaq. Özü də yalnız Ermənistandan deyil, havadarlarından da. Yeri gəlmişkən, ikincilər aktivdirlər və hər vəchlə çalışırlar ki, erməni məsələsi aktuallığını saxlasın. Bu yanaşma isə onları hazırda onsuz da əhəmiyyəti qalmayan vasitəçilik missiyasından məhrum duruma salır.

### Vasitəçiliyin iflası

Prezident İlham Əliyev ötən ilin aprelində keçirilmiş ABŞ–Avropa İttifaqı–Ermənistan görüşünü qəribə əməkdaşlıq platforması adlandırır. Həqiqətən, belə bir əməkdaşlıq tarixdə ilk dəfədir yaşanır. İndiyədək heç bir dövlətə münasibətdə bu cür formul seçilməyib. Ermənistanı fərqli edən, onu, az qala, XII əsr xaçlılarının müqəddəs hesab etdiyi Qüds səviyyəsinə ucaldan nədir? Bəlkə Qərbdə ermənilərin xristianlıqla bağlı nağıllarına inanır, onları “dinin ilk daşıyıcıları” kimi qiymətləndirirlər? Bu qədərmi sadəlövhdürlər? Görəsən, niyə hesab etmirlər ki, mövcud tendensiya bütövlükdə kollektiv Qərbin etimadını sarsıdır? Halbuki, əvvəldə gözləntilər fərqli idi. Hesab edilirdi ki, Qərb iki Cənubi Qafqaz ölkəsi arasındakı ziddiyyətli durumu normallaşdırmağa, regionda sabitliyin və dayanıqlı sülhün formalaşmasına səy göstərir.

Ancaq Qərbin hədəfləri tam başqadır və dövlətimizin başçısının fikirləri bunu təsdiqləyir. “Bizdə olan məlumata görə, bu görüşdən əvvəl əldə edilmiş razılaşmada hərbi komponent də var idi, ancaq ondan sonra o, rəsmən oradan çıxarıldı, amma de-fakto orada qalır. Bu, əslində, həm Avropa Komissiyasını, həm Amerika Birləşmiş Ştatlarını Azərbaycan–Ermənistan normallaşma prosesindən kənarlaşdırıb. Biz onlara bu barədə artıq bildirmişik. Əgər hər hansı bir tərəf tərəf tutursa, o, dürüst vasitəçi ola bilməz. Məhz buna görə keçən ay Amerika Dövlət katibinin xahişi havada qaldı və Azərbaycan üçtərəfli görüşə razılıq vermədi. O cümlədən, bildiyiniz kimi, Avropa İttifaqı Şurasının prezidentinin təşəbbüsü ilə Brüsseldə bir çox görüşlər keçirilmişdir. Artıq buna da son qoyuldu”, – deyən Prezident Əliyevin Azərbaycan–Ermənistan normallaşması baxımından irəli sürdüyü şəriksiz format ikitərəfli danışıqlardır. Yəni, rəsmi İrəvan xaricdə heç kəsə bel bağlamamalıdır. Yeri gəlmişkən, bu tezis dövlətimizin başçısının digər aqrumentlərinin də leytmotivini təşkil edib.

### Erməni faşizmi məhv edilməlidir!

Bəli, Ermənistan heç bir xarici qüvvəyə ümid bəsləməməli, Azərbaycanla səmimi münasibətlər trayektoriyasını əsas götürməli, etimad quruculuğu tədbirlərini gücləndirməlidir. Lakin ölkənin silahlanması fonunda biz bunun əksini görürük. Onu da görürük ki, Ermənistanda revanşist qüvvələr aktivdirlər və rəsmi İrəvan, necə deyərlər, onların əlinə oynayır.

Erməni iqtidarı mahiyyətcə o düşüncədədir ki, revanşizmdən əl çəkmək onun cəmiyyətdəki mövqeyinin sarsılması reallığını doğuracaq. Rəsmi İrəvan həm də buna görə sülhdən uzaqdır. Deməli, müharibə səhifəsi qapanmayıb və deməli, faşizmə sadiqlik xətti var. Məzh bu səbəbdən dövlətimizin başçısı Ermənistanın yaxın keçmişinin mənfi stereotipləri üzərində dayanır. Axı həmin stereotiplər ölkənin hazırkı davranışına ciddi təsir göstərir: “İndi baxın, Ermənistanın birinci prezidentinin irqçi və faşist açıqlamaları nə dərəcədə eybəcərdirsə, bir o qədər də təhlükəlidir. O, etnik təmizləməni bir qürur mənbəyi kimi qələmə verir, azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarından qovulması ilə öyünür. Sadəcə olaraq, bu videomaterial, necə deyərlər, indi ictimailəşdirildi. Ancaq təbii ki, bunu Ermənistanda bilirdilər. Ermənistanın müttəfiqləri, havadarları təbii ki, bilirdilər və bu fikirləri bölüşürdülər. Bizə qarşı 30 illik işğalçılıq siyasəti, sadəcə olaraq, Ermənistan məhsulu deyil, onunla həmrəy olan islamofob, azərbaycanofob, irqçi, ksenofob dairələrin, xarici ölkələrin nümayəndələrinin birgə məhsuludur. Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur”.

Bəli, erməni faşizmi məhv edilməlidir! Çünki yaşadığımız acı tarix var. O tarix ki, xalqımıza zülm və iztirablar yaşatdı. Baş nazir Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gələndə ümidlər var idi ki, Ermənistan keçmişi bir kənara qoyub sivil münasibətlər yoluna qədəm qoyacaq. Ancaq belə olmadı. Paşinyan “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verməklə, özündən əvvəlki üç liderin yolu ilə getdiyini təsdiqlədi. Ermənistanın 44 günlük müharibədə uğradığı rüsvayçı məğlubiyyət də, lokal xarakterli antiterror tədbirləri də rəsmi İrəvana dərs olmadı.

Deməli, Prezident İlham Əliyev Ermənistanda faşizm ideologiyasının hələ də yaşadığını əbəs yerə önə çəkmir. Ölkəmizin lideri, həmçinin, vurğulayır ki, Azərbaycan buna müşahidəçi qismində baxmayacaq: “Yəni, bu ideologiya orada yaşayır və bunun daşıyıcıları, sadəcə olaraq, bugünkü Ermənistan müxalifəti deyil, Ermənistan iqtidarıdır. Bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna tamaşa edəsi deyilik. Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir, elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq”.

### Sülh müqaviləsi üçün üçüncü şərt

Azərbaycan–Ermənistan sülh sazişi fundamental səciyyə daşımalıdır. Prezident İlham Əliyev bununla bağlı iki şərti açıqlayıb. Az əvvəl diqqətə çatdırdığımız sitatda üçüncü şərtin də diqqətə çatdırıldığını gördük. Söhbət Ermənistana verilən silahların geri alınmasından gedir. Həqiqətən, sual olunur: bir ölkə ki, sülh istəyir, nə üçün silahlanmağa üstünlük verir?

Ermənistan rəhbərliyində təmsil olunanlar, az qala, bütün beynəlxalq platformalarda barışdan dəm vururlar. Belədirsə, hansı səbəbdən silahlanmanı prioritet seçirlər? Axı buna görə Azərbaycan özünün hərbi büdcəsini artırır. Olmazdımı ki, bütövlükdə regionun potensialı səmərəli əməkdaşlığın qurulmasına, bölgə xalqlarının dinc və əmin-amanlıq şəraitində yaşamalarına sərf ediləydi? Görünür, olmazmış!

Bilavasitə sülh müqaviləsinə gəlincə, Prezident İlham Əliyev əvvəl səsləndirdiyi iki şərti təkrarlamaqla, ölkəmizin prinsipiallığını yenidən göstərdi. Söhbət ATƏT-in Minsk qrupunun ləğvindən və Ermənistan konstitusiyasının dəyişdirilməsindən gedir. Minsk qrupu ona görə rəsmən ləğv edilməlidir ki, bu təsisat Azərbaycanın ərazi bütövlüyünün pozulmasını leqallaşdırmaq yönümlü fəaliyyət göstərib, danışıqlar adı altında işğalı şüurlarda möhkəmləndirmək yolu tutub.

Ermənistan konstitusiyası isə ona görə dəyişdirilməlidir ki, sənəddə ölkənin Azərbaycana və Türkiyəyə ərazi iddiasını təsdiqləyən İstiqlaliyyət Bəyannaməsinə istinad məntiqi var. Heç kəs gözdən pərdə asmasın, bu məntiq Ermənistan konstitusiya məhkəməsinin bir qərarı ilə aradan qalxa bilməz. Erməni cəmiyyəti referendum yolu ilə özünün mövcud istiqamətdəki iradəsini ortaya qoymalıdır.

“Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək. Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi – bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Yəni, mən yenə də Ermənistan tərəfinə məsləhət görərdim ki, hər şeyi yaxşı ölçüb-biçsin, o cümlədən, dünyadakı geosiyasi dəyişiklikləri. Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər”,– deyən Prezident İlham Əliyev ölkəmizin mövqeyinin sabitliyi baxımından əminlik yaradır. Ancaq dövlətimizin başçısının Ermənistanla sülh kontekstində üzərində dayandığı daha qlobal məqamlar var.

### Dəyişən dünya – Zəngəzur dəhlizi və İrəvanın öhdəliyi

“Dünən Fransa prezidenti Azərbaycana qarşı yenə də cəfəng ittihamlar irəli sürmüşdü. Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir. Mən hesab edirəm, əgər biz o qədər güclənmişik ki, Fransanın daxili işlərinə qarışa bilərik və nəyisə dəyişə bilərik, biz, sadəcə olaraq, bununla fəxr edə bilərik. Əslində, bu açıqlama öz acizliyinin etirafıdır. Özlərini böyük dövlət adlandıran bir prezident, sən demə, uzaqda – Qafqaz bölgəsində yerləşən, 10 milyon əhalisi olan ölkənin əməllərindən əziyyət çəkir. Halbuki, bizim bu Fransanın daxili işləri ilə bağlı heç bir işimiz yoxdur. Sadəcə olaraq, qeyri-normal yanaşma, qeyri-adekvat siyasət buna gətirib çıxarıb. Yəni, Ermənistan bunu çox ciddi ölçüb-biçməlidir”. Bu fikirlər də Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindəndir. Hesab edirik ki, dövlətimizin başçısının Ermənistanın yaxın dostlarının siyasi səhnədən biabırçılıqla silinməsinə dair bildirdiklərinin fonunda, onun Fransa ilə bağlı səsləndirdiyi tezislər İrəvanda “soyuq duş” effekti yaratmalıdır. Elə bir duş ki, Paşinyan iqtidarında reallıqları görmək üçün immunitet formalaşdırsın. Bu immunitet ona, eyni zamanda, Amerikada Nikolu hakimiyyətə gətirən Soros dövrünün başa çatdığını görməyə imkan verməlidir.

Rəsmi İrəvan onu da görməlidir ki, Yaxın Şərqdə yaxın müttəfiqi olan Əsəd diktaturası artıq yoxdur. Ən əsası isə Ermənistan rəhbərliyi xarici təsirlərdən uzaq dayanıb düzgün addım atmalı, nəzərə almalıdır ki, “biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik”. Ermənistan üçün təhlükə onu, obrazlı desək, əjdahanın ağzına atanlardır. Paşinyan administrasiyasının təmsilçiləri ölkələrinin məhv ola biləcəyini son dərəcə ciddi şəkildə düşünməlidirlər. Nəhayət, onlar düşünməlidirlər ki, Azərbaycan Cənubi Qafqazda sülhün, əməkdaşlığın olmasını istəyir və buna maneçilik törətməməlidirlər.

Bildirdik ki, sülh fundamental mahiyyət daşımalı və konkret faydaya əsaslanmalıdır. Azərbaycan 44 günlük müharibədən sonra Ermənistana barış əlini uzatmaqla, mövcud istiqamətdəki xoş niyyətini ortaya qoymuşdu. Prezident Əliyev heç də əbəs yerə sülhlə əməkdaşlıq məsələlərini vəhdətdə göstərmir. Bu, Ermənistana verilmiş növbəti şansdır, eyni zamanda, onun üçün yandırılan mövcudiyyət işığıdır. Mövcudiyyətin yolu həm də ölkənin Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməməsidir. Sülhün fundamentallıq kazusu həm də budur. Dövlətimizin başçısının qətiyyətlə vurğuladığı kimi, “Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik?”

Bəli, dövlətimiz Naxçıvana yolun “Azərbaycandan Azərbaycana yol” məntiqində israrlıdır. Bu yolda heç bir gömrük və sərhəd nəzarəti olmamalıdır. Həm də ona görə ki, məsələ 44 günlük müharibə məğlubu olan Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikdir. Prezident İlham Əliyevin bildirdiyi kimi, sənəddə hər şey açıq-aydın göstərilib. Baş nazir Nikol Paşinyanın imzasının da yer aldığı bəyanatın 9-cu bəndində bildirilib ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Ancaq Prezident xəbərdarlıq edir: “Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın”.

Ermənistan güc amilinin ön planda olduğunun fərqinə varmalıdır. Zəngəzur dəhlizinin ölkənin suverenliyini şübhə altına qoymadığına şüurlu şəkildə əmin olmalıdır. Yəni, hazırda dövlətimizin başçısının verdiyi təminat budur. Əlbəttə, rəsmi İrəvan bu təminatı nəzərə almayacaqsa, çəmbər daralacaq. Müvafiq olaraq, Ermənistanın əməkdaşlıq mühitindən, başqa sözlə desək, tarixi şəraitdən, gələcək mövcudiyyət şansından faydalanma imkanları qalmayacaq. Belə nəticəyə gəlirik ki, sülh mühitinin qərarlaşmadığı hər gün Ermənistan üçün itirilmiş zaman kəsiyidir. Əlbəttə, belə bir nəticəyə Paşinyan iqtidarının da gəlməsi vacibdir. Gələcəkmi? Bunu zaman göstərəcək. Hələlik isə dövlətimizin başçısı dünyanın xəritəsinə baxmağı təklif edir.

“Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz. Yəni, bunu bizsiz edə bilməzlər və müasir infrastruktur, sabitlik, düşünülmüş siyasət və dünyaya açıqlıq. Yəni, biz yeni dünya nizamına öz töhfəmizi əməllərimizlə veririk, çünki bəzən bu, bir qədər diqqətdən kənarda qalır. Amma mən bilirəm ki, Azərbaycanın son illərdəki addımları çox ciddi təhlil edilir, çox ciddi. Çünki dünya tarixində öz ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb, hər halda, yaxın və orta keçmişə nəzər salsaq. Bunu biz etmişik, bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə rəğmən. Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı da o qədər də çox deyil”, – deyir Azərbaycanın lideri. Prezident İlham Əliyevin fikirləri dəyişən dünyada yeni nizamın qurulacağının anonsudur. Ermənistan rəhbərliyi havadarlarının illüzionist vədlərinə inanmaqdansa, bu anonsu diqqətlə nəzərdən keçirməli, yaranacaq yeni əməkdaşlıq düzənində təmsilçiliyi, ancaq öz maraq və mənfəətini düşünməlidir, başqalarınınkını yox...

### Qərbə mesajlar: yaxşılığa yaxşılıqla...

Prezident İlham Əliyev müsahibəsində Ermənistanla yanaşı, onun havadarları qismində Qərbə də kifayət qədər ciddi mesajlar verdi. İlk növbədə, Paşinyan iqtidarının birbaşa hamisi Fransaya ünvanlanmış ismarıcın üzərində dayanaq.

Dövlətimizin başçısı Bakı–Paris münasibətlərinin tarixinə qısa ekskurs etdi, bir sıra xarakterik məqamları açıqladı. Eyni zamanda, münasibətlərin hazırkı soyuq məcraya düşməsinin səbəbindən söz açdı. Əlbəttə, səbəb Prezident Emmanuel Makron administrasiyasının yarıtmazlığıdır. Ancaq bununla belə Azərbaycan–Fransa əməkdaşlığı üçün heç də hər şey bitməyib. Hər halda, dövlətimizin başçısının fikirlərindən bu qənaətə gəlmək mümkündür. Ancaq şərtimiz var: “Əsas odur ki, bizə toxunmasınlar, bizim işlərimizə qarışmasınlar, Cənubi Qafqazla bağlı məsələlərə müdaxilə etməsinlər. Bu, artıq bizim dəqiq səsləndirdiyimiz tələbdir. Çünki hazırkı fransız hakimiyyətinin müdaxilə etdiyi hər yerdə, birincisi, rüsvayçı şəkildə uğursuzluq baş verir, ikincisi, onlar yalnız intriqa gətirirlər. Yalnız intriqa”.

Qərbin ABŞ seqmentinə gəlincə, Prezident İlham Əliyevin səsləndirdiyi son dərəcə vacib mesaj budur – Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi Amerika–Azərbaycan münasibətlərini Amerika–Ermənistan münasibətlərinin qurbanına çevirməsidir. “Yəni, Azərbaycana Ermənistan–Azərbaycan, ya da ki, Amerika–Ermənistan münasibətlərinin prizmasından yanaşırdı və o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qaldı – bu birincisi. İkincisi, Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləmişdir, xüsusilə Qarabağ məsələsi ilə bağlı və bu, həm ədalətsiz, həm də ki, ikili standartlara əsaslanan mövqe idi. Çünki mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim və açıq da deyirdim, mətbuatda da, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Cavab da bəllidir ki, bu, ikili standartlardır. Eyni zamanda, hesab edirəm, Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə”, – deyən ölkəmizin lideri mövqeyinə aydınlıq gətirib.

Avropa İttifaqının ABŞ ilə birlikdə erməni təəssübkeşliyinin ötən il diqqət çəkən yeni platformasından söz açdıq. Prezident İlham Əliyev Cənubi Qafqaza yanaşmada ölkəmizin Qərbin Aİ seqmenti ilə münasibətləri üzərində ayrıca da dayanıb. Dövlətimizin başçısının bu baxımdan səsləndirdiyi başlıca mesaj isə budur – yaxşılığa yaxşılıqla, pisliyə isə adekvat cavab veriləcək.

Bəli, ABŞ kimi, Aİ də Bakı–İrəvan trekinin normallaşması prosesindən tamamilə kənarlaşıb. Buna görə Prezident Əliyev bildirib ki, əgər Ermənistanın silahlandırılmasının və qondarma Sülh Fondunun bundan sonra da davamı olacaqsa, buna qarşı əks tədbirlər görüləcək: “Amma biz normal münasibətlər təklif edirik: gəlin, normal, ikitərəfli əməkdaşlıq edək. Biz sizdən asılı deyilik, sizdən heç nə gözləmirik, sizin ailənizə üzv olmağa can atmırıq, açığını desək, siz heç vaxt müsəlman əhalisi olan ölkəni qəbul etməyəcəksiniz. Elə isə gəlin, yaxşı qonşular olaq, əməkdaşlıq edək, buyurun, ticarət edək, sataq, alaq, texnologiyalar əldə edək”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İqtisadiyyatın uğur düsturu

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidentinin müsahibəsində digər iqtisadi göstəricilərlə bağlı fikirlər də diqqət çəkir:

**– il ərzində valyuta ehtiyatları, təqribən, 5 milyard dollardan çox artıb və hazırda bu rəqəm 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük göstəricidir. Çünki hər şey müqayisədə ölçülür. Dünya ölkələrinin valyuta ehtiyatlarının hesablanması, əlbəttə ki, adambaşına düşən ehtiyatlara söykənməlidir və bu göstəriciyə görə, Azərbaycan dünyada aparıcı ölkələrin sırasındadır;**

**– ümumi daxili məhsulun xarici borca olan nisbəti də diqqət çəkir. Bu məsələdə də Azərbaycan dünyada liderlər sırasındadır. Çünki ölkəmizin xarici borcu (hazırda 5,2 milyard dollar səviyyəsindədir) ÜDM-in cəmi 7,2 faizini təşkil edir. Valyuta ehtiyatları xarici borcu 14 dəfə üstələyir.**

Müsahibədə diqqətçəkən digər bir məsələ isə dövlət büdcəsi ilə bağlı oldu. Qeyd edək ki, 2024-cü ilin 9 ayında dövlət büdcəsinə proqnozlaşdırılandan 0,2 faiz çox vəsait daxil olub. Büdcənn gəlirləri 53,4 milyon manat artaraq 27 milyard 737 milyon manata çatıb. Büdcə xərclərində isə proqnoz 42,2 milyon manat çox icra edilib və nəticədə xərclərin həcmi 25 milyard 174 milyon manata yüksəlib. Dövlət büdcəsinin vəsaiti hesabına bütün xərc sifarişləri tam və vaxtında təmin edilməklə 2 milyard 563 milyon manat məbləğində profisit yaranıb. Bütün bu müsbət makroiqtisadi göstəricilər Azərbaycanın 2024-cü ili uğurlu və əlamətdar dövr kimi başa vurduğunu təsdiqləyir.

Ötən il iqtisadiyyatın daha da böyüməsi, güclü fiskal-maliyyə yığımları ilə dövlət büdcəsinin gəlir və xərclərinin artırılması nəticəsində büdcənin gəlir və xərclərinə dəyişiklik edildi. Bununla da büdcənin gəlirləri 6,5faiz artırılaraq 36 milyard 388 milyon manata, xərcləri sə 8,1faiz artırılaraq 39 milyard 742,3 milyon manata çatdırıldı.

Dövlət başçısı müsahibədə bütün bunlar barədə danışarkən, qeyd etdi ki, büdcə parametrləri hər bir ölkənin iqtisadi potensialını əks etdirir. Bu ilin büdcəsi də rekord səviyyədədir. Büdcə xərcləri 41 milyard manatdan çoxdur. İcmal büdcə isə 48 milyard manatı ötür: “Yəni, Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. Bütün bu amilləri sadalayaraq bir daha göstərmək istəyirəm ki, biz yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində bu nəticələrə çatmışıq. Mən dəfələrlə bildirmişdim və artıq hesab edirəm ki, bunu hər kəs görür, hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır. Yəni, iqtisadi cəhətdən, maliyyə məsələləri cəhətindən əgər heç kimdən asılı deyilsənsə, sən müstəqil siyasət apara bilərsən”.

Büdcə parametrlərində diqqətçəkən həmin göstəricilər təbii ki, sosial şəraitin daha da yaxşılaşdırılmasını şərtləndirir. Bu il yanvarın 1-dən minimum əməkhaqqının 55 manat artaraq 400 manata, minimum pensiyanın 40 manat artaraq 320 manata çatdırılması da bunun bariz ifadəsidir. Təkcə bu göstəricilər isə ölkə rəhbərinin müsahibədə vurğuladığı kimi, siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, keçən il Azərbaycanın D-8-ə – müsəlman ölkələrini birləşdirən ən böyük təşkilata üzv seçilməsi ilə bağlı fikirləri də maraq doğurdu. Belə bir tarixi hadisənin respublikamız üçün növbəti uğurlu addım olduğunu vurğulayan ölkə lideri bildirdi ki, Azərbaycanın bu nüfuzlu quruma üzv qəbul edilməsi dövlətimizin nüfuzunu bir daha göstərdi: “Siz də yaxşı bilirsiniz ki, bu təşkilat 30 ilə yaxın bundan əvvəl yaranmışdı, Türkiyənin təşəbbüsü ilə və 8 ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir”.

Yeri gəlmişkən, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının yaranması ilə bağlı təşəbbüs ilk dəfə olaraq 1996-cı il oktyabr ayının 22-də adıçəkilən qurumun İstanbulda keçirilən birinci toplantısında səsləndirilib. Bundan bir il sonra – 1997-ci il iyunun 15-də isə həmin şəhərdə gerçəkləşən dövlət və hökumət başçılarının Zirvə görüşündə adıçəkilən format təsis edilib. Qeyd edək ki, D-8 təşkilatına ölkəmiz qoşulana qədər Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxil idi. D-8-in qarşısında isə üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, sosial-iqtisadi sahələrdə əlaqələri gücləndirmək əsas vəzifə kimi qoyulurdu.

Xatırladaq ki, Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 2017-ci il oktyabrın 20-də qurumun İstanbulda “Əməkdaşlıq yolu ilə imkanları artırmaq” devizi altında keçirilən IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin görüşdəki çıxışında 3 qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq dünyada baş verən gərginliklər fonunda belə bir nüfuzlu toplantının reallaşdırılmasının önəmini bildirib.

Qeyd edək ki, D-8 hazırda dünyada böyük iqtisadi potensiala malik bir təşkilat kimi tanınır. Üzv ölkələrdə, təqribən, 1,1 milyard insan yaşayır. 8 ölkənin iqtisadiyyatının həcmi, təxminən, 3, 8 trilyon dollar təşkil edir. Üzv ölkələrin ticarət dövriyyəsi isə 1,6 trilyon dollar səviyyəsindədir. Yəni dünya ticarət dövriyyəsinin 4,5 faizini təşkil edir. Bütün bunlarla yanaşı, 3 qitəni əhatə edən D-8 4 trilyon ABŞ dollarından artıq ÜDM-ə malikdir. Eyni zamanda, 130 milyard ticarət dövriyyəsi həyata keçirir, üzv ölkələrin əhalisinin sayı, ümumilikdə, dünya müsəlmanlarının 60 faizini təşkil edir. Bu isə həm də o deməkdir ki, D-8 böyük iqtisadi potensiala malikdir.

D-8-in perspektiv əhəmiyyəti isə təşkilatın fəaliyyətində iqtisadiyyatın diversifikasiyasının önəmli yer tutması ilə bağlıdır. Başqa sözlə, D-8 ölkələri bu sahədə birgə fəaliyyət göstərərək xammal əsaslı məhsullardan asılılığı azaltmaq, istehsalat, texnologiya və xidmət sahələrinə diqqəti daha da artırmaq imkanı əldə edir.

Digər ölkələrlə əməkdaşlıq D-8 üzvü olan dövlətlər üçün enerji infrastrukturunun inkişafını prioritet təşkil edir. Ümumilikdə quruma üzv olan bir sıra ölkələrin bərpa olunan enerji sahəsində geniş



potensialı var. D-8-in qarşısındakı qlobal məqsədlərindən biri də üzv ölkələr arasında ticarət sahəsindəki əngəllərin aradan qaldırılması və birbaşa investisiyaların təşviqinə nail olmaqdan ibarətdir.

Məqsədə çatmaq üçün iqtisadi inkişafa xidmət edən birgə təşəbbüslərin reallaşdırılması, hər ölkənin potensialına və gələcəyə əsaslanan iqtisadi layihələrin icrası, təcrübə mübadiləsi, daxili və xarici ticarətin inkişafı yolundakı maneələrin aradan qaldırılması, siyasi dialoqun təşviq edilməsi və genişlənməsi, texnoloji inkişafa xidmət edən innovativ layihələrin icrası, “yaşıl” enerji layihələrinin icrası proseslərinin dəstəklənməsi və rəqabət qabiliyyətinin artırılması kimi şərtlərin təmin olunması vacibdir.

Prezident İlham Əliyevə iqtisadi məsələlərlə bağlı verilən suallardan biri də respublikamızın İtaliya, Yunanıstan, Macarıstan və Türkiyə kimi bir çox ölkələrə qaz təchizatını artırması, gələcəkdə də Avropanın enerji daşıyıcıları ilə təmin edilməsində göstərəcəyi yardımla bağlı idi. Bu barədə fikirlərini diqqətə çatdıran dövlətimizin başçısı Azərbaycanın hazırda müxtəlif infrastruktur layihələrindən, əsasən, Cənub Qaz Dəhlizi və onun artırılmasından istifadə edərək, qaz təchizatının coğrafiyasını genişləndirdiyini, son zamanlar isə Avropada istismara verilmiş yeni interkonnektorlar vasitəsilə müxtəlif bazarlara çıxışın gerçəkləşdiyini bildirdi. Ölkə rəhbəri daha sonra dedi: “2022-ci ildə başlamış Rusiya–Ukrayna müharibəsi nəticəsində Avropaya Rusiyanın qaz təchizatının pozulması zamanı, Avropa Komissiyası yardım üçün Azərbaycana müraciət etdi. Həmin vaxt Avropa Komissiyasının sədri (Prezidenti) buraya, Bakıya gəldi. Elə bu zaldan çöldə biz Bəyannamə imzaladıq. Biz razılaşdıq və dedik, sizə kömək etməyə və Avropaya qaz təchizatımızı iki dəfə artırmağa hazırıq. Həmin vaxt, Avropa istiqamətində qaz təchizatımız yeddi milyard kubmetr idi”.

Müsahibədə vurğulandığı kimi, 2022-ci ildə başlanan Rusiya–Ukrayna münaqişəsi ilə əlaqədar Avropada enerji mənbələrinin şaxələndirilməsinə daha ciddi ehtiyac duyuldu. Bu zaman Azərbaycan Avropanın əsas qaz tərəfdaşlarından birinə çevrildi. Elə bunun nəticəsində ölkəmizdən “mavi yanacağ”ın ixracında davamlı artım qeydə alındı.

Hazırda Azərbaycan qazı 10 ölkəyə, o cümlədən, Türkiyə, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiyaya ixrac edilir. Eyni zamanda, Sloveniya və Xorvatiya kimi yeni dövlətlərə də tədarük genişləndirilir.

Şaxələndirmə ötən ildə də diqqət mərkəzində saxlanıldı. Bunun bariz ifadəsi respublikamızın Sloveniya və Xorvatiyaya qaz ixracına başlaması oldu. 2024-cü ilin iyul ayında Azərbaycan Dövlət Neft Şirkəti Sloveniyanın “Geoplin” qaz şirkəti ilə memorandum imzaladı və avqustun 1-dən qaz tədarükünə başladı. Sentyabr ayında isə Macarıstanın “PPD” və “MET Group” şirkətləri ilə Xorvatiyaya qaz ixracı üzrə razılaşma əldə edildi. Bu təşəbbüslər Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini daha da möhkəmləndirdi.

Azərbaycanın ötən il Şimali Makedoniya ilə “mavi yanacaq” ixracı ilə əlaqədar əməkdaşlığı da şaxələndirmə istiqamətində mühüm hadisə kimi dəyərləndirildi. Belə ki, 2024-cü ilin noyabr ayında Azərbaycan Dövlət Neft Şirkəti Şimali Makedoniyanın “ESM” Səhmdar Cəmiyyəti ilə enerji təhlükəsizliyini gücləndirmək məqsədilə uzunmüddətli əməkdaşlıq haqqında memorandum imzaladı. Bu razılaşma 2024–2025-ci ilin qış mövsümündə qaz tədarükünün perspektivlərini əhatə etdi.

Hesabat ilinin son ayında isə respublikamızdan Slovakiyaya “Həmrəylik halqası” təşəbbüsü çərçivəsində pilot qaz tədarükünə başlandı. Bolqarıstanın təşəbbüsü ilə başlanan bu layihə Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanı birləşdirən modernləşdirilmiş qaz-nəqliyyat sistemi vasitəsilə reallaşdı. Layihənin iştirakçılarının geniş yeraltı qaz anbarlarına malik olmaları Azərbaycanın qazını Avropaya sabit şəkildə tədarük etməyə imkan yaratdı. Beləliklə, hesabat dövründə Azərbaycanın qaz ixracı ilə bağlı uğurları respublikamızın Avropanın enerji təhlükəsizliyinin gerçəkləşdirilməsindəki artan strateji rolunu şərtləndirdi.

Beləliklə, 2024-cü ildə Azərbaycandan Avropaya 9 milyard kubmetrdən çox (2023-cü ilin eyni dövrü ilə müqayisədə, təqribən, 10 faiz çox) qaz ixrac edilib. Ümumilikdə isə 2020-ci ilin dekabrında TAP boru kəmərinin işə salınmasından 2024-cü ilin sentyabrına qədər bu nəhəng infrastruktur vasitəsilə 40 milyard kubmetrdən çox qaz nəql olunub. TAP-ın imkanlarının genişləndirilməsi ilə bu il ərzində adıçəkilən boru kəmərinin illik ötürmə qabiliyyətini 1,2 milyard kubmetr artırmaq proqnozlaşdırılıb.

Bu məqamda onu da xatırladaq ki, 2022-ci ildə Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq memorandumu imzalandıqdan sonra Cənub Qaz Dəhlizi infrastrukturunun modernləşdirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə layihələr davam etdirilir. Bu çərçivədə kompressor stansiyaları modernləşdirilir, interkonnektorların tikintisi həyata keçirilir və Transadriatik Boru Kəmərinin (TAP) ötürmə qabiliyyətinin artırılması istiqamətində yeni təşəbbüslər irəli sürülür. Məsələn, artıq TAP-ın illik ötürmə qabiliyyətinin 2026-cı ilə qədər 1,2 milyard kubmetr artırılacağı gözlənilir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Avropa İttifaqının üzvü olan bir çox ölkə hazırda öz daxili qaz istehlakının, təxminən, yarısını Azərbaycan qazı ilə təmin edir. Bu, həqiqətən də, Azərbaycanın Avropada tərəfdaşlarına göstərdiyi ciddi dəstəkdir. Beləliklə, perspektiv üçün əsas məqsəd coğrafiyanı genişləndirməkdir.

Yeri gəlmişkən, dövlətimizin başçısı sözügedən müsahibəsində ölkəmizin “mavi yanacaq” potensialı ilə bağlı qeyd etdi ki, ehtiyatlarımız kifayət qədərdir, çünki qazın təsdiqlənmiş həcmi artmaqdadır. Bir neçə il öncə həcmin 2,6 trilyon kubmetr təşkil etdiyi bildirilirdi. Lakin indi, yenicə kəşf edilmiş, o cümlədən, gələcəkdə nəzərdə tutulan ehtiyatlarla bu səviyyə daha da artacaq: “Ümid edirik ki, bu il biz AÇQ-də “Dərin Qaz” layihəsindən ilk qazı alacağıq və bu, bütövlükdə qaz hasilatına gözəçarpan töhfə olacaq. Bununla belə, “Şahdəniz”in hələ də əsas qazı təchiz edən yataq kimi qalacağını nəzərə alsaq, biz “Abşeron”da qaz hasilatının 1,5-dən 5 milyard kubmetrə qədər artırılması məqsədilə tərəfdaşlarla çalışmağı planlaşdırırıq”.

Ölkə rəhbəri müsahibədə Azərbaycanda “Qarabağ”, “Babək”, “Asiman” və digər yataqlar kimi çox perspektivli layihələrin mövcudluğunu, bunların isə qaz potensialının artırılmasında önəmli rol oynayacağını da diqqətə çatdırdı.

***V.BİNYATOĞLU***
***XQ***

# Qaçılmaz missiya

## *Soydaşlarımızın Qərbi Azərbaycana dönüşünü heç kəs əngəlləyə bilməyəcək!*

**Zaman bütün suallara cavab verən adil hakimdir. 44 günlük müharibədə tarixi Zəfərimiz bizim yeni hədəflərə doğru aparan yolumuzu işıqlandırdı, dünən röya kimi görünənlərin bu gün reallığa çevrilməsi gerçəkliyini ortaya qoydu. Doğrudur, Qarabağ boyda problemimiz həllini gözlədiyi halda Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququndan danışmaq bəlkə də vaxtı qabaqlamaq kimi görünərdi. Amma artıq vədə yetişib və bu gün biz haqlı olaraq bu mövzunu beynəlxalq arenaya çıxarmışıq. Bəli, Qərbi azərbaycanlılar özlərinin dədə-baba torpaqlarına qayıtmaq istəyirlər və qayıtmalıdırlar. Bu, onların bütün beynəlxalq konvensiyalarda öz təsbitini tapmış hüquqlarının təmin edilməsi və tarixi ədalətin bərpası demək olacaq.**



Bəs, qarşı tərəfdən nə görürük? Hələlik bu mövzudan müxtəlif bəhanələrlə yayınmağa çalışan rəsmi İrəvan xaricdəki havadarlarının diktəsi ilə Bakının sülhə yönəlik addımlarına, Ermənistanın özünə dividendlər gətirəcək təşəbbüslərinə qarşı çıxır. Ermənistan hakimiyyətinin bütün imkanları ilə Qərbi azərbaycanlıların qayıdış hüququnun reallaşmasına mane olmağa çalışdığı göz qabağındadır. Amma, yuxarıda qeyd etdiyimiz kimi, ən böyük hakim artıq öz hökmünü verib.

XX əsrin əvvəllərində, 1948-1952-ci illərdə və Qarabağ münaqişəsinin başlandığı 1988–1989-cu illərdə ata-baba yurdundan zorla çıxarılmış hər bir azərbaycanlının doğma ocağa qayıtmaq hüququ var. Arxiv sənədləri, foto-video sübutlarla təsbit olunmuş bu mütləq həqiqəti Ermənistan rəhbərliyi nə qədər tez qəbul etsə, həm özünün, həm də sülhün xeyrinə iş görmüş olar. Soydaşlarımızın təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıdışı onların hüquqlarının bərpası və ədalətin təntənəsi olmaqla yanaşı, iki ölkə arasında möhkəm sülhün əldə edilməsi üçün zəruri şərtə çevrilib. Hayların başbilənləri bu reallığı da dərk etməlidirlər. Anlamalıdırlar ki, soydaşlarımızın doğma yurdlarına qayıdış hüququ beynəlxalq hüququn və fundamental insan haqlarının ayrılmaz tərkib hissəsidir. Bu gerçəyi daşnak-şovinist, irqçi ritorikasından əl çəkməyi bacarmayan hayların həzm etməsi çətin görünə bilər. Amma buna məhkumdurlar. Azərbaycan bu məsələni diplomatik yolla həll etməkdə israralıdır. Heç kəsə sirr deyil ki, indiki mərhələdə rəsmi Bakının nümayiş etdirdiyi mövqe, göstərdiyi səylər məhz bu planın dinc yolla reallaşmasına hesablanıb. Yəni, soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı heç bir halda Ermənistana ərazi iddiası kimi qəbul edilə bilməz.

Qaçılmaz reallıqla üz-üzə qalan İrəvan ermənilərin Qarabağa qayıdışı ilə azərbaycanlıların Qərbi Azərbaycana dönüşü məsələsini eyniləşdirməyə çalışır. Müqayisəyə gəlməyən məsələləri qarşılaşdırmağa girişən erməni siyasətçilərin üzünə dirənən həqiqət var: azərbaycanlılar tarixən Göyçə, Zəngəzur və İrəvanda yaşayıblar, ermənilər isə Qarabağa sonradan köçüblər. Buna baxmayaraq Bakı ermənilərin Qarabağda yaşamasına etiraz etmir. Sadəcə, bildirir ki, bunun üçün etnik ermənilər Azərbaycan vətəndaşlığını qəbul etməli və hamı kimi, ölkə qanunları ilə yaşamalıdırlar. Bu zaman Azərbaycan onların təhlükəsizliyinə təminat verir.

Qərbi Azərbaycana qayıdış indi Bakının əsas hədəflərindəndir. Prezident İlham Əliyev öz çıxışlarında bunu dəfələrlə bəyan edib. “Hələ 10 il bundan əvvəl bu mövzunu artıq siyasi gündəliyə gətirmiş oldum və mənim tövsiyəmlə o vaxt Azərbaycan alimləri elmi əsərlər yaratmağa başlamışlar. İrəvan xanlığı haqqında böyük elmi əsər yaradılmışdır və Qərbi azərbaycanlıların keçmişdəki yaşayışı, orada məskunlaşması, tarixi xəritələrin çap etdirilməsi. Bütün bunları biz o vaxt da elə görürdük, çünki bu, bizim haqlı istəyimiz idi. Amma yenə də deyirəm, hər şeyin ardıcıllığı var və sıra artıq gəlib çatıb ki, biz bu məsələ ilə bağlı daha ciddi məşğul olmağa başlamışıq. İlk növbədə, Azərbaycanda fəaliyyət göstərən, Qərbi Azərbaycandan olan bir neçə ictimai qurum vahid bir təşkilat çərçivəsində birləşdi. Qərbi Azərbaycan İcması, onun fəaliyyəti daha da təkmilləşdi, o cümlədən, beynəlxalq fəaliyyəti, bir çox beynəlxalq təşkilatlarla təmaslar yaratdı və bu məsələ artıq beynəlxalq gündəliyə salınmışdır. Çünki bu, vacibdir. Həm beynəlxalq leksikona, həm beynəlxalq gündəliyə artıq bu məsələ salınmışdır. Bundan sonra, əlbəttə ki, bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar. Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir”. Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib.

***

Qərbi Azərbaycan layihəsi ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir. Ərazisi bütövləşmiş dövlətin xalqın kimlik bayrağını doğma yurdun hər qarışına sancmaq kimi olduqca milli və tarixi missiyası da var.

*(ardı 5-ci səhifədə)*

# Paşinyan özünü sülhpərvər göstərir, amma unudur ki...

**Ermənistan baş naziri Nikol Paşinyanın 1994-cü ilin mayın 12-dən, yəni atəşkəsə dair Bişkek şəhərində protokol imzalanmasından onun hakimiyyətə gəldiyi 2018-ci ilin mayınadək Azərbaycanla aparılan danışıqlarla bağlı 2024-cü il dekabrın 23-də verdiyi bəyanat ölkənin siyasi həyatında əsas müzakirə mövzularından biri olaraq qalmaqdadır. Yada salaq ki, Paşinyan həmin gün demişdi: "1994-cü ildən, yəni atəşkəsdən sonra danışıqlar prosesi yalnız Dağlıq Qarabağın və digər ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması barədə olub. Prosesdə başqa heç bir məzmun olmayıb".**

O qeyd etmişdi ki, Ermənistanda danışıqların başqa məsələlərlə bağlı olduğu barədə yayılan məlumatlar daxili auditoriyaya yönəlib: "Bu kontekstdə mən böyük səhvə yol verdim. 2018-ci ildə danışıqların məzmunu ilə tanış olduqdan sonra yuxarıda qeyd olunanları xalqıma etiraf etmədim. Sizə məlum olan vətənpərvərliyim bunu etməyə imkan vermədi. Buna görə də həmin məsələlərin üstündən keçdim və onları xalq üçün aydınlaşdırmadım".

Bundan sonra Paşinyan "Facebook" sosial şəbəkəsindəki hesabında ölkənin üç keçmiş prezidentinə – Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyana müraciət edərək onları debata çağırmışdı: "Mən dediklərimi Ermənistanın sabiq prezidentləri ilə canlı debatlar formatında əsaslandırmağa hazıram. Yaxşı ki, keçmiş prezidentlər öz nümayəndələri vasitəsilə Dağlıq Qarabağ üzrə danışıqlar prosesi ilə bağlı mənim yazdığıma cavab verdilər. Amma mən nümayəndələrimin arxasında gizlənmirəm. Məncə, onların da gizlənməməsi düzgün olardı. Mənim yazdıqlarımı mübahisələndirən sabiq prezidentlərin reaksiyasını gözləyirəm".

Ancaq sabiqlər baş nazirlə debata çıxmaqdan imtina edərək Paşinyana, qeyd olunduğu kimi, öz nümayəndələri vasitəsilə cavab vermişdilər.

Bundan sonra R.Koçaryanın prezidentliyi dövründə (1998–2008) Ermənistanın xarici işlər naziri olmuş Vardan Oskanyan dilə gəlmişdi. Demişdi ki, N.Paşinyanla debatı baş tutsaydı, ATƏT-in keçmiş Minsk qrupu həmsədrlərinin 2007-ci ildə təqdim etdiyi və şərti olaraq "Madrid prinsipləri" adlanan sənədi özü ilə gətirərdi. Oskanyan bu sənədi 1994-cü ildən davam edən danışıqların "kulminasiya sənədi" adlandırmışdı: "Əgər Paşinyan deyirsə ki, 1994-cü ildən danışıqlar "Artsax"ın Azərbaycana verilməsi ilə bağlı aparılıb, bu o deməkdir ki, "kulminasiya sənədi"ndə belə bir məqam öz əksini tapmalı idi. Amma, bu, sadəcə olaraq, təsbit edilməyib, əksinə, sənəddə "Dağlıq Qarabağ xalqı"nın (?) öz müqəddəratını təyinetmə hüququ təsbit olunur. Bu, onu deməyə əsas verir ki, Nikol xalqa yalan danışır, amma bunu hansı məqsədlə etdiyini başa düşə bilmirəm. Paşinyan sıfır nöqtədən başlamalı, Madrid prinsipləri əsasında danışıqları davam etdirməli idi. Belə olan halda bu gün Laçın dəhlizi ilə birgə "Artsax" olardı, sərhədləri açıq normal Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə münasibətləri qurulardı. Paşinyan "Artsax"ın itirilməsinin əsas günahkarıdır və buna görə cavabdehdir. Mən onu məsuliyyəti başqalarının üzərinə atmamağa, öz üzərinə götürməyə çağırıram".

Qeyd etdiyimiz kimi, məsələ ölkənin ictimai-siyasi dairələrində geniş müzakirə olunduğundan media qurumlarının da diqqətindədir. "Azadlıq" radiosunun erməni xidməti – "Azatutyun" ötən ilin son günlərində Ermənistan baş nazirinə yazılı sorğu ilə müraciət etmişdi. Sorğuda cəmi bir sual öz əksini tapmışdı: "Nikol Vovayeviç, siz Qarabağ probleminin həlli ilə bağlı həm hakimiyyətə gəlməmişdən əvvəlki, həm də baş nazirliyiniz dövründəki rəsmi sənədləri dərc etməyə hazırsınızmı ki, cəmiyyət faktlarla tanış olsun və siyasi spekulyasiyalar olmadan özü nəticə çıxarsın?!"



Dünən baş nazirin aparatı radionun sorğusunu cavablandırıb. Cavabda deyilir: "Baş nazir Nikol Paşinyan xarici işlər nazirinə Qarabağ danışıqları ilə bağlı xarici işlər nazirliyində mövcud olan sənədlərin inventarlaşdırılmasının aparılmasını tapşırıb. Ermənistanın dövlət təhlükəsizliyinin maraqlarını nəzərə alaraq bu materialların dərci imkanlarını qiymətləndirdikdən sonra onların çap olunub-olunmamasına dair qərar veriləcək".

Məsələyə R.Koçaryanın oğlu, parlamentdəki "Hayastan" blokunun deputatı Levon da münasibət bildirib. O, atasının N.Paşinyanla debatda iştirakdan niyə imtina etməsi ilə bağlı suala belə cavab verib: "Bu barədə çox danışılıb. Yeri gəlmişkən, bütün danışıqlar prosesi ilə, yəqin ki, yaxından tanış olanlardan biri kimi Vardan Oskanyan bu məsələ ilə bağlı əks təkliflə çıxış edib. Lakin qarşı tərəf bununla razılaşmadı. Hətta, Nikol Paşinyan hesab edirsə ki, belə deyək, o baş nazirdir və sabiq nazirlə debata çıxmaq onun səviyyəsinə uyğun deyil, o zaman Ararat Mirzoyana debatda iştirak təklif oluna bilər. Beləliklə, hər şey açıq və aydındır".

Qeyd etmək lazımdır ki, Paşinyanın belə iddialı bəyanatla çıxış etməsinə rəğmən, danışıqlar prosesinin 1994-cü ildən etibarən Qarabağın və işğal olunmuş ətraf 7 rayonun Azərbaycanın nəzarətinə qaytarılması istiqamətində aparıldığı fikri az inandırıcıdır. Ermənistan tərəfi danışıqları yerdə mövcud olan vəziyyəti, yəni status-kvonu legitimləşdirmək məqsədilə aparırdı. Paşinyanın fikirlərində məntiq tapmaq da çətindir. Məsələ ondadır ki, Ermənistanın ikinci və üçüncü prezidentləri Qarabağda etnik separatizm ocağının alovlandırılmasında, eləcə də sonradan ölkəmizə qarşı təcavüz zamanı əyinlərinə hərbi forma geyinərək, əllərinə silah alaraq döyüşlərdə bilavasitə iştirak etmiş şəxslərdir. Hər kəsə aydındır ki, söhbət R.Koçaryan və S.Sarkisyandan gedir. Məgər Koçaryan və Sarkisyan o torpaqları sonradan Azərbaycana qaytarmaq üçün işğal etmişdilər?!

Eləcə də Azərbaycan torpaqlarının Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın dövründə işğal olunduğunu unutmaq olmaz. Hətta, Ter-Petrosyanın bir neçə gün öncə yayılmış 1993-cü ilə aid çıxışı onun özündən sonrakılardan heç də fərqlənmədiyini ortaya qoyur. Məlum olur ki, ən böyük faşist təfəkkürlü şəxs elə Ter-Petrosyanın özüdür. Bu baxımdan əvvəlki prezidentlərin, guya, danışıqları işğal olunmuş əraziləri Azərbaycana qaytarmaq istiqamətində aparmalarına dair Paşinyanın fikirləri məntiqə uyğun deyil. Əksinə, onlar xarici havadarlarına arxalanaraq, işğalı möhkəmləndirmək yolunu tutmuşdular. Nəinki, əvvəlki üç prezident, elə N.Paşinyanın özü də Azərbaycana münasibətdə güzəştsiz xəttin tərəfdarı idi. Onun hakimiyyətinin ilk iki ilində səsləndirdiyi bəyanatlar, o cümlədən, 2019-cu il avqustun 5-də Xankəndiyə qanunsuz səfər edərək burada qondarma "ümumerməni yay oyunları"nın açılış mərasimində Qarabağın Ermənistan ərazisi olmasına dair dedikləri yadımızdan çıxmayıb. Çıxması mümkün də deyil. Hətta, biz bəzi hallarda Paşinyanın İkinci Qarabağ müharibəsindən və antiterror tədbirlərindən nəticə çıxarmadığını da görürük.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: "Ermənistanla onilliklər ərzində dialoqun alınmaması aydındır. Ermənistanın işğalçı siyasəti hər hansı dialoqu nəzərdə tutmurdu, onlar danışıqlar formatından işğalı davam etdirmək üçün pərdə kimi istifadə edirdilər. Bu yaxınlarda mətbuatda çıxan informasiya – məhz Ermənistanın birinci prezidentinin faşist bəyanatı bizim prinsipcə kifayət qədər çoxdan bildiyimizi bir daha təsdiq edir: Ermənistan Azərbaycan ərazilərinin bir santimetrini belə azad etmək istəmirdi. Onlar hesab edirdilər ki, bir müttəfiqdən milyardlarla dollarlıq pulsuz silah, digər ikisindən isə siyasi və mənəvi dəstək aldıqlarına görə özlərini rahat hiss edirlər. Beləliklə, ATƏT-in Minsk qrupunun üç həmsədrinin hamısı mənim cavab verdiyim həmin dövrdə birmənalı olaraq işğalçının tərəfində idi. Mən bunu 2004-cü ildən Minsk qrupu çərçivəsində danışıqlar aparan və bu "üçlüklə" çox sayda görüşlər keçirən insan kimi deyirəm. Ona görə də biz, əlbəttə, bu ərazilərin dialoq yolu ilə qaytarılacağını güman etmirdik. Eləcə də ərazi bütövlüyünün təmin edilməsini..."

Dövlətimizin başçısı onu da bildirdi ki, Ermənistanın birinci üç rəhbəri faşist ideologiyasının daşıyıcılarıdır: "Ermənistanın indiki rəhbəri, mən demişəm, indi özündən "sülh göyərçini" düzəltmək istəyir. Amma baxın, görün, onun 2018–2019-cu illərdəki çıxışlarına, onları indi heç kim xatırlatmaq istəmir..."

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **"World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** bildirdi ki, hazırda Ermənistanın daxili siyasi həyatında böyük çaxnaşma hökm sürür. Onun sözlərinə görə, bu gün Ermənistanda baş verənlər, yəni ictimai-siyasi xadimlərin bir-birinə yönələn ittihamları, suçlamaları məğlub dövlətlərə xas yanaşmadır: "Onlar keçmişdə olub-bitən məsələlərlə bağlı bir qədər də irəli gedərək hazırda şantajla məşğuldurlar. Qarabağın və digər ətraf ərazilərin müharibə yolu ilə geri alınmasına zəmin yaradan, sülh çağırışlarına məhəl qoymayan məhz Qarabağ klanı oldu. Onlar danışıqlar prosesində düzgün mövqe seçmədilər. Onların hazırda "Paşinyan Qarabağın Azərbaycana qaytarılması üçün hər şeyi etdi" deməsi yanlış yanaşmadır. Qarabağı bizə Paşinyan qaytarmayıb. Biz öz hərbi gücümüz hesabına torpaqlarımızı işğaldan azad etmişik".

R.Məmmədova qeyd etdi ki, Paşinyan arxiv sənədlərinin açılmasının mümkünlüyünə işarə vuraraq əsas müxalifət qüvvələrini qorxutmağa çalışır: "Hazırda Ermənistanda siyasi prosesləri Qarabağ məsələsi üzərində qurublar. Daxili mübarizə də bu istiqamətdə gedir. Bu yaxınlarda sabiq xarici işlər naziri Vardan Oskanyan da demişdi ki, "Madrid prinsipləri"ndə "Qarabağ xalqı"nın öz müqəddəratını təyinetmə hüququ təsbit olunub. Ancaq unudur ki, işğal altındakı ərazilərin azad olunması üçün Azərbaycan tərəfi hərtərəfli güclənəcəyi günü gözləyirdi. Prezident İlham Əliyevin çıxışlarında bildirdiyi kimi, hər bir



Azərbaycan vətəndaşı fəaliyyəti ilə həmin günü yaxınlaşdırırdı. Hamımız başa düşürdük ki, müharibə qaçılmazdır. O, gec-tez baş verəcək. İnsanlar buna psixoloji olaraq hazır idilər. Xalq olaraq görürdük ki, problemin həlli üçün xarici ölkələrdə Minsk qrupu çərçivəsində aparılan danışıqlar vaxtı uzatmağa hesablanıb. Biz bu diplomatik danışıqları aparsaq da, ordumuzu da gücləndirirdik, onu müasir silah-sursatla təchiz edirdik".

Politoloq onu da bildirdi ki, Qarabağ klanını təmsil edən şəxslərin nə deməsi bir o qədər əhəmiyyətli deyil. Eyni zamanda, torpaqlarımız işğaldan azad edilərkən Ermənistanda hakimiyyətdə kimin olmasının da əhəmiyyəti yox idi. Bu məsələ bizim üçün prinsipial əhəmiyyət daşıyırdı, torpaqlarımız gec-tez azad olunacaqdı. Sadəcə, Paşinyanın aşkar təxribatçı bəyanatları, danışıqlar prosesini faktiki olaraq pozması və sərhədyanı bölgədə açıq təxribatlara başlaması prosesi bir qədər tezləşdirdi.

***Səxavət HƏMİD***
***XQ***

# Qaçılmaz missiya

**(əvvəli 4-cü səhifədə)**

Əgər bu gün bu missiyanı gerçəkləşdirməsək bizi gələcəyə aparan yolun yarıda qırılma təhlükəsi yarana bilər.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi icmalçı Fərhad Məmmədovun** sözlərinə görə, Qərbi Azərbaycana qayıdış məsələsi cəmiyyətimizdə dəstəklənən mövzudur: "Azərbaycan Prezidenti İlham Əliyev müsahibəsində bu məsələni xüsusi olaraq vurğuladı. Cənab Prezident qeyd etdi ki, bu, ilk növbədə, insan haqları kontekstində başa düşülməli və qəbul olunmalıdır. Heç bir halda qonşu ölkəyə qarşı ərazi iddiası formasında təsnifatlandırıla bilməz. Vaxtilə orada yaşamış soydaşlarımız beynəlxalq konvensiyalarda göstərilən hüquqlara malikdirlər. Qayıdış məhz həmin hüquqi bazaya əsaslanır. Əgər bu gün dünya ictimaiyyəti və yaxud hansısa beynəlxalq təşkilatlar, əks-arqument kimi, Qarabağ ermənilərinin geri qayıtması məsələsini qabardırsa, onda Azərbaycan da Qərbi azərbaycanlıların yurduna dönməsi mövzusunu gündəmə gətirib. Bu iki məsələyə məhz paralel olaraq baxılmalıdır. Əslində, bu, "Dağlıq Qarabağ" münaqişəsinin humanitar fəsadları sayılmalıdır. Bu fəsadlardan hansınısa ayrıca götürüb onun üzərində müzakirənin açılması və ya sənəd qəbul edilməsi qətiyyən düzgün deyil. Doğrudur, bu məsələ sülh sazişində öz əksini tapmayıb. Amma bu mövzu iki ölkə arasında sülh prosesinin tərkib hissəsidir. İndiki məqamda Azərbaycan onu nümayiş etdirir ki, o, bu müstəvidə də danışıqlar aparmağa hazırdır".

Bu gün 300 min Qərbi azərbaycanlının doğma yurdlarına qayıtmasının vacibliyindən danışan cənab Prezident bütövlükdə həmin bölgədən çıxmış və bu gün respublikanın müxtəlif bölgələrində yaşayanların, onların nəvə və nəticələrinin sayının daha çox olduğunu bildirdi. Yerli telakanallara müsahibəsində tarixə nəzər salan dövlətimizin başçısı münaqişənin köklərini və səbəblərini biməyənlərə XIX əsr rus imperiyasının xəritələrinə baxmağı tövsiyə edir: "Orada bütün toponimlərin Azərbaycan mənşəli olması göz önündədir. Ya da rus imperiyasının XX əsrin əvvəllərində tər-



tib edilmiş xəritələrini götürək. Orada da bütün şəhərlərin adları Azərbaycan mənşəlidir. Orada siz "Sevan gölü" adlı bir göl görməzsiniz. Orada Göyçə gölü yazılıb. Biz deyəndə ki, bu, bizim tarixi torpağımızdır, biz həqiqəti deyirik. Bunu hətta bu yaxınlarda mətbuata çıxmış Ermənistanın birinci faşist prezidentinin çıxışında da özü deyir ki, üç rayonda azərbaycanlılar əksəriyyət təşkil edirdi. Zəngəzurda azərbaycanlılar əksəriyyət təşkil edirdi".

Azərbaycan xalqının XX əsrdə üç dəfə deportasiyaya məruz qaldığını qeyd edən İlham Əliyev bu deportasiyaların hər dəfə böyük fəsadlarla müşayiət olunduğunu vurğulamağı da unutmadı. Mövcud şəraitdə Ermənistan baş nazirini Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etməyə çağıran dövlətimizin başçısı bu addımın demokratik dəyərlərə riayət edilməsi baxımından da doğru olduğuna diqqəti çəkdi: "Qəbul etsin, onların dilindən problemlərini eşitsin, dinləsin onları. Yəni, onlar oradan əsassız qovulmuşlar. Onların tam hüququ var ki, oraya qayıtsınlar. Əgər bunu etməsə, onda hansı Avropa demokratiyasından söhbət gedir? Axı, Ermənistan özünü bu gün Avropa demokratiyası yolu ilə gedən ölkə kimi təqdim edir. Qoy, onu əyani şəkildə göstərsin. Eyni zamanda, hesab edirəm ki, ATƏT də bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidir. Biz Avropa Komissiyasından da mövqe gözləyirik. Yəni, sadəcə olaraq, bunu görməzliyə vurmaq düzgün addım deyil. Bu, ciddi problemdir. Bu, yüz minlərlə insanın hüquqlarının bərpası məsələsidir. Bu, insan hüquqları məsələsidir. Bu, ədalət məsələsidir".

***

"Ermənistan tərəfi nəzərə almalıdır ki, Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüslər gec-tez mütləq reallaşır. Və həmin təşəbbüslərin gerçəkləşməsinin özünəməxsus metodologiyası var". **Bu fikrin müəllifi, siyasi şərhçi Tofiq Abbasov** hesab edir ki, Azərbaycan dövlətinin gündəmə gətirdiyi təklif və məramlar, ideya və proqramlar heç də kortəbii çəkildə ortaya çıxmır: "Bunların üzə çıxmasında konkret hadisələr, müəyyən amillər öz rolunu oynayır. Sonradan bu təşəbbüslər elə forma alır ki, onların reallaşma ehtimalı artır.

Ola bilsin ki, hazırda Ermənistan cəmiyyətində bu məsələyə inanan azdır. Yəni, buna fantastik istək kimi baxsalar da, əslində, elə deyil. Məsələ heç də Qərbi Azərbaycan İcmasının güclənməsində, xaricdə öz nümayəndəliklərini yaratmasında, mövzunun dünyada əks-səda doğurmasında deyil. Mahiyyət ondan ibarətdir ki, ermənilər ötən əsrin axırlarından etibarən azərbaycanlılara qarşı bir neçə dəfə dəhşətli cinayətlər törədiblər. Bununla da onlar qonşuları ilə sülh şəraitində yaşamaq niyyətində olmadıqlarını ortaya qoydular. Çox təhlükəli tendensiyadır. Çünki bu zaman haylar bəşər övladının təməl haqlarını ayaqlar altına atmış olurlar. İnsanın doğulduğu yerdə yaşamaq və işləmək haqqı var. Azərbaycanlıların öz yurdlarına qayıtmaq kimi təbii hüquqları mövcuddur. Bu günlərdə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın açıqlamasını eşitdiniz. Deyir ki, 90-cı illərin əvvəllərində Ermənistanı, sonra isə Qarabağı azərbaycanlılardan təmizləmişik. Guya, ermənilərin yaşadıqları yerlərdə azərbaycanlılar yoxdur. Bununla da soydaşlarımıza qarşı deportasiyanı həyata keçirdiklərini etiraf edirlər.



İrəvan nə qədər inkarçılıqla məşğul olsa da, müxtəlif bəhanələr uydursa da, bu məsələ öz həllini tapacaq. Hayların bəhanələrindən biri də odur ki, məsələni "güzgü prinsipi" ilə yoluna qoymaq lazımdır. Ermənilər Qarabağa, azərbaycanlılar Qərbi Zəngəzura qayıtsınlar. Birincisi, Azərbaycan erməniləri Qarabağdan deportasiya etməyib. Bizə silah qaldırmayan, hərbi cinayət törətməyən ermənilər buyurub qayıda bilərlər. Qarabağda Azərbaycan vətəndaşı olan ermənilər yaşayırlar. Necə ki, soydaşlarımız da doğma yurdlarına qayıdaraq Ermənistan vətəndaşı kimi yaşayıb çalışmalıdırlar. Sadəcə olaraq, bu işlərə maneçilik törədilməsin. Onda Böyük Qayıdışdan danışa biləcəyik".

Azərbaycan Prezidentinin müsahibəsində qeyd etdiyi kimi, indi əsas vəzifə həqiqəti dünya ictimaiyyətinə çatdırmaqdır. Dövlətimizin başçısının Qərbi Azərbaycana qayıdışla bağlı dediyi bu sözlər isə Fransa başqda olmaqla ermənipərəst düşərgəyə ünvanlanan sərt mesaj idi. Prezident onu da demişdir ki, əgər indiki baş nazir demokratdırsa, özü də Avropa demokratiyasının "banisi olan" Fransa prezidenti Makronun dostudursa, qoy, ona göstərsin, qoy, icazə versin: "Yəni, bizim istəyimiz bundan ibarətdir və bunu tələb etmək hər hansı bir ərazi iddiasında olmaq demək deyil. Sadəcə olaraq, buna insan hüquqları nöqteyi-nəzərindən yanaşmaq lazımdır və biz bu məsələni gündəlikdən çıxartmayacağıq. Halbuki, bizə belə təkliflər var. Amma bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana və o cümlədən, Qərbi Zəngəzura yerləşəcəklər".

Fəaliyyətində bu tezisi əsas tutan Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyası reallaşacaq və soydaşlarımız doğma yurdlarına mütləq qayıdacaqlar.

Azərbaycan dövlətinin başçısı hakimiyyətinin ilk dövrlərindən etibarən bütün çıxışlarında Qarabağa qayıdış barədə danışırdı. Sözün əmələ çevrildiyi məqam yetişdi və Azərbaycan Ordusu Qarabağı işğalçılardan azad etdi. Əslində, bu, rəsmi Bakının düşünülmüş xarici siyasət kursunun, diplomatik uğurunun təzahürü olmaqla yanaşı, həm də ölkəmizin hərbi qüdrətinin, liderin seçdiyi hədəflərə addım-addım yetişməsinin göstəricisi oldu. Nəyi, nə zaman və necə edəcəyini dəqiq hesablayan cənab Prezidentin Qərbi Azərbaycana və Qərbi Zəngəzura qayıdışı da təmin edəcəyinə heç kəsin şübhəsi olmasın. Buna qarşı çıxanlara ismarıcımız isə çox sərtdir: son aqibətiniz daha betər ola bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Geosiyasətin “Suriya möcüzəsi”

**III məqalə**

## Azərbaycan geosiyasi aktor kimi yeni mərhələdə

Artıq məsələni qətiyyətlə məhz belə qoya bilərik. Rəsmi Bakı real olaraq regionlararası məkanda təsiri olan addımlar atır. Bununla bağlı Suriya kontekstində iki məqam daha da aktuallaşmışdır.

Onlardan biri Azərbaycan rəhbərliyinin regionlararası siyasətə regional siyasətdən uğurlu keçid etməsidir. Digəri isə bunun realpolitik fakt kimi beynəlxalq dairələr tərəfindən qəbul edilərək ciddi təhlil olunmasıdır.

Azərbaycan Prezidenti hər iki məqamın çox gözəl politoloji izahını vermişdir. Dövlət başçısı Azərbaycan televiziya kanallarına verdiyi son müsahibədə onları aydın vurğulamışdır: “Öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq. Bir tərəfimiz Xəzər üzərindən Orta Asiyaya uzanır, bir tərəfimiz Avropaya və bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz. Yəni, bunu bizsiz edə bilməzlər və müasir infrastruktur, sabitlik, düşünülmüş siyasət və dünyaya açıqlıq. Yəni, biz yeni dünya nizamına öz töhfəmizi əməllərimizlə veririk, çünki bəzən bu, bir qədər diqqətdən kənarda qalır”.

Biz təhlillərimizdə Azərbaycan Prezidentinin siyasi kursunun vurğulanan aspektlərinə geniş yer vermişik. Lakin ölkə rəhbəri həmin məqamları çox dolğun və lakonik tezislərlə daha dərin və adekvat formada ifadə etmişdir. İlham Əliyevin yuxarıdakı fikirlərindən onların bir qismini göstərmək olar.

Birincisi, Azərbaycan Prezidenti “öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq” tezisi ilə faktiki olaraq rəsmi Bakının regional siyasətinin mühüm özəlliyini konkret ifadə etmişdir. Regionda “yeni nəqliyyat və energetika xəritəsi yaratmaq” reallıqda çox sferaları əhatə edən yenilikdir. Bunu Azərbaycan sərmayə qoyuluşu ilə siyasətinin harmoniyası sayəsində həyata keçirmişdir. Bir müstəqil dövlətin regional siyasətinin bu cür özəllikləri olduqca vacib məqamdır.

Belə görünür ki, Azərbaycan rəhbərliyi düşünülmüş şəkildə siyasi maraqlarının həyata keçməsi üçün regional miqyasda faydası olan irihəcmli sərmayə qoyuluşları etmişdir. Bu, məqsədə çatmağın hüquqi, siyasi və geosiyasi aspektlərdə ədalətli üsuludur. Təbii ki, həmin kurs regional miqyasda uğurlu olmaq üçün ciddi əsaslar vermişdir. Dövlət başçısının sonrakı fikri bunu təsdiq edir.

İlham Əliyev vurğulayır ki, “Bir tərəfimiz Xəzər üzərindən Orta Asiyaya uzanır, bir tərəfimiz Avropaya və bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz”.

Bu, çox əhəmiyyətli təsbitdir. Çünki ölkənin lideri aydın şəkildə regional miqyasda həyata keçirilən siyasi kursun Azərbaycan üçün konkret nəticələrini dəqiq ifadə edir. Onun iki tərəfi vardır. Birinci tərəf ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olaraq regional geosiyasi uğurunu regionlararası məkana müvəffəqiyyətlə proyeksiya edə bilmişdir.

İkinci tərəf isə həmin yeniliyi qlobal miqyasda birmənalı qəbul etmişlər: hər kəs görür ki, “Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz”!

Yəni Azərbaycan regional miqyası aşaraq regionlararası əlaqələri qurmaq və təşkil etmək, onların loqistika ehtiyacını ödəmək istiqamətlərində özünü tam təsdiq etmişdir! Politoloji anlamda həmin fakt onu ifadə edir ki, artıq Azərbaycan regionlararası miqyasda real fayda verə bilən aktiv oyunçu kimi qəbul edilir. Bu baxımdan Suriya “möcüzəsi” həm də Azərbaycan xarici siyasətinin uğurlarından biridir.

Bütün bunlardan dövlət başçısı çox maraqlı və aktual ümumiləşdirmələr etmişdir ki, onların qlobal miqyasda əhəmiyyəti şübhə doğurmur. İlham Əliyev öncə hansı ümumi siyasi və diplomatik səbəblərdən Bakının bunlara nail olduğunun qısa izahını verir. Həmin təminedici faktorlar aşağıdakılardır: “müasir infrastruktur, sabitlik, düşünülmüş siyasət və dünyaya açıqlıq”.

Etiraf edək ki, Prezidentin ifadə etdiyi bu məqamların hər birinin ayrıca politoloji təhlili olduqca vacibdir. Liderlik baxımından onlar tamamilə yeni yanaşma əsasında regional miqyasda nəticəverici siyasət yeritmək üçün çox faydalıdırlar. Burada məqalənin məqsədinə uyğun olaraq yalnız dünyaya açıqlıq amili üzərində dayanaq.

## “Dünyaya açıqlıq”

Ümumiyyətlə, müstəqil dövlət kimi milli səviyyədən regional, oradan da regionlararası miqyasa siyasi və geosiyasi mənalarda açıq olmaq məharətli yanaşma tələb edir. Bu, müasir siyasətdə trivial məsələ deyildir. Xüsusilə, söhbət dövlət siyasətindən gedirsə, kifayət qədər faktorların və təsir rıçaqlarının nəzərə alınmasını tələb edir.

İlham Əliyevin siyasi kursunun bir sıra özəllikləri mövcuddur. Onların sırasında regiona, regionlararası məkana və qlobal miqyasa açıqlıq xüsusi yer tutur. Bütövlükdə, müasir fəlsəfədə, elmdə və politologiyada “açıqlıq” anlayışının məna



çeşidləri məlumdur. Burada əsas olaraq sistemin (bu, fiziki, kimyəvi, bioloji, informasiya, sosial və s. obyektlər ola bilər) ətraf mühitlə (politologiyada – başqa dövlətlər, cəmiyyətlər, iqtidarlar, beynəlxalq təşkilatlarla) daim sərbəst informasiya və digər mübadilələrə açıq olmaq anlamına gəlir. Yəni ölkə kimi qarşılıqlı fayda verə biləcək əlaqələrə hazır olmaqla onu praktiki reallaşdırmağın düzgün nisbətini müəyyən etmək, açıqlığın mühüm əlamətlərindən biridir.

Bu anlamda dövlətin ətraf mühitə açıqlığının onun hər bir təsiri qəbul etməyə hazır olması anlamına gələ bilməz. Burada elə incə seçim olmalıdır ki, iki şərt ödənsin. Birincisi, ölkə kənar təsirlərə özünü hazır bilsin, ikincisi, əlaqə – müsbət əks-əlaqə prinsipi dəqiqliklə ödənilsin. Yəni hər iki tərəf üçün əlaqə qarşılıqlı olaraq faydalı olsun.

Azərbaycan məhz vuğulanan mənada regional və qlobal miqyaslara həmişə açıq olmuşdur. Bunu Bakı praktiki fəaliyyəti, irəli sürdüyü təşəbbüslər, reallaşdırdığı layihələrlə sübut etmişdir. Onun nəticəsi kimi Azərbaycan, bir qayda olaraq, həm regional, həm də regionlararası miqyaslarda uğurlu olmuşdur. Bununla yanaşı, müxtəlif təşkilatlarda olduqca faydalı fəaliyyət göstərmişdir.

Dünyaya açıqlığın siyasi və geosiyasi anlamda mənasında müasir infrastruktur, sabitlik və düşünülmüş siyasət xüsusi yer tutur. Vurğulanan faktorların praktiki nəticəverici olması kökündə dünyaya açıqlığın mahiyyəti dayanır. Deməli, bu prinsipə görə, Azərbaycan regional miqyasdan regionlararası miqyasa nəticəverici keçid edə bilər. Onun əsas məqamını dövlət başçısı aşağıdakı kimi ifadə etmişdir: “Yəni, biz yeni dünya nizamına öz töhfəmizi əməllərimizlə veririk, çünki bəzən, bu, bir qədər diqqətdən kənarda qalır”!

İndi Suriya məsələsində həmin transformasiyanın bir özəlliyinə baxaq.

## Suriyada terrorla mübarizə və humanitarlıq

Prezident İlham Əliyev konkret Suriya mövzusunda regionlararası miqyasda Azərbaycanın xarici siyasətinin iki mühüm istiqamətini açmışdır. İlham Əliyev Suriya məsələsini nəzərdə tutaraq demişdir: “Biz istəyirik, burada öz töhfəmizi verək ki, Türkiyənin heç olmasa bu sərhədində terrora son qoyulsun və hesab edirəm ki, bu, çox ciddi geosiyasi dəyişiklik olacaq, böyük coğrafiyada sülhün, sabitliyin, əməkdaşlığın bərqərar olmasına gətirib çıxaracaq”.

Azərbaycan bu cür davranışı ilə sərhədlərindən kənarda “sülhün, sabitliyin, əməkdaşlığın” bərqərar olması üçün terrorla mübarizədə müttəfiqinə yardım edir. Həmin kontekstin Azərbaycan lideri “ciddi geosiyasi dəyişiklik”liyə təkan verəcəyi fikrini irəli sürür.

Məsələnin digər tərəfi Azərbaycanın Suriya ilə bağlı başqa bir addım atmasında da öz əksini tapmışdır. Prezident bununla bağlı müsahibəsində demişdir: “Biz çox şadıq ki, Suriyada dəyişikliklər baş verdi və bu münasibətlə Türkiyə ilə Suriyanın yeni hökuməti arasında mövcud olan əlaqələr, əlbəttə ki, bizi də çox sevindirir... Biz də Türkiyənin yanında olmağa hazırıq və bunu etməyə də başlamışıq. Türkiyənin dəstəyi ilə birinci yardım karvanı da yola düşdü. Çünki Türkiyənin dəstəyi və logistik dəstəyi olmasaydı, bu, mümkün ola bilməzdi. Eyni zamanda, bizim Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin oraya göndərilməsi də Türkiyənin dəstəyi ilə olub”.

Bu fikirlərdən müstəqil dövlətin başçısının həm üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirmək, həm də müstəqilliyə sadiqliyi gözləmək kimi iki siyasi liderlik fəzilətinə sahib olduğu aydın görünür. Azərbaycan terrorla mübarizə ilə yanaşı, Suriyaya humanitar yardım etməyi və bu zaman, müttəfiqi Türkiyənin xidmətlərini səmimiyyətlə vurğulayır. Bizcə, Azərbaycanın milli səviyyədən regional miqyasa, oradan da regionlararası və qlobal miqyasda uğurlu transformasiyalarının mərkəzində liderin yüksək səmimiliyi, söz bütövlüyü, etibarlılığı və qarşılıqlı faydalı əməkdaşlıq kursu ayrıca yer tutur!

## Türkün zəfər yolu davam edir

Suriya hadisəsinin regional və qlobal miqyaslarda bir çox geosiyasi xarakterli faktorlara ciddi təsir etdiyi aydın görünür. Azərbaycan Prezidentinin həmin kontekstdə qarşıda yeni ciddi geosiyasi dəyişikliklərin ola biləcəyi ilə bağlı verdiyi proqnoz tam əsaslıdır. O cümlədən, Bakı getdikcə daha geniş məkanda və daha aktiv surətdə özünün geosiyasi faydalı olmaq rolunu inkişaf etdirəcəkdir. Bu prizmada Azərbaycanın, Azərbaycan–Türkiyə tandeminin və bütövlükdə, Türk Dövlətləri Təşilatının (TDT) Avropa, Yaxın Şərq, Qafqaz, Mərkəzi Asiya və Uzaq Şərq kimi geniş geosiyasi regionlararası məkanda yeni səviyyədə təsirli olacağını proqnozlaşdıra bilərik.

Türk dövlətlərinin zəfər yolu davam edir. Bütün dünyanın fayda görəcəyinə və daha ədalətli yeni dünya nizamının formalaşacağına ümid etmək olar. Azərbaycan Prezidenti, əslində, bu prosesin anonsunu müsahibəsində vermişdir. İlham Əliyev yeni dünya nizamının formalaşması ilə bağlı inamla ifadə etmişdir: “Əslində, biz bu prosesin fəal iştirakçısı olmalıyıq. Biz, sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur.

...Mən əminəm ki, yeni dünya nizamı tam formalaşma prosesinə düşəndə, o cümlədən, Azərbaycanın mövqeyi də nəzərə alınacaq... Biz buna hazır olmalıyıq”

Buna görə də yeni geosiyasi möcüzələrin şahidi ola bilərik! Əslində, XXI əsrin özəlliklərindən biri də bəşəriyyəti təəccübləndirməkdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Vazgen Sarkisyan haqqında film?!

*Erməni cinayətkarların “qəhrəman”laşdırılması xroniki xəstəliyə çevrilib*

**Birinci Qarabağ müharibəsində Azərbaycan xalqına qarşı vəhşiliklər törətmiş şəxslərdən biri də Vazgen Sarkisyan olub. İndi Ermənistanda onun haqqında film çəkməyi qərara alıblar. Burada Azərbaycan və Türkiyəyə qarşı əzazil olmuş cinayətkarların qəhrəmanlaşdırılması yeni deyil. Vazgen Sarkisyan bunlardan birincisi deyil, yəqin ki, sonuncu da olmayacaq. İrqçi düşüncənin hakim olduğu ölkədə bütün bunlar normal sayılır.**

1918–1920-ci illərdə Zəngəzurda görünməmiş cinayətlər törətmiş, İkinci Dünya müharibəsində alman faşistləri ilə əməkdaşlıq etmiş Garegin Njde haqqında filmə “kasıb” Ermənistan 7 milyon dollar pul xərcləməmişdimi?! Bütün etirazlara rəğmən bu faşistə İrəvanın mərkəzi küçələrindən birində heykəl qoyulmadımı?! Bu ölkədə Andranik Ozanyan, Drazdamat Kanayan (Dro), Garegin Njde, Soqomon Teyliryan, Monte Melkonyan kimi əli minlərlə günahsız insanın qanına batmış canilərin adına küçə, məktəb, mərkəzlər var. Onlar dərs kitablarında “qəhrəman” kimi təbliğ olunurlar. V.Sarkisyanın ideallaşdırılması, onun “xidmətlərinin” geniş təbliğ olunması irqçi erməni ideologiyasının davamı sayılmalıdır.

Amma Ermənistanın özündə bu eybəcərliyi görənlər və ona etiraz edənlər də az deyildir. Vazgen Sarkisyanı yaxşı tanıyan, 1990-cı illərdə Erməni Milli Hərəkatının liderlərindən olan keçmiş dissident Paruyr Hayrikyanın çıxışı Ermənistanı qarışdırıb. 1999-cu ildə parlament basqını zamanı öldürülən və bundan sonra Ermənistanın milli qəhrəmanı adı verilən Vazgen Sarkisyanın törətdiyi əməllərin nə dərəcədə zərərli olduğunu dilə gətirən Hayrikyan Qarabağ müharibəsi canisini ifşa edib. O, heç kəsin gözləmədiyi şəkildə öz “Facebook” səhifəsində yazıb: “Vazgen Sarkisyan Ermənistan dövlətçiliyində çox mənfi rol oynamış şəxsdir. O, 1988–1990-cı illərdə cinayət şəbəkəsinin rəhbəri olub”.

Onun yaydığı videoya münasibət bildirənlərin çoxu Hayrikyana dəstək vermiş, bəziləri şahidlik etmişlər ki, Vazgenin bütün addımları cinayətkar şəbəkənin dövləti ələ keçirməsinə hesablanmışdı. Hayrikyanın tale yoldaşlarından olan dissident Şant Harutyunyan V.Sarkisyan haqqında çəkiləcək filmə reaksiya verib:



“Hayrikyanı təqdir edirəm. Ermənistanı bu günə salanlardan biri Vazgen olub”.

Xaricdə yaşayan bloger, həm də partiya sədri Vardan Qukasyan isə “Vazgenə dil uzatdığına” görə Hayrikyanı söyərək hədələmiş və təhqir etmişdir. Cinayətkar birisinin havadarları Hayrikyanı öldürəcəklərini söyləyirlər.

İndi bu ölkədə ən böyük maraq doğuran məsələ filmdə nələrin qabardılacağıdır. Qarabağda azərbaycanlılara yaşatdıqları zülmdənmi? Xocalıda, Meşəlidə və başqa yerlərdə terrorçu Monte Melkonyanla birlikdə Vazgen Sarkisyanın soyqırımı cinayətləri yenə “qəhrəmanlıq səhifələri” kimi təqdim olunacaq?..

Bəs, filmin “qəhrəmanı” kimdir? Vazgen Sarkisyan Vedi rayonunda doğulub. Gənc yaşlarından qatı millətçi, anti-Azərbaycan, anti-türk təbliğatçı, “Qarun” (Bahar) ədəbi jurnalının redaktoru kimi tanınan V.Sarkisyan 1990-cı ildə Ermənistan Ali Sovetinə deputat seçilib. O, “Dağlıq Qarabağ” hadisələri başlanan gündən erməni hərəkatının ən fəal üzvlərindən biri, ilk silahlı dəstələri yaradanlardan olub. Həmin silahlı qruplar Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın öz yurdlarından qovulub çıxarılmasında fəal iştirak ediblər. Ermənistanın ilk prezidenti Levon Ter- Petrosyanın da ifadə etdiyi kimi, hələ SSRİ zamanında ermənilərin ən “böyük uğuru” bu ölkədən azərbaycanlıların qovulub çıxarılması olub. Bu işə V.Sarkisyan birbaşa rəhbərlik edib.

Yəqin ki, filmdə Vazgen Sarkisyanın 1991-ci ildə Ermənistanın ilk müdafiə naziri təyin edilməsindən, terrorçu qrupları erməni ordusuna çevirməsindən danışılacaq. Onun nazir kimi fəaliyyəti isə Ermənistanda deyil, “Dağlıq Qarabağda” etnik təmizləmə fəaliyyətindən bəhs ediləcək. Bu zaman Azərbaycanın Ağcakənd bölgəsində törətdiyi cinayətlər yada salınacaq, bu bölgəni terror yuvasına çevirməsini əks etdirən videolentlər ortaya qoyulacaq. Onun cinayətkar şəriki, ASALA-nın üzvü Monte Melkonyanın da adı çəkiləcək. Ağdərə, Şuşa, Xocalı, Laçın və Xocavənddə keçirilən hərbi əməliyyatlara rəhbərlik edərkən hansı qəddarlıqlara imza atdığı da “qəhrəmanlıq səhifəsi” kimi anılacaq.

1992-ci ilin sonlarında V.Sarkisyan Ermənistan prezidentinin müdafiə məsələləri üzrə müşaviri vəzifəsində çalışarkən, 1993-cü ildə dövlət naziri kimi Ermənistanda müdafiə, təhlükəsizlik və daxili işlər orqanlarına başçılıq edərkən bütün cinayətlərin başında duran şəxs olub. O illərdə V.Sarkisyan “Dağlıq Qarabağa” qanunsuz silah daşınmasında, xarici ölkələrdə yaşayan erməni və qeyri-erməni muzdluların Qarabağa gətirilməsində xüsusi fəallıq göstərib. Onu tanıyanlar danışırlar ki, cəllad xislətli Sarkisyan uzun-uzadı müzakirə və mübahisələri xoşlamır, istənilən vaxt, istənilən məkanda məsələni qısa və konkret şəkildə özünün tabel silahı ilə həll etməyə daha çox üstünlük verirdi. Adam öldürmək onun üçün su içimi kimi bir şey olub. O, Ermənistanda “qorxu imperatorluğu” yaratmışdı.

1995-ci ildə ikinci dəfə Ermənistanın müdafiə naziri təyin edilən, həm “Dağlıq Qarabağ”da, həm də Ermənistanda silahlı qüvvələri öz nəzarəti altına alan V.Sarkisyan erməni siyasi liderləri üçün təhlükəli personaya çevrilmişdi. Sonralar Levon Ter-Petrosyan etiraf edəcək ki, onun hakimiyyətdən uzaqlaşdırılmasını V.Sarkisyan istəmişdi. Qarabağdakı cinayətkar dostlarını – Robert Koçaryan və Serj Sarkisyanı Ermənistana dartıb gətirən o idi.

1997–1998-ci illərdə Vazgen Sarkisyan – Robert Koçaryan – Serj Sarkisyan üçlüyünü birləşdirən bir dəyər vardı: var-dövlət toplamaq, işğaldakı əraziləri talamaq. R.Koçaryanın Ermənistan prezidenti seçilməsini də V.Sarkisyan istəmişdi. 1999-cu ildə V.Sarkisyan baş nazir, Karen Dəmirçiyan isə parlamentin sədri idi. Amma uzun müddət belə davam edə bilməzdi. Bir quldur o biri qulduru aradan götürmək üçün fürsət gözləyirdi. İndi heç kəsdə şübhə yoxdur ki, 1999-cu il 27 oktyabr terroru nəticəsində rəqibləri – Vazgen Sarkisyan və Karen Demirçyanın öldürülməsində R.Koçaryanın əli olub.

Xüsusu maraq doğuran cəhətlərdən biri ondan ibarətdir ki, filmdə 27 oktyabr terroru nəticəsində jurnalist Nairi Hunanyan tərəfindən öldürülən bu şəxslərdən, 1999-cu il parlament “qətliamı” ilə bağlı cinayət işinin indiyədək açılmamasının səbəblərindən bəhs ediləcəkmi? Çətin... Çünki bu cinayətin açılması Ermənistanda heç bir siyasi qrupa sərf etmir. Əslində, həmin qrupların hamısı bölgəmizdə törədilən bütün cinayətlər şəbəkəsinin tərkib hissəsi olublar. Ermənistan adlanan dövlətin özü bu gün də cinayətkar şəbəkənin əsiri olaraq qalmaqdadır.

*Qfi ıı ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Torpaq qiymətləndirilməsi təkmilləşir

**Ölkəmizdə "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidməti istifadəyə verilib. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən məlumat verilib.**

Bildirilib ki, xidmət vasitəsilə torpaqların kateqoriyalara aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlərin qəbulu və baxılması artıq elektron qaydada "vahid pəncərə" prinsipi əsasında



həyata keçirilir. Qurumun məlumatına görə, torpaqların bir kateqoriyadan digərinə keçirilməsi, kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciət edən subyektlər (torpaq mülkiyyətçisi və istifadəçisi olan sahibkarlar, vətəndaşlar, dövlət qurumları və bələdiyyələr) İqtisadiyyat Nazirliyinin elektron xidmətlər portalına (https://e-services.economy.gov.az/) daxil olub "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidmətini seçərək və ya kateqoriya.emlak.gov.az domen ünvanına daxil olaraq müraciət edə bilərlər.

Qeyd edək ki, dövlət mülkiyyətində olan torpaqlara münasibətdə aidiyyəti dövlət orqanları, bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə müvafiq bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə torpaq mülkiyyətçiləri, torpaqlar uzunmüddətli istifadəyə verildiyi hallarda mülkiyyətçinin yazılı razılığı ilə icarəçi və ya istifadəçi olan fiziki və ya hüquqi şəxslər bu elektron xidmət vasitəsilə müraciətlərini və müraciətin əsaslandırılmasına dair sənədlərini real vaxt rejimində Əmlak Məsələləri Dövlət Xidmətinə göndərə bilərlər.

Müraciət edən subyektlər üçün Digital Login vasitəsilə elektron xidmətə daxil olmaqla müraciətlərini formalaşdırıb "ASAN İmza" ilə təsdiqləyərək göndərmək, şəxsi kabinet üzərindən müraciətə baxılmanın gedişatını izləmək, baxılmanın nəticələrinə dair bildiriş almaq, həmçinin çatışmayan sənəd və məlumatları sorğusu əsasında Əmlak Məsələləri Dövlət Xidmətinə göndərmək imkanları yaradılıb.

Dövlət Xidmətindən o da bildirilib ki, təqdim edilmiş sənədlərin düzgünlüyü Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin və daşınmaz əmlakın dövlət reyestrinin baza məlumatları əsasında yoxlanıldıqdan sonra qurumun Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi ilə bağlı 10 iş günü müddətində rəy verilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə elektron qaydada göndərir.

Dövlət orqanlarından müsbət rəy almış müraciətlər əsasında Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq qurumları tərəfindən 15 iş günü müddətində kateqoriyasının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahələrinin yerquruluşu planı (xəritəsi) hazırlanır. Müvafiq fərmanla təsdiq edilən "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda müəyyən edilmiş müddət və prosedurlara uyğun olaraq işlər yekunlaşdıqdan sonra sənədlər Nazirlər Kabinetinə göndərilir. Hökumət tərəfindən müsbət qərar qəbul edildiyi halda onun surəti Əmlak Məsələləri Dövlət Xidmətinə daxil olduqdan sonra dövlət torpaq kadastrında 2 iş günü müddətində dəyişikliklər edilir və bu barədə müraciət edən subyektə elektron xidmət vasitəsilə məlumat verilir.

Ekspertlər hesab edirlər ki, yeni elektron xidmət sahibkarların, vətəndaşların, dövlət qurumlarının və bələdiyyələrin müraciətlərinin şəffaf, çevik və effektiv şəkildə baxılmasına, prosedurların optimallaşdırılmasına və məmnunluğun artırılmasına yönəlib. Yeri gəlmişkən, elektron müraciətlərin qanunvericilikdə müəyyən edilmiş müddətdə baxılması və cavablandırılması üçün subyektlər qanuna müvafiq elektron imzalara malik olmalı, lazımi sənədlərin tamlığını və dürüstlüyünü təmin etməlidirlər.




# TAP-ın hidrogen nəqli imkanları

**Transadriatik Boru Kəməri Konsorsiumu (TAP AG) boru kəmərinin hidrogen inteqrasiyasına hazırlığını qiymətləndirmək məqsədilə infrastrukturda baş verə biləcək qırılmaların təhlili xidmətlərinin göstərilməsi üzrə "Penspen" şirkəti ilə müqavilə imzalayıb. Bu barədə "Penspen" şirkəti açıqlama yayıb.**

Bildirilib ki, "Penspen"in Böyük Britaniyadan olan mühəndis komandası TAP-ın yerüstü obyektlərinin, xətti bağlama klapanlarının və kompressor stansiyalarının hərtərəfli təhlilini aparacaq. "Bu tədqiqat, hidrogen qarışıqlarının mövcud qaz infrastrukturuna yeridilməsinin mümkünlüyünü qiymətləndirəcək, TAP-ın regionda uzunmüddətli dayanıqlığa və dekarbonizasiyaya töhfə vermək üçün yeni hidrogen həcmləri və digər bərpa olunan qazlar üçün güc artırma strategiyasını dəstəkləyəcək", – deyə məlumatda bildirilib.

Qeyd olunub ki, "Penspen" hidrogenin təhlükəsizlik və davamlı qarışdırılması və bununla da sözügedən boru kəmərinin Avropadakı mövcud qaz nəqli infrastrukturunun təhlükəsizliyini və etibarlılığını qoruyub saxlamaqla TAP-a dəstək göstərəcək.

Xatırladaq ki, TAP maraqlı tərəflərə Avropanın müxtəlif ölkələrinə qaz tədarükünü həyata keçirmək imkanı verməklə təbii qazın Yunanıstan – Türkiyə sərhədindən İtaliyanın cənub bölgəsinə kimi nəqlini həyata keçirir. Boru kəməri Cənub Qaz Dəhlizi çərçivəsində birbaşa və iqtisadi cəhətdən səmərəli marşrut – Xəzər dənizindən Avropaya qədər uzanan 3500 kilometrlik qaz zənciri təklif edir.

# Xızı–Abşeron KES-də günəş panelləri də quraşdırılıb

**Enerji keçidində lider və dəniz suyunun duzsuzlaşdırılması üzrə dünyanın ən böyük özəl şirkəti olan "ACWA Power"in hazırda tikdiyi 240 meqavatlıq Xızı-Abşeron külək elektrik stansiyası (KES) yaxınlığında 8 ərazidə günəş panelləri quraşdırıb.**



Bu təşəbbüs Sitalçay və Çaylı kəndlərinə yaxın ərazilərdə çobanlar və fermerlərin sosial şəraitini yaxşılaşdırmaq məqsədi daşıyır. Bu uzaq ərazilər əsas enerji şəbəkəsindən ayrılıb və quraşdırılmış günəş panelləri qeyd olunan sahələrdə etibarlı və davamlı elektrik enerjisi verilişini gerçəkləşdirir.

Xatırladaq ki, günəş panelləri günəş işığını birbaşa elektrik enerjisinə çevirə, lazım gəldikdə enerjini istifadə üçün batareyalarda da saxlaya bilir. Beləliklə, daha sabit və etibarlı bir enerji təchizatı təmin olunur. Fotovoltaik sistemlər şəbəkəyə qoşulmamış ərazilərdə əsas enerji xidmətləri gerçəkləşdirmək üçün davamlı alternativ hesab edilir.

# İcbari Sığortada çağrı xidməti yenilənib

**"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı (İSB) vətəndaş müraciətlərinin daha operativ və keyfiyyətli şəkildə cavablandırılmasını təmin etmək üçün Çağrı Mərkəzinin fəaliyyətini təkmilləşdirib. Bu məqsədlə yeni *9707 qısa nömrəsi istifadəyə verilib. Ölkəxarici nömrələrdən zəng edənlər üçün isə +994 12 525 97 07 nömrəsi nəzərdə tutulub. Bu barədə XQ-yə İcbari Sığorta Bürosundan məlumat verilib.**




Bildirilib ki, Çağrı Mərkəzi vətəndaşlara 7 gün 24 saat olmaqla Azərbaycan, rus və ingilis dillərində xidmət göstərir. Vətəndaşlar Çağrı Mərkəzinə müraciət edərək İcbari Sığorta Bürosunun informasiya sisteminə daxil olan 5 icbari sığorta növü (daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, sərnişinlərin icbari fərdi qəza sığortası, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta), "Yaşıl Kart" sığorta sistemi, kompensasiya ödənişləri və qurumun səlahiyyətlərinə aid digər məsələlər barədə ətraflı və operativ məlumat əldə edə bilərlər.

Çağrı Mərkəzi müraciətlərin qəbulunu və yönləndirilməsini sürətləndirən innovativ sistemlərlə təchiz olunub. Əməkdaşlar xüsusi təlimlərə cəlb edilərək kommunikasiya texnologiyaları, müştəri xidməti standartları və effektiv ünsiyyət bacarıqları üzrə dərin biliklər əldə ediblər. Mərkəzə daxil olan bütün müraciətlər avtomatik olaraq qeydiyyata alınır və cavablandırılma prosesi tam şəkildə izlənilir. Zəngin qəbul edilmədiyi hallarda vətəndaşla əks əlaqə yaradılır və müraciətlərin vaxtında həlli təmin edilir. Çağrı Mərkəzi vasitəsilə göstərilən bütün xidmətlər ödənişsizdir.

Xatırladaq ki, İcbari Sığorta Bürosu Azərbaycan Respublikasının "İcbari sığortalar haqqında" Qanununun tələblərinə uyğun olaraq zərərçəkən sığorta olunanların və zərər vurulan üçüncü şəxslərin hüquqlarının qorunması, icbari sığorta sisteminin sabitliyinin və davamlı inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Qurum yeni Çağrı Mərkəzi vasitəsilə isə vətəndaş məmnuniyyətini artırmağı və xidmət keyfiyyətini yüksək səviyyədə təmin etməyi hədəfləyir.

# Qurğuşun ixracı – 13 milyon dollar qazanc

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, ötən ilin 11 ayında Azərbaycandan 13,4 milyon ABŞ dolları dəyərində 6,6 min ton qurğuşun və ondan hazırlanan məmulatlar ixrac olunub. Bu, ölkənin ümumi ixracının 0,06 faizini təşkil edib.**



Eyni zamanda, bu dövrdə Azərbaycana 767 min dollar dəyərində qurğuşun və ondan hazırlanan məmulatlar idxal edilib ki, bu da bir il əvvələ nisbətən 475 min ABŞ dolları və ya 2,6 dəfə çoxdur.

# Dövlətin özəl sektorla bağlı vergi təşviqləri

**Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsində edilmiş mühüm dəyişikliklərdən biri bəzi xidmət sahələri üzrə mikro sahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin müvafiq tələblərlə şərtləndirilmədən tətbiqi ilə bağlıdır.**

Dövlət Vergi Xidmətinin məlumatına görə, Vergi Məcəlləsinə 2024-cü ildən qüvvəyə minən dəyişikliyə əsasən, müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə fəaliyyətlərində borc yaranmayan mikro sahibkarların qazancının 75 faizi gəlir vergisindən azad edilib.

Qeyd olunub ki, aparılmış təhlillər nəticəsində bir sıra fiziki şəxslərin əhaliyə deyil, digər vergi ödəyicilərinə xidmət göstərdikləri, buna görə də sadələşdirilmiş verginin ödəyicisi ola bilmədikləri müəyyənləşdirilib.

Bu səbəbdən bəzi xidmət sahələri üzrə fəaliyyət göstərən və illik dövriyyəsinin həcmi xərclər nəzərə alınmadan 45 min manatadək olan mikro sahibkar fiziki şəxslərə münasibətdə gəlirlərinin 75 faizinin hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad olunması ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilib.

Həmin fəaliyyətlərə proqram təminatının işlənməsi, layihə-dizayn və dekorasiya, tərcümə, reklam xidmətləri, araşdırma və tədqiqat sahəsində fəaliyyət, elm, təhsil, mədəniyyət və idman sahəsində göstərilən xidmətlər, hüquq, sərbəst auditor, mühasibat və maliyyə sahələri üzrə məsləhət xidmətləri, jurnalistika, bazar konyukturunun öyrənilməsi, qiymətləndirmə fəaliyyəti, avtonəqliyyat vasitələri ilə yükdaşımaları istisna olmaqla, sifarişlərin çatdırılması və kuryer fəaliyyəti, turizm bələdçisi kimi xidmətlər aiddir.

Vergi sistemindən danışarkən, bir məqamı da qeyd etmək istərdik. Belə ki, ölkəmizdə dövlət – özəl sektor tərəfdaşlığı çərçivəsində vergi təşviqləri verilib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri dövlət – özəl sektor tərəfdaşlığının və "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələrinə vergi təşviqlərinin verilməsi ilə bağlıdır.



Bütövlükdə, dövlət–özəl sektor tərəfdaşlığı və elektrik enerjisi istehsalı layihələri çərçivəsində xidmətlərin göstərilməsi, eləcə də həmin xidmətlərlə bağlı zəruri infrastrukturun yaradılması və idarə edilməsi ilə əlaqədar layihələrin icrasına investisiyaların cəlb edilməsi məqsədilə vergi azadolmaları tətbiq olunur. Belə ki, dövlət – özəl sektor tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaşlara, bərpaolunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə isə istehsalçılara müvafiq müqavilələrdə müəyyənləşdirilmiş müddətdə, lakin 30 ildən çox olmayaraq mənfəət (gəlir), əmlak, torpaq, idxalda əlavə dəyər vergisi üzrə güzəştlər verilir.

Yeri gəlmişkən, ekspertlər hesab edirlər ki, bu istiqamətlərdə vergi təşviqlərinin verilməsi ölkənin investisiya mühitinin bir qədər də təkmilləşdirilməsinə, iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb olunmuş özəl investisiyaların dəstəklənməsinə, birbaşa xarici investisiyaların həcminin artırılmasına, o cümlədən dövlət – özəl sektor tərəfdaşlığının və dövlətin satınalma öhdəliyi ilə özəl sektor tərəfindən həyata keçirilən elektrik enerjisi istehsalı layihələrinin dəstəklənməsinə öz töhfəsini verəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Birlik və həmrəylikdən keçən tarixi yol

**(əvvəli ötən sayda)**



XX əsrin sonlarında keçmiş SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr – Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı haqsız ərazi iddiaları, 1990-cı il Yanvar faciəsi, 1992-ci il (fevralın 26-da) Xocalı soyqırımı, torpaqlarımızın 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyon həmvətənimizin doğma yurdlarından didərgin salınması xarici ölkələrdə yaşayan həmvətənlərimizin ictimai fəallığının artmasına təkan verdi.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi, Azərbaycan həqiqətlərinin dünya ölkələrində təbliği işinə cəlb edilməsi oldu. Ümumilli lider Heydər Əliyevin 1993-cü ildə, Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin diasporla bağlı vahid dövlət strategiyası müəyyənləşdi, diaspor quruculuğu ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Heydər Əliyevin qayğısı və böyük diqqəti sayəsində xaricdə yaşayan soydaşlarımız Azərbaycanın milli maraqları naminə daha əzmlə fəaliyyət göstərməyə başladı.

Ümummilli lider dövlət başçısı kimi fəaliyyət göstərdiyi ilk illərdə Azərbaycanın haqq səsini, həqiqətlərini dünya azərbaycanlıları vasitəsilə yaymağı qarşısına məqsəd qoyan xüsusi qurumun yaradılması sahəsində ilk addım atdı. Prezidentin İcra Aparatında "Dünya azərbaycanlıları və beynəlxalq qeyri-hökumət təşkilatları ilə iş bölməsi" yaradıldı. Bu qurum ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında geniş fəaliyyət göstərərək, dünyada yaşayan azərbaycanlılarla əlaqə yaratdı və onların təşkilatlanması milli birliyin möhkəmlənməsi istiqamətində böyük işlər gördü.

Heydər Əliyev dünya azərbaycanlıları ilə əlaqələrin yaradılması, möhkəmləndirilməsi üçün həm xarici ölkələrə işgüzar səfərləri zamanı, həm də respublikamıza gələn görkəmli soydaşlarımızla saxladığı əlaqələr, onların fəaliyyətləri ilə maraqlanması Azərbaycan diasporunun formalaşmasına müsbət təsir göstərirdi. Azərbaycan diasporunun formalaşmasında, əsasən, bir neçə istiqamətdə iş aparılmaqda idi. Ümummilli lider Fransa, İngiltərə, Almaniya, Türkiyə, Belçika, Rusiya, ABŞ, Çin, Polşa və başqa dövlətlərə işgüzar səfərləri zamanı suveren dövlətimizin dünya ölkələri ilə hərtərəfli münasibətlərinin yaranmasına çalışırdısa, digər tərəfdən, bu ölkələrdə yaşayan, fəaliyyət göstərən azərbaycanlılarla görüşlər keçirir, fərdi söhbətlər aparırdı. Ulu öndər Vətənin mənafeyini düşünən hər bir azərbaycanlının ictimai-siyasi fəallığının artmasına, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, sivil dünya dövlətləri səviyyəsinə çıxması üçün əlindən gələni əsirgəməməyə çağırırdı: "Biz nəinki təkcə müstəqil Azərbaycan dövlətçiliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etməsi uğrunda, eyni zamanda, bütün azərbaycanlıların milli hüquqlarının tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında sıx birləşməliyik.

Müstəqilliyin və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli həllinə nail olunması xarici ölkələrdə diaspor fəaliyyəti ilə məşğul olan təşkilatların vahid mərkəz ətrafında birləşməsini zəruri edirdi. Bu istiqamətdə, xüsusilə, 1993-cü ildən etibarən aparılan məqsədyönlü işlər artıq bir sıra aparıcı dünya dövlətlərində özünün konkret nəticələrini verirdi. Avropa, Amerika Birləşmiş Ştatları və MDB ölkələrində yaşayan azərbaycanlılar xeyli fəallaşmış, onların milli siyasi təşəbbüskarlığı güclənmişdi. Belə ki, onlar öz qarşılıqlı münasibət və əlaqələrini genişləndirərək daha mükəmməl və güclü milli-siyasi təşkilatlar yaratmışdılar. Nüfuzlu koordinasiya mərkəzlərinin, məsələn, Almaniyada yaradılmış Avropa Azərbaycan Cəmiyyətləri Birliyinin və ya Amerika Birləşmiş Ştatlarında təşkil olunmuş Dünya Azərbaycanlıları Konqresi (DAK) buna sübutdur. Dünya Azərbaycanlıları Konqresi 1997-ci ildə ABŞ-da yaradıldı.

1997–2001-ci illərdə Amerika Birləşmiş Ştatlarında, Avropada "Dünya azərbaycanlılarının 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci konqresləri keçirilmiş və həmin tədbirlərdə bir çox ölkələrdən, o cümlədən Azərbaycan Respublikasından nümayəndələr iştirak etmişlər. Lakin Dünya Azərbaycanlılarının Konqresi adı altında keçirilən forumların heç biri Ümumazərbaycan məнafeyi baxımından təkmil sayıla bilmirdi. Dünya azərbaycanlılarının ali məclisi müəyyən təmsilçilik normaları əsasında Azərbaycan dövlətinin müvafiq qurumlarının təşkilatçılığı və maliyyə dəstəyi ilə keçirildiyi, Azərbaycan diasporunun fəaliyyəti üçün proqram sənədlər qəbul edildiyi halda qurultay statusu qazana bilərdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmlənməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətlərinin gücləndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 9–10-da dünya azərbaycanlılarının qurultayının çağırılması üçün 2001-ci il mayın 23-də sərəncam verdi. Bu qurultayın keçirilməsi ölkəmizdən kənarda yaşayan azərbaycanlıların bir araya gətirilməsi, ümummilli problemlərin həllində onların gücünün səfərbər edilməsi üçün böyük əhəmiyyət kəsb etdi.



Eyni zamanda, Azərbaycan dövləti ilk dəfə olaraq bəyan etdi ki, ölkəmiz nəinki Azərbaycan Respublikası ərazisində yaşayan əhalinin, həm də dünya ölkələrinə səpələnmiş 50 milyondan artıq azərbaycanlının Vətənidir. Bu siyasi bir addım idi ki, Azərbaycan Respublikası bu addımı atmaqla dünyaya səpələnmiş azərbaycanlılara sahib çıxdı, həmin insanların hüquqlarının müdafiəçisi olduğunu bəyan etdi. Qurultayda 37 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etdi. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumların, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdu. Qurultayda Ümummilli liderin proqram xarakterli çıxışı Azərbaycan diasporunun formalaşmasında, bütövlükdə, milli tarixi proseslərin inkişafında keyfiyyətcə yeni mərhələ açdı.

Heydər Əliyev öz nitqində dünya azərbaycanlıları ilə əlaqələri təmin edən dövlət qurumunun yaradılmasına ehtiyac duyulduğunu da bildirmişdir: "Mən qurultayın sonunda belə nəticəyə gəldim ki, həqiqətən, Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Güman edirəm ki, biz bu günlərdə belə bir orqanı yaradacağıq, əlaqələr daha da genişlənəcək, inkişaf edəcək, irəliyə doğru gedəcəkdir.

Beləliklə, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması istiqamətində Prezident Heydər Əliyevin sərəncamı ilə 2001-ci il noyabrın 9–10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaranması, 2002-ci il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası qanunu çox geniş perspektivlər açdı, soydaşlarımızın daha sıx birləşməsinə, həmrəyliyinə şərait yaratdı. Xaricdə yaşayan azərbaycanlılara dövlət qayğısı – Heydər Əliyevin diaspor siyasəti Azərbaycan diasporunun inkişafına təkan verdi.

Dahi şəxsiyyətin davamlı olaraq həyata keçirdiyi diaspor quruculuğu siyasəti, Vətənlə bağlı təbliğatı, maarifləndirmə işləri bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünya ölkələrində yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş Prezident İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Bu fəaliyyətin ən əsas cəhətləri dünya azərbaycanlılarının ana Vətənin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası, Azərbaycan həqiqətlərinin dünyada eşidilməsidir.

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun II Qarabağ Vətən müharibəsində qazandığı tarixi qələbə, dünya azərbaycanlılarının birləşdiyi milli diasporunun da fəaliyyəti üçün yeni bir başlanğıc yaratdı. 44 günlük hərbi əməliyyatlar dövründə dünya azərbaycanlıları milli birlik nümayiş etdirərək, bütün imkanları ilə Azərbaycan dövlətinə və ordusuna dəstək göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza 2020-ci il 27 sentyabr tarixli müraciətindən sonra, noyabrın 10-dək Azərbaycan diaspor təşkilatlarına Dövlət Komitəsi tərəfindən müraciət ünvanlandı.

ABŞ, Kanada, Almaniya, Fransa, Niderland, Polşa və digər ölkələrin bir sıra şəhərlərində Azərbaycan həqiqətlərini əks etdirən 100-ə yaxın afişa və posterlər yerləşdirildi. Komitənin təşəbbüsü ilə Azərbaycana dost xalqların diaspor nümayəndələri vasitəsilə Fransa, İtaliya, İngiltərə, Belçika, Moldova, Ukrayna daxil olmaqla, 14 ölkənin mediasında 45 məqalə yayımlandı. Ümumilikdə isə Tovuz təxribatından sonra diaspor təşkilatları tərəfindən 60 ölkədə 32 dildə 535 məqalə dərc edildi. Eyni zamanda, Tovuz təxribatları, Ermənistanın işğalçılıq siyasəti, ordumuzun torpaqlarımızın bütövlüyü uğrunda apardığı hərbi əməliyyatlarla bağlı həqiqətləri əks etdirən müxtəlif dillərdə minlərlə məktub Azərbaycan diaspor könüllüləri, xaricdə yaşayan gənclər vasitəsilə dünyanın aparıcı siyasətçilərinə və ABŞ konqresmenlərinə göndərildi. Dövlət Komitəsinin koordinasiyası ilə 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı, beynəlxalq təşkilatlar, BMT, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq qurumlara 23 dildə 500-dən artıq bəyanat göndərildi.

Demək olar ki, Ermənistanla mübarizədə yeni bir cəbhə – Azərbaycan diasporu cəbhəsi açıldı. 44 günlük Vətən müharibəsi günlərində xaricdə yaşayan soydaşlarımız yalnız aksiyalar keçirməklə, informasiya təbliğatı aparmaqla kifayətlənmədilər. Həmçinin Azərbaycan Ordusuna, şəhid ailələrinə, qazilərimizə maddi dəstək göstərilməsində yüksək fəallıq nümayiş etdirdilər. Məsələn, müharibə günlərində Amerikanın və Avropanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən ordumuza, şəhid ailələrinə və qazilərimizə 332.640 manat, 188.446 ABŞ dolları və 118.782 avro məbləğində maddi dəstək göstərildi.

Xaricdə yaşayan azərbaycanlılar tərəfindən Azərbaycan dövlətinə dəstək, milli mədəniyyətimizin təbliği ilə bağlı aksiyalar, müxtəlif tədbirlər müharibə başa çatdıqdan sonra da davam etdirilir.

Azərbaycan Prezidentinin hərbi, siyasi diplomatiya və informasiya cəbhələrində apardığı misilsiz mübarizə ordumuzun dünya müharibəsi tarixində görünməmiş bir strategiya və taktika ilə 30 ildə işğal olunmuş ərazilərimizi 44 gündə azad etməsi ilə nəticələndi: Erməni işğalçılarına qarşı Azərbaycan xalqının 44 günlük müzəffər hərbi, ictimai, siyasi, diplomatik və informasiya mübarizəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin sözü – xalqa müraciətləri, dünyanın müxtəlif nüfuzlu informasiya vasitələrinə verdiyi müsahibələr son dərəcə önəmli və təsirli rol oynadı. Bu, Azərbaycan diasporunun nümayəndələrini informasiya müharibəsi istiqamətində düşmən üzərində əldə etdiyimiz qələbənin qazanılmasında daha da ruhlandırdı və azərbaycançılıq ideyası ətrafında milli həmrəyliyin daha da güclənməsində müstəsna rol oynadı. Ölkəmizin İkinci Qarabağ müharibəsindəki tarixi ədalətin zəfər çalmasında, hər bir soydaşımız əlindən gələni əsirgəmədən, yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin çatdırılması istiqamətində yorulmadan fəaliyyət göstərdi.

Qarabağ Zəfərindən sonra həmvətənlərimiz ilk dəfə 2022-ci ilin aprel ayında işğaldan azad olunmuş Qarabağda – Şuşada Dünya azərbaycanlılarının V qurultayına toplaşdılar. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın iştirak etdiyi Zəfər qurultayına dünya azərbaycanlıları bir daha öz sarsılmaz və əbədi həmrəyliklərini dünyaya nümayiş etdirdilər. Bu möhtəşəm tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək qeyd etdi ki, "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir. Ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır.". Beləliklə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Dünya azərbaycanlılarının V qurultayı tarixə Zəfər qurultayı kimi düşdü.

Qeyd edək ki, dünya azərbaycanlılarının ötən müddətdə baş tutan möhtəşəm qurultayları Azərbaycan diasporunun həmrəyliyi, milli maraqları uğrunda təşkilatlanması istiqamətində müstəsna əhəmiyyəti olub. Dünya azərbaycanlılarının V qurultayı isə milli dövlətçiliyimizdə böyük tarixi, siyasi və mənəvi əhəmiyyət daşıyaraq, Azərbaycan tarixinin parlaq səhifələrindən birinə çevrildi. Bu qurultay tarixi zəfərimizin, ədalətli qələbəmizin təntənəsi idi. Bununla da Azərbaycan diasporunun fəaliyyətində yeni mərhələnin əsası qoyuldu.

Yekun olaraq qeyd etmək istərdim ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, onun müəyyənləşdirdiyi ümummilli inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diaspor quruculuğu sahəsindəki nailiyyətləri yeni inkişaf mərhələsinə qaldıraraq daim diqqət mərkəzində saxlayır. Azərbaycan diaspor təşkilatlarının təşkil etdiyi forum və tədbirlərdə iştirak edən dövlət başçısı, diaspor nümayəndələri ilə görüşləri və müraciətləri ilə azərbaycançılıq ideyalarının uğurla davam etdiyini və inamla həyata keçirildiyini bir daha təsdiq edir. Prezident İlham Əliyevin diaspor quruculuğu sahəsində apardığı ardıcıl və məqsədyönlü siyasəti artıq öz uğurlu nəticəsini verməkdədir. Bu gün xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının qorunması, onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatına uğurlu inteqrasiyasının təmin olunması, diasporlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının təbliği dövlətimizin qarşısında duran mühüm vəzifələrdəndir. Prezident İlham Əliyevin Azərbaycan diasporu quruculuğu işinə verdiyi önəm bu sahənin nə qədər mühüm əhəmiyyət kəsb etdiyinin göstəricisidir.



***Zəminə ƏSGƏROVA,***
***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

Məmməd Bayramoğlu – 85

# Görkəmli alim, səmimi insan

**2024-cü il dekabrın 18-də tanınmış ziyalı, müasir Azərbaycan riyaziyyat elminin ağsaqqallarından biri, fizika-riyaziyyat elmləri doktoru, professor Məmməd Bayramoğlunun 85 yaşı tamam olmuşdur. Məmməd Bayramoğlu 1939-cu il dekabrın 18-də Gürcüstanın Marneuli rayonunun Əzizkənd kəndində anadan olmuşdur. Məmməd hələ körpə olarkən atası İkinci dünya müharibəsinə yollanır və ailə başsız qalır. Ağır illər, aclıq, kasıblıq və ucqar kənddə sahibsiz ailə növbəti faciə ilə üzləşir, cəbhədən atası Bayramov Bayramın həlak olması haqda xəbər gəlir, çıxılmaz vəziyyətdə son ümidini də itirən anası Cahan xanım isə bu hadisəyə dözməyib intihar edir. 5-6 yaşlarında yetim qalmış Məmmədi və bacısını müharibə əlili olan əmiləri Əliyar Bayramov himayəsinə götürür.**



Necə deyərlər, Allah bir tərəfdən bağlayanda, digər tərəfdən açar. Bu məhrumiyyətlərin müqabilində balaca Məmməd öz istedadı, zəkası ilə məktəbin əlaçı şagirdi, kəndin seçilən gənclərindən biri olur. 1954-cü ildə Əzizkənddəki səkkizillik məktəbi bitirdikdən sonra hamı onun təhsilini davam etdirəcəyini, gələcəkdə böyük adam olacağını proqnozlaşdırır. Camaatın ümidini doğrultmaq istəyi Məmmədi bir qədər də mətinləşdirir və yeddi kilometr uzaqlıqda yerləşən qonşu Gorarx (indiki Alget) onbirillik məktəbində orta təhsilini başa vurmaq qərarına gəlir. Əyni-başı nazik, ayağına böyük olan əmisinin köhnə əsgər çəkmələrini geyinərək qışın sərt soyuğunda, qarlı, şaxtalı havalarda göyün üzü açılmamış səhər-səhər isti yorğan-döşəkdən durub yarıac, yarıtox hər gün 14 kilometr məsafəni piyada qət etmək sadə məsələ deyildi. Ancaq Məmmədin böyük məqsədləri, amalları var idi, ona görə də nə soyuq, nə isti, nə uzaq yolda hərdən qarşısına çıxan vəhşi heyvanlar, kənd qəbiristanlığının yanından ötəndə qulağına gələn vahiməli səslər onu dayandıra bilməzdi. Uzaq kənddən palçıqlı yollarla payi-piyada gəlib-gedən, üstü-başı köhnə, doyunca yemək yeməyən bu arıq, çəlimsiz oğlan çox keçmədi ki, Gorarx məktəbinin də lideri olur. Orta məktəbi əla qiymətlərlə bitirərək, 1957-ci ildə ozamankı Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölümünə daxil olur.



Qalmağa evi, oxumağa kitabı, dəftər almağa pulu, qazandığı uğurların fərəhini bölməyə ata-anası olmasa da, dəmir iradəsi, böyük arzuları, dəyişməz məqsədi var idi Məmmədin. Tələbəlik illərində heç kəs bilmirdi ki, o, ata-anadan yetimdir, yataqxanada çətinliklə yer tapıb, aldığı cüzi təqaüdlə dolanırdı. Fakültənin ictimai işlərində fəal iştirak edən, Tələbə Elmi Cəmiyyətinin ən çalışqan üzvü olan istedadlı oğlanı heç kəs bu qədər sahibsiz təsəvvür edə bilmirdi, hamı onun gələcəyinə inanır, pıçıltı ilə bir-birinə göstərərək böyük alim olacağını deyirdi. Çünki o, Riyazi analiz kafedrasının elmi seminarlarında iştirak etməklə bərabər Diferensial tənliklər üzrə "İki dəyişəndən asılı iki tərtibli diferensial tənliyin kanonik şəkildə gətirilməsi", "Ümumiləşmiş Qrin düsturu", "Koşi məsələsi və xarakteristika haqqında anlayış", "İki dəyişəndən asılı iki tərtibli diferensial tənliyin Laplas metodu ilə həlli" və s. mövzularda məzmunlu məruzələr edirdi.

Məmməd Bayramoğlunun elmi işə böyük həvəsi, yüksək amalları onun 1962-ci ildə aspiranturaya daxil olmaq üçün keçirilən müsabiqədə iştirak etmək məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoruna ərizə təqdim etməsi ilə nəticələnir. Ancaq hərbi xidmətə çağırılması onun bu arzusunu yarımçıq qoyur. Məmməd hərbi xidmətdə də nümunəvi davranışı, çalışqanlığı, məsuliyyəti ilə fərqlənir, özü ilə apardığı kitabları gecə-gündüz oxuyur, yaxşı xidmətinə görə komandanlıq onun təhsilini davam etdirmək arzusunu nəzərə alır, 1964-cü ildə hərbi xidmətdən iki ay qabaqcadan tərxis edilir, Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun əyani aspiranturasına qəbul oluna bilir.

Həmin il aspiranturada 3 yerə 12 iş verilibmiş. İxtisas fənnindən imtahan götürən institutun ozamankı direktoru, professor Haşım Ağayev bəzi imtahan suallarının APİ-nin tədris proqramlarında olmadığına baxmayaraq, gənc Məmmədin bu qədər hazırlıqlı cavablarından təəccüblənir. Böyük müsabiqə şəraitində aspiranturaya qəbul olan Məmməd Bayramoğluya Fərəməz Maqsudov elmi rəhbər təyin edilir. O illər Fərəməz müəllim institutun direktor müavini idi və keçmiş Sovetlər Birliyinin elm mərkəzlərindən dəvət olunan tanınmış alimlərlə gənc tədqiqatçıların görüşlərini təşkil edirdi. Bu görüşlər, xüsusilə, aspirantların görkəmli riyaziyyatçılarla ünsiyyətinə, aktual məsələlərlə tanış olmalarına və onları öyrənmələrinə şərait yaradırdı. Belə tədbirlərdə Məmmədin aktivliyi, öyrənmək həvəsi, riyazi istedadı özünü qabarıq göstərirdi.

Məmməd Bayramoğlu belə görüşlərin birində Moskvadan dəvət olunmuş görkəmli riyaziyyatçı alim, Lenin mükafatı laureatı, professor Boris Moiseyeviç Levitanla tanış olur və ona ixtisası üzrə bir neçə sualla müraciət edir. Boris Moiseyeviç bu sualların bir çoxunu cavablandırsa da bəzilərini düşünməli olduğunu bildirir. Ertəsi gün Fərəməz müəllim onun suallarının Levitanın bəyəndiyini və seminarlarda iştirak edə bilmək üçün onun Moskvaya göndərilməsini tövsiyə etdiyini bildirir.

Beləliklə, Məmməd Moskvaya göndərilir və məşhur riyaziyyatçılar Boris Moiseyeviç Levitanın və Anatoli Qordeyeviç Kostyuçenkonun seminarlarında iştirak edir. Məmməd Mirabbas müəllimlə (akademik M.Qasımovla) həmin seminarlar zamanı yaxından tanış olur və sonralar danışırdı ki, M. Qasımov həmin seminarların ən fəal iştirakçılarından biri idi və bəzən məruzəçinin karıxdığı yerləri o izah edirdi. Həmin seminarların və xüsusilə, Mirabbas müəllimlə tanışlığın onun inkişafında xüsusi rol oynadığını da vurğulayır.

1967-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirir və 1967–1969-cu illərdə Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, baş mühəndis vəzifələrində çalışır. Öz çalışqanlığı və istedadı ilə böyük alimlərin diqqətini cəlb edən Məmməd Bayramoğlu 1969-cu ildə həmin institutda akademiklər Fərəməz Maqsudov və Mirabbas Qasımovun rəhbərliyi ilə "Öz-özünə qoşma və qoşma olmayan bəzi diferensial operatorların spektral xassələri" mövzusunda namizədlik dissertasiyası müdafiə edir.

1987-ci ildə Tiflisdə A.Razmadze adına Riyaziyyat İnstitutunun Dissertasiya Şurasında "Diferensial operator tənliklərin bəzi məsələləri" mövzusunda doktorluq dissertasiyasını da uğurla müdafiə edir. 1989-cu ildə professor elmi adına layiq görülür.

Professor Məmməd Bayramoğlu 1964-cü ildən AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda aspirantdan şöbə müdiri vəzifəsinə qədər yüksəlmişdir. 1977-ci ildə yaradılmış "Operator tənlikləri" şöbəsi, 1978-ci ildə struktur dəyişiklikləri nəticəsində "Diferensial operatorların spektral nəzəriyyəsi" şöbəsi, 1991-ci ildə isə "Adi diferensial tənliklər" şöbəsi adlandırılmış və şöbəyə 1995-ci ilədək professor Məmməd Bayramoğlu rəhbərlik etmişdir. Şöbədə diferensial – operator tənliklərin spektral nəzəriyyəsi, operator əmsallı diferensial tənliklərin öz-özünə qoşma genişlənmələri, requlərizə edilmiş izlərin hesablanması, ağırlıqlı izlərin və məxsusi ədədlərin paylanma funksiyasının asimptotikası üzrə elmi-tədqiqat işləri aparılmışdır.

Professor Məmməd Bayramoğlu Science Citation İndex siyahısından olan jurnallarda dərc edilən 111 elmi işin müəllifidir. O, ölkəmizdə riyaziyyat üzrə 21 elmlər namizədinin elmi rəhbəri, 2 elmlər doktorunun elmi məsləhətçisi olmuşdur. Professor 1994–2009-cu illərdə Türkiyənin İstanbul şəhərində Yıldız Texniki Universitetində professor vəzifəsində işləmişdir. Həmin müddətdə 9 nəfər fəlsəfə doktoru hazırlamış, sonralar onlardan ikisi professor elmi adına layıq görülmüşdür.

Professor Məmməd Bayramoğlu Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın Riyaziyyat üzrə Ekspert Şurasının üzvü olmuşdur. Onun elmi fəaliyyəti həm ölkəmizin, həm də dünyanın görkəmli riyaziyyatçıları tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Dünyanın bir sıra görkəmli riyaziyyatçıları ilə sıx elmi əlaqəsi vardır. İndiyə qədər elmi məqalələrinə xeyli sayda istinad olunmuşdur və bunların çoxu dünyanın məşhur riyaziyyatçıları tərəfindəndir. Çoxsaylı beynəlxalq elmi konfranslarda iştirak etmiş və seminarlarda (o cümlədən öz rəhbərliyi ilə keçirilən seminarlarda) məruzə edərək Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

Məmməd Bayramoğlu Azərbaycanda diferensial operatorların spektral nəzəriyyəsini yaratmış akademik Mirabbas Qasımovun layiqli varisi və davamçısıdır. Spektral analizin bir çox istiqamətlərində aldığı elmi nəticələr keçmiş SSRİ-nin görkəmli alimləri, Lenin mükafatı laureatı, professor Boris Moiseyeviç Levitan, akademik Vladimir Aleksandroviç Marçenko, professor Anatoli Qordeyeviç Kostyuçenko, akademik Vladimir Aleksandroviç İlyin, akademik Muxtarbay Otelbayev və digərləri tərəfindən yüksək qiymətləndirilmişdir.

2011-ci ildə M.Bayramoğlu Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi ikinci müsabiqədə qrant layihəsinin qalibi olmuşdur. Bu qrant layihəsi onun rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilmişdir və alınan əsas nəticələr həm beynəlxalq konfransların materiallarında, həm də Thomson Reutersin siyahısına daxil olan jurnallarda dərc edilmişdir.

Professor Məmməd Bayramoğlu hazırda Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi vəzifəsində işləyir. İnstitutun elmi seminarlarında və Müdafiə Şurasının iclaslarında fəal iştirak edir. O, gənclərə nümunə olan davranışı, yüksək əxlaqi keyfiyyətləri ilə kollektivin dərin hörmətini qazanmışdır.

Uşaqlıq illərində, gənclik dövründə gördüyü çətinliklər, məhrumiyyətlər onu daha da mətin etmiş, onda bir çox ali mənəvi keyfiyyətlər formalaşdırmış, həmçinin səhhətini də möhkəmləndirmişdir. Azərbaycan riyaziyyatında xüsusi yeri, böyük ürəyə malik olan qayğıkeş insan, gözəl şəxsiyyət, istedadlı müəllim və görkəmli alim Məmməd Bayramoğlunu 85 illik yubileyi münasibətilə ürəkdən təbrik edir və arzulayırıq ki, dünyanın bir çox tanınmış alimləri kimi, Məmməd Bayramoğlu da 100 yaşına qədər bugünkü kimi məhsuldar elmi fəaliyyət göstərsin, elmimizi öz dərin məzmunlu əsərləri ilə daha da zənginləşdirsin.

***Misir MƏRDANOV,***
***AMEA-nın müxbir üzvü,***
***ETN Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru***
***Hidayət HÜSEYNOV,***
***BDU-nun professoru***



# Paytaxtın yeni abad həyətləri

**Yanvarın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın və Baku Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə paytaxtın Nizami və Xətai rayonlarında 3 mindən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən yenilənmiş həyətlər sakinlərin istifadəsinə verilib.**



Leyla Əliyeva və Arzu Əliyeva IDEA könüllüləri ilə birlikdə həyətlərdə keçirilən ağacəkmə aksiyalarına qatılıb, həmin ərazilərdə yaşayan azyaşlı sakinlərə hədiyyələr təqdim edib.



"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş növbəti həyətlərdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü minifutbol meydançası, müxtəlif idman qurğuları, şahmat meydançası, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, həyətyanı sahələrdə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ ağaclar, kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb.

Xatırladaq ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən "Bizim həyət" layihəsi icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Layihə çərçivəsində bu günədək 156 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin qaynar xətti "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

**XQ**

# QAİ Ermənistanı əməli addımlara çağırır

**Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Qərbi azərbaycanlılarla bağlı söylədiyi fikirlərə dair bəyanat yayıb.**

Bəyanatda deyilir: "Qərbi Azərbaycan İcması olaraq biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıdışına verdiyi dəstəyə görə təşəkkür edirik. Biz, həmçinin Prezident İlham Əliyevin regional sülh və təhlükəsizlik ilə bağlı ifadə etdiyi baxışa tam dəstəyimizi ifadə edirik...

Biz Ermənistan hökumətindən Qərbi azərbaycanlıların deportasiyasına görə üzr istəməyi, Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağı, qayıdışa şərait yaratmağı, Azərbaycan xalqına məxsus olan mədəni irsin dağıdılması və təhrif edilməsi siyasətinə son qoymağı, silahlanmanı dayandırmağı, üzərinə götürdüyü öhdəliklərinə uyğun şəkildə kommunikasiya xətlərini açmağı tələb edirik".

**XQ**

Zəlimxan Yaqub – 75

# Sənsiz yaşamağa öyrəşmək çətin...

**2013-cü ilin avqust ayı idi. Zəlimxan Yaqub Borçalıda – doğma Kəpənəkçi kəndində ata ocağında, mən də öz kəndimizdə – Darvazda idim. Bir gün şairə baş çəkməyə gəldim. Həyətdə oturub nəsə yazırdı. Görüşüb hal-əhval tutduqdan sonra əlindəki dəftəri mənə uzadıb, – Al, bu şeiri oxu, bu gecə yazmışam, – dedi. Şeirin başlığı beləydi: “Mənsiz yaşamağa öyrəşin daha”. Oxudum və çox kövrəldim. Aman Allah, şair bizlərə – onu sevənlərə nəyi məsləhət görür?! Bizi özünün aramızda olmayacağı günlərə hazırlamaq istəyir. O an keçirdiyim hissləri ondan gizlətməyə çalışsam da, ruhumu saran vahimədən qurtula bilmədim.**

Deyirlər, kədəri böldükcə azalır. Amma 2016-cı il yanvarın 9-da ildırım sürəti ilə dildən-dilə, eldən-elə yayılan acı xəbər böləndükcə azalmaq əvəzinə, daha da böyüyüb, Azərbaycan boyda oldu, bütün Türk dünyasını bürüdü. Bu dünyadan Zəlimxan Yaqub köçdü. O, ölümüylə də özünün böyüklüyünü, dahiliyini sübut etdi...



Bu gün 75 illik yubileyinə hazırlaşdığımız Zəlimxanın dünyasını dəyişməsindən 9 il keçir. Daha doğrusu, Zəlimxansız dünyamızın 9 yaşı tamam olur. Aradan ötən bu illər də sübut etdi ki, Zəlimxan Yaqubu poeziyamızın, Azərbaycan xalqının başucalığı sayan, onu poeziya hökmdarı hesab edən Xalq şairi Xəlil Rza Ulutürk hələ illər öncə “Zəlimxan yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyacı yoxdur”, – deyəndə nə qədər haqlıymış.

“Mənim ölümüm də gözəl olacaq”, – deyirdi və aramızdakı cismani yoxluğuyla da sübut elədi ki, doğrudan da, “diri ölülərin” dünyası olmur, bu dünya elə onun özü kimi əbədi dirilərindir. Şair bu qənaətə gəlməkdə nə qədər haqlıymış:

**El yadda saxlamaz evdən gedəni,**
**İnsan əzizlənər eldən gedəndə.**

Zəlimxan Yaqub yaşadığı qısa ömürdə zamana öz sözünü deyərək adını millətin, Vətənin tarixinə yazmağı bacardı, Tanrının qismətinə yazdığı ömrü – zaman kəsimini ləyaqətlə yaşadı:

**Ürəyində buz yaşamaq faciə,**
**Yarasında duz yaşamaq faciə,**
**Çox yaşamaq, az yaşamaq faciə,**
**Mən zamanı zamanında yaşadım.**

Zəlimxan Yaquba görə, haradan gəldiyini bilməyənlər, istər söz adamı olsun, istərsə də, digər peşə sahibləri, hara getdiklərini də bilməyəcəklər. Onu elin-obanın, milyonların sevimlisinə çevirən və adını dünyanın əbədi diriləri sırasına yazdıran da elə həm həyatda, həm də ədəbiyyatda həmişə öz yerini bilməsi, hər zaman özünün və sözünün urvatını qoruması, dünəninə, kökünə, ənənəyə bağlılığı, zamana öz sözünü deyə bilməsi idi:

**Dünya mənim idi mən olmamışdan,**
**Bilirəm dünyaya mən nəyə gəldim.**
**Yazıldı alnıma sözün qisməti,**
**Sözümü zamana deməyə gəldim.**

Bəli, o, sözünü zamana deməyə gəlmişdi, dedi də. Xalqın sözünü dedi, xalqın qəlbinə nüfuz edən sözü dedi. Ona görə də hər yerdə sevildi, dinlənildi, dediyi söz həm yuxarılarda, həm də aşağılarda eşidilən oldu. Ancaq daha çox yaza, daha çox deyə bilərdi. Böyrək problemindən əziyyət çəksə də, onu ağrıdan yalnız bu deyildi. Ruhu bu qədər diri, iradəsi möhkəm, dözümü sərt olan bir adama xəstəlik neyləyərdi ki... Bədəninin ağrısına dözsə də, Vətən ağrılarına dözə bilmirdi şair.

Onun dərdi bütöv Vətən dərdi, Qarabağın işğal altında olan torpaqları, böyük Türk dünyasının üzləşdiyi problemlər idi. Bu ağrılar onun ürəyində sözə çevrilib, misralara düzülürdü. Bəlkə də həkimlər böyrəklərini ona görə müalicə edə bilmirdilər ki, ürəyindəki Vətən dərdi daha böyük idi. “Qışın içində də yaz” tapmağı bacaran Zəlimxan Yaqub bu dərdinə çarə tapa bilmirdi. Bu dərdin adı “Yurd ağrısı”, “Vətən yaraları”, “O qızın gözyaşları” və “Şuşa şikəstəsi”ydi, bu dərd idi ona “Qarabağ ən çətin sualdı, qardaş”, “Türk yağıdan üzr istəməz” və “Bir kövrək havadı sazımda Kərkük” dedirdən, “Şuşada balam qaldı” deyə nalə çəkdirən, “Şair harayı”nı, “Səslərin görüşü”nü, “İçimdə ağlayan Krım”ı, “Çanaqqala dastanı”nı, “Turan sevgisi”ni, “Rəsul Həmzətova məktub”u yazdıran da, “dərdli dilim – mənim dərdim”, – deyib, Göyçə, Dərbənd, Mosul, Kərkük, Borçalı və “Borçalının bir tərəfi Axıska” kimi “Vətənin qıraqda qalan yerləri”nin dərdlərini bayatı düzümünə düzdürən də.

Qarabağa qayıtmağımızı öz gözləri ilə görmək, bir qalib kimi Şuşa qalasına hayqıra-hayqıra girmək, Cıdır düzündən nur alıb Vaqifin müqəddəs məqbərəsində Vaqifin dilində ötmək, İsa bulağının başında muğamat dinləmək, Daşaltı çayıtək axmaq istəyirdi. Əsrin min bir sualı ilə üzüzə qalıb cavab tapmağa çalışan, ona qələbə müjdəsi gətirənə ömrünü pay kimi bölmək istəyən şairin bir nigarançılığı vardı:

**Yoxsa bu ağrıyla dünyadan köçüb,**
**Elə bu dərdlə də öləcəyəmmi?**

Bununla belə, ümidini də üzmürdü. İnanırdı ki, dərdinin çarəsini Azərbaycan ordusu tapacaq:

**Doğan günəşidir sökülən danın,**
**Alar qisasını tökülən qanın,**
**Ucaldar başını Azərbaycanın**
**Qələbə, Qələbə, ancaq Qələbə.**

Özü görə bilməsə də, arzuları çin oldu, Qarabağ işğaldan azad edildi. Bu gün Qarabağda böyük tikinti-abadlıq işləri görülür, qaçqınlar öz yurd-yuvalarına qayıdırlar. Bu günləri görmək qismət olsaydı, indi nələr yazardı şair…

Xəstəlik təkcə ona ağrıların dadını, dərmanların adını öyrətmədi, həm də insanları tanıtdı. Gen günün “dostlarını” və əsl dostları tanıdı, bütün insanları “süzüb ələdi”, nurda işıqlanıb, yurda işıq salan dostlarla yanaşı, xırdalanan “xırda dostları” da görəndə, Uca Allaha – “Böyük dosta salam olsun!”, – dedi:

**İşıqlandı nurda dostlar,**
**İşıq saldı yurda dostlar,**
**Xırdalandı xırda dostlar,**
**Böyük dosta salam olsun.**

“Mən bir dağ çayıyam”, – deyib, bütün ömrü boyu çağlayan şair həmişə diri və duruydu, bu dünyanın çirkinlikləri onu bulaşdıra bilməmişdi, hər şeydə gözəllik axtarıb dünyamızı gözəl görmək istəyir, dünyanı durultmağa can atırdı. “Biz niyə sevməyək bir-birimizi?” – deyərək, insanları səmimiyyətə, məhəbbətə, dostluğa və mehribanlığa səsləyirdi. Dünyanın gərdişi ilə bacarmayıb, dərdini çəkə bilməyəndə isə sözün qüdrətinə söykənib onun şəklini çəkirdi:

**Dərdini çəkə bilmirəm,**
**Gəl, şəklini çəkim, dünya...**

Özünün və sözünün əbədiyaşarlığına inanır və deyirdi ki, “mənim yazdıqlarım yerdə qalarmı, düşəcək hamısı kitaba bir-bir”. Bu inamı yaradan bir də o idi ki, milyonların könlündə onun yeri və kitabı var:

**Daha gecdi, könüllərdə**
**kitabım var,**
**Qat-qat olan qayaların qaşı qədər.**
**Daha gecdi, zaman məni**
**dana bilməz,**
**Yaşamışam bu dünyanın**
**yaşı qədər.**

Şərqin məşhur filosofu Cəlaləddin Ruminin belə bir sözü var: “Biz öləndən sonra bizim məzarımızı torpaqlarda axtarmayın. Bizim məzarımız arif insanların qəlbindədir”.

Məzarı onu sevənlərin qəlbində olan bu böyük insan üçün darıxanda, daha doğrusu, üzbəüz olub söhbət eləmək istəyi könlümdən keçəndə, onun kimi möhtərəmlərin uyuduğu Fəxri xiyabana üz tutur, ağ mərmərdən boylanan əzəmətli simasıyla üzbəüz dayanıram. Məğrur duruşu və qartal baxışıyla sanki oxucularına, sevənlərinə və sevdiklərinə təsəlli verir:

**Canım qara torpağın,**
**nəfəsim göylərindir,**
**Qəbirdə yatsam belə,**
**həmişə həyatdayam.**

***Musa NƏBİOĞLU,***
***Əməkdar mədəniyyət işçisi***

Günün anlatması

# Vikipediya: düşməni tanıyaq, amma başa keçirməyək

**(əvvəli 1-ci səhifədə)**

Vikipediyanın Azərbaycan seqmetində doğum tarixlərinə görə axtarış edəndə həmin şəxslər qarşımıza çıxır. Ermənilərlə doldurulmuş Azərbaycan vikipediyasında niyə ingilis yox, qazaxıstanlı, mozambikli yox, məhz hayların tanıtımı daha çox aparılır? Düzdür, düşməni tanımaq lazımdır, amma onu əbədiləşdirmək lazım deyil.




Məsələn, vikipediyadakı qeydlərə əsaslansaq, 8 yanvarda doğulmuş Azərbaycan vətəndaşlarının qatilləri sayılan Badal Muradyan, Karine Ğazinyan, Riçard Giraqosyan, 9 yanvarda Suren Ayvazyan, Voroşil Qukasyan, Yuri İşxanyan, 10 yanvarda Akop Ovnatanyan və digər erməniləri ensiklopediyalaşdırmaq bizə müsbət nələr vəd edə bilər?

Məsələ ilə bağlı ermənilər haqqında məqalələr müəllifi, Azərbaycanca vikipediyanın inzibatçılarından olan Araz Yaquboğlu ilə danışdıq. O bildirdi ki, doğum tarixləri üzrə axtarış etdikdə vikipediyada haqqında məqalə olan şəxslərin adları çıxır:

– Əgər 5 yanvarda doğulmuşlar arasında tacikistanlı kiminsə adı çıxırsa, deməli, vikipediyada onun barəsində yazıblar. Fərz edək ki, Levon Hakobi Ter-Petrosyan haqqında Azərbaycan vikipediyasında məlumat, məqalə yoxdur. Azərbaycanlı oxucu Levon haqqında məlumat almaq istəsə ingilis, rus və ya hansısa vikipedik mənbəyə baxacaq. Sizcə azərbaycanlı həmin şəxs haqqında düzgün məlumat alacaqmı? Almayacaq. Lakin biz ermənilər haqqında həqiqəti yazırıq, azərbaycanlı və digər ölkə vətəndaşları doğruları, ölkəmizin başına gətirilmiş müsibətləri öyrənmiş olurlar. Mən hətta azərbaycanca vikipediyada son antiterror əməliyyatları zamanı “Xocalı soyqırımını törədənlər” kateqoriyası yaratmışam və burada 32 erməni haqqında ətraflı məlumatlar yerləşdirilib. Bunu rusca vikipediyada da etmişəm. Bu kateqoriyanı yaradanda düşündüm ki, hətta hüquq-mühafizə orqanlarına da kömək etmiş olaram. Çünki həmin ərəfədə barəsində cinayət işi açılmış ermənilər saxlanılırdı. Burada qəbahət nə var? Düşmənimizin kim olmasını, onun əsl üzünü göstərməməliyik?

Adının çəkilməsini istəməyən digər vikipediya inzibatçısı isə dedi ki, vikipediyamızdakı məqalələrin böyük qismi Azərbaycan, onun tanınmış şəxsləri haqqındadır: “Vikipediyaçılar Azərbaycana töhfə vermək naminə çalışır. Ermənilərin sayı 7,8 və daha aşağı sıralardadır”.

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, düşmənimizi tanımaq yaxşı haldır, ancaq ermənilərin ensiklopediyalaşmasını birmənalı qəbul edə bilmirik.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Qərbi Azərbaycan tariximizin işığında

**Elm və Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə “Dədə Ələsgər Ocağı” İctimai Birliyi “Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsi çərçivəsində “Tariximizin işığında – Qərbi Azərbaycanın izi ilə” layihəsinin icrasına başlayıb.**

İctimai birlikdən bildirilib ki, layihə səkkiz ay müddətində Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan və Abşerondan 35 orta məktəbin 10 və 11-ci sinif şagirdlərini əhatə edəcək. Şagirdlər arasında Qərbi Azərbaycan tarixi ilə bağlı bilikləri və özünüifadə bacarıqlarını dəyərləndirmək məqsədilə inşa müsabiqəsi keçiriləcək.




Müsabiqənin nəticələrinə əsasən, hər məktəbdən seçilən I, II və III yerin qaliblərinin inşaları toplanaraq xüsusi kitab şəklində nəşr ediləcək. Qeyd edilib ki, bu layihə gənclərin Qərbi Azərbaycan tarixi haqqında məlumatlılığını artırmaqla yanaşı, onların yaradıcı və analitik bacarıqlarını inkişaf etdirməyə xidmət edir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Söz dünyamız

# “Kandar”dan o yana nələr var?

## *Suallar və cavablar romanı*

**Müasir Azərbaycan ədəbiyyatının maraqlı imzalarından olan yazıçı-publisist Kamil Əfsəroğlunun yaradıcılığında avtobioqrafik səciyyəli əsərlər çoxdur. Onun oxucularına təqdim etdiyi son romanı – “Kandar” yazıçının həyatının konkret dönəminə, hərbi xidmət dövrünə həsr edilib. Maraqlı olan həm də əsər üçün seçilmiş epiloqdur: “Bəd ruhlar yovuq düşməsin deyə, evimizin kandarından nal asmışdıq. Dünyanın da kandarından nal asmaq gərəkdir...”**

Görəsən, niyə? Yazıçı bu epiloqu ilə nə demək istəyir? Əsgəri xidmətdən bəhs edən əsərini “Kandar” adlandırmaqda niyyəti nədir? Romanı oxutduran bu suallara alacağım cavabların marağı oldu. Etiraf edim ki, ilk səhifələr mənə darıxdırıcı gəldi. Romanın əvvəlində publisistik üslub bədii üslubu üstələdiyindən əsər romandan çox sənədli oçerk təsiri bağışlayırdı. Sonrakı səhifələrdə isə yazıçı səmimiyyəti özünü göstərdi, obrazlı dili sözünü dedi, romanı sözbəsöz oxutdurdu.



Əsərdə hadisələr ötən XX əsrin 70-ci illərində, keçmiş SSRİ dövründə baş verir. Kamil Əsrəfoğlunun “Kandar”ını fərqləndirən əsas cəhət əsərdə geniş oxucu kütləsi üçün maraq doğuran siyasi, ictimai məzmunlu informasiyaların bədii dillə çatdırılmasıdır. Həmin dövrü biz də yaşadığımızdan onların bəziləri bizə tanış olsa da, bilmədiklərimiz, uzun illər ictimaiyyətdən gizlin saxlanılan, bu günümüzdə belə üstündən sükutla keçilən məqamlar da çoxdur. Yazıçının hərbi xidmət dövründə müşahidə etdiyi həyat həqiqəti belə idi: “Sovet vətəndaşlarına vəd edilən kommunizmdən əsər-ələmət yox idi, əksinə, insanlar elə bil yolu-yolağanı azmışdılar, ona sarı getmir, gün-gündən o xəyali cəmiyyətdən uzaqlaşır, ümidsizliyə qapılırdılar. Aldanmış insanlar çıxış yolunu içkidə görür, ağına-bozuna baxmır, nə gəldi, nə düşdü içirdilər”. XX əsrin son onilliklərində paytaxt Moskvada, sosializmin göbəyində yazıçının gördüyü bu mənzərə tezliklə hər şeyin köklü dəyişəcəyinin anonsu imiş.

Romanda diqqəti cəlb edən məqamlardan biri də rus millətindən olanların hərbidə xüsusi statusa malik olması, ölkə sərhədlərinin qorunmasının ancaq onlara etibar edilməsi, rusların digər milllətlərdən üstün sayılmasıdır. Rus şovinizminin həqiqi simasını açan bu detallar göstərir ki, sovet xalqlarının sarsılmaz dostluğu ancaq sözdə olub, əslində isə bütün dairələrdə, hətta orduda belə ruslar üstün imtiyazlara sahiblənibləر, digər etnik qruplardan, dinlərdən olanlara aşağı gözlə baxılıb. Əsərdə bütün bu nüanslar konkret faktlarla, hərbçilərin ad-familiyaları ilə verildiyindən romanın oxucunu inandırmaq gücünü artırır. Kamil Əfsəroğlunun hakimiyyətin yuxarı eşelonlarında baş verən çəkişmələri, ziddiyyətləri konkret faktlarla əks etdirməsi, onları əsərinə daxil etməsi romanı canlandırır, oxucu üçün maraqlı edir. Yazıçının əsgərlik macəralarının səmimi əks etdirməsi, istirahət saatlarında rəqs meydançalarında baş verənlərin nəqli kənd oğlanlarının ömürlərinin sonuna kimi həvəslə danışdıqları “nağıl”ları xatırladır bizə...

“Alina komsomol putyovkasıyla Sibirə – BAM-a işləməyə gedib. Bu xəbər məndən ötrü gözlənilməz olduğundanmı, yoxsa, nədənsə, Sibir şaxtasının soyuğu canımdan keçdi, üşüdüm. Alinanın dilindən eşitdiyim sözlər qulağımda səsləndi: “Öz həyatının rəsmini özün çəkirsən, əlvan rəngləri seç...” Sovet gəncliyinin romantik qütbünün amalı belə idi. Yazıçı Alinanın timsalında dövrün romantik arzulu vətənpərvər gənclərinin dolğun obrazını canlandırmaqla göstərir ki, həmin dövrün gəncliyinin ən böyük arzusu SSRİ-də kommunizm cəmiyyətini qurmaq, yaratmaq, bu ideallara sədaqət olub.

O dövrdə hətta təbii fəlakətlər, qəzalar, yanğınlar belə xalqdan gizli saxlanılırdı. Bu bizim nəslin şahid olduğu, yaşadığı həqiqət idi və yazıçı gördüklərini romanda əks etdirməklə dünənimizdən sabahımıza körpü salır, sonrakı nəsilləri məlumatlandırmaqla ədəbiyyatın ən vacib missiyasını yerinə yetirir. “Ölkənin kütləvi inforamasiya vasitələri ağızlarına su alıb susurdu. Onların demədiyini xarici radiostansiyalar deyirdi. Təyyarə qəzasında heyətlə birlikdə 73 nəfərin öldüyünü də “Alman dalğası”, “Azadlıq”, “Amerikanın səsi” radioları operativ xəbər kimi yaymışdı. Bu yad səsləri dinləmək də qadağan idi. Qərbdən yayılan yad səsləri boğmaqdan ötrü dövlət külli miqdarda vəsait xərcləyir, o radio dalğalarını vurmaq məqsədi ilə güclü stansiyalar qururdu. Ölkədə yalnız sovet radiolarının səsi-sədası eşidilməliydi. Qadağalar artdıqca, əksinə, əhalidə yad səslərə maraq çoxalırdı. Qəzadan 4 gün sonra sovet mətbuatı, radio və televiziyasının batmış dili açıldı. “İzvestiya” qəzeti isə səhifənin aşağı küncündə ikicə cümləlik xəbər yazmaqla kifayətləndi”.




Əsərin maraqlı hissələrindən biri yazıçının mavzoleydə Leninlə ruhən söhbətidir:

“– Vladimir İliç, çar İkinci Nikolayın ərgən qızlarının, xəstə oğlunun güllələnməsinə necə qıydınız?

Lenin gözlərini açmadan cavab verir və ölünün dediklərini yalnız mən eşidirəm:

– Rusiyada monarxizmin kökü dibindən qazılmalıydı ki, xalq əlini çarizmdən birdəfəlik üzsün. O uşaqların babası mənim qardaşımı dar ağacından asdıranda onun qanını yerdə qoymayacağıma söz vermişdim.

– Asılanın qanı tökülmür, axı…

– Onda belə deyək – kəndirinin yerdə qalmayacağına and içmişdim. Tarix məni ittiham edə bilməz, çar ailəsini uşaqlı-böyüklü qırmaq haqda yazılı bir sənəddə mənim qolum yoxdur”.

Yazıçı Kamil Əfsəroğlunun romanda demək istədiyi daha bir həqiqət var –insanların beynini dəyişməklə çox şeyə nail olmaq olar. Yəni ki, Çingiz Aytmatovun “Əsrə bərabər gün” romanındakı manqurtlar bütün dövrlərdə olub, olacaq. Leninin özü kimi, mavzoleyinin də müqəddəs olması sovet adamının beyninə elə yeridilmişdi ki, Moskvaya yolu düşən sıravi şəxs də onun ziyarətinə qaçırdı, şikayət məktubları ora ünvanlanırdı.

“Kandar” romanını oxuduqdan sonra yazının əvvəlində axtardığım bir çox sualların cavabını tapdığımı düşünürəm. Romanın adı ilə bağlı beynimdə yaranan ilk fikir bu oldu ki, yazıçının məqsədi keçmiş SSRİ məkanının kandarından o üzdə nələr baş verdiyini göstərmək, oxucuya çatdırmaq olub. Dünyanın kənarında dayanan müharibə təhlükəsini, dünyamızın bu təhlükədən yox olmaq qorxusunu xatırlatmaq da ola bilər.

Bugünümüzdən sabahımızın kandarına necə adlamalıyıq? Suallar, yozumlar çoxdur. Bəs sizin baxış bucağınızdan “Kandar” necə görünür? Bunu ancaq oxuyanda biləcəksiniz...

***Esmira İSMAYILOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

Azərbaycan diasporu

# Vətən – ruhumuzun qibləsi

**2024-cü ildə XQ üçün sonuncu müsahibimlə bu yazını qələmə alarkən düşüncələrə qapıldım və özümə hesabat verərək düşündüm: “Bir ilimiz də bizə əlvida dedi, artıq hər kəsin gözlərində 2025-in ab-havasını hiss edirsən. Bir anlıq ağrılı da olsa, içimdə danışmağa başladım: ömür necə də qısadır, gözümüzü açmamış bizə öz hökmünü verir, mənim kitabımı oxumalısan deyir…”**

Bəli, bu dünyanın oxunası kitabları çoxdur. Daha dəqiq etiraf etsək, həyat özü sənə dərs vermək üçün taleyin və zamanın kitablarını məcburi oxutdurur. Hünərin var oxuma görüm... Dünya mənim, dünya sənin, dünya heç kimin... Elə bu fəlsəfi düşüncələrin ağuşunda uşaqlığından Vətəndə yaşamaq haqqından zorən məhrum olan, valideynləri ilə birgə sürgün olunan, atasının qəzada qəfil həyatını itirməsinin acısını dadan, fəqət zərif vücudunda böyük Türk dünyasının sevgisini yaşadan, qəlbinin ziyasını təbəssümündə yaşadan kübar, ziyalı bir xanımla redaksiyamızda görüşdük.




**Azərbaycan və Türkiyə Vəkillər Kollegiyasının üzvü, vəkil mediator Aygün Əliyeva ilə söhbətimizin həssas, qürurverici məqamlarını oxucularımıza təqdim edirik:**

– Mənim üçün Vətən kəlməsindən müqəddəs söz ola bilməz. Harada yaşasam, ağlımda, nəfəsimdə bir duyğu yaşayır: Canım Vətən! Ona görə də hər Bakıya səfərimdə çalışıram ki, Vətənimin işığını, nurunu daha çox içimə çəkim, çünki nə iş görürəmsə, əbədi varlığım olan Azərbaycanımdan güc alıram.

Təyyarə hər Bakıya enəndə ruhum çırpınır, sanki Vətənə ilk dəfədir gəlmişəm kimi, həsrətimi gizlədə bilmirəm. Amma etiraf edim ki, taleyin səssizcə gəlib hökmünü verən qəzavü-qədər yazısı da var. Bu qədərdən kim qaça bilib ki? Giley-güzar etmirəm, bu, həyatdır, amma körpə ikən yaşadıqlarımı danışmaq, ürəyimi boşaltmaq istəyirəm ki, siz də yazasınız. Keçmişi unutmaq olmaz! Vətəndə Vətən itirdik, bu ağrının dərmanı yoxdur.

Uşaq ikən doğulduğum tarixi Azərbaycan ərazisi olan Zəngəzurun Qarakilsə rayonunun Urud kəndindən qovulduq, küllü-küfyan olduq, ocağımız mənfur ermənilər tərəfindən söndürüldü, 4 yaşımda anamın qucağında ikən körpə ürəyim dağlandı...Anam qışın sazağında məni bağrında qızdıra-qızdıra Azərbaycana gətirmişdi. Əzizlərimlə birgə uşaq qəlbim qan ağlamışdı.

Atam riyaziyyatçı idi, qeyri-adi istedadı, biliyi sayəsində Əli Əliyev Bakı Dövlət Universitetinin professoru oldu. Sonra Ankara Universitetindən dəvət aldı. Beləliklə, biz ailəlikcə Türkiyəyə köçdük. Orta təhsilimi orada davam etdirməli oldum.

1999-cu ildə Türkiyədə dəhşətli zəlzələ baş verdi. Azərbaycan dövləti bu dar gündə doğma qardaşının yanında idi. O zaman ölkəmizə ümummilli lider Heydər Əliyev rəhbərlik edirdi. Dahi siyasətçi Türkiyəyə səfər etdi, xalqın kədərinə şərik oldu.

Yadımdadır, 11 yaşım var idi. Bizə xəbər verdilər ki, Prezident Heydər Əliyev orada yaşayan azərbaycanlı ailələrlə görüşmək istəyir. Anam, atam, bacım və mən həmin tarixi səfərdə Ümummilli liderimizlə görüşdük. O böyük insan bizimlə səmimi söhbət etdi, güzəranımızla maraqlandı. Həmin görüşün xatirə yaddaşı kimi foto və video yazılarını saxlamışam.

Zaman qarşısında son dərəcə güclü olan Heydər Əliyevə Hacıtəpə Universitetinin fəxri doktoru adı verildi. O zaman Azərbaycan televiziyası məndən müsahibə aldı. Mənə Ümummilli liderimizi görmək, onunla söhbət etmək nəsib oldu. O böyük insana fəxri ad veriləndə də gül dəstəsini ona vermək mənim qismətimə yazılmışdı. Həmin gün bütün ailəmiz sevinc və qürur içində idi. Bütün bu xatirələr uşaqlıq yaddaşımın izləridir. Çox xoşbəxt idim...

İllər bizi sınağına çəkə-çəkə yaşayırdıq. Fələyin nə qurduğundan kimsənin xəbəri olmaz. Bir gün qapımızı qara duman aldı. Atam qəfil bir qəzanın nəticəsində həyatını itirdi. Bu ailəmiz üçün çox çətin oldu, bütün qayğılar anamın üzərinə düşdü. Bacım da, mən də anladıq ki, büdrəmək bizə yaraşmır. Onu da xüsusi olaraq qeyd edim ki, Ankara Universitetinin müəllimləri bu gün də atamı ehtiramla yad edir, onunla bağlı xatirələrini bizimlə bölüşür, atama hörmət əlaməti olaraq bizə bacardıqlarını etməyə hazır olduqlarını bildirirlər.

Mən Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsində bakalavr və magistr təhsili aldım, hazırda bu təhsil ocağının dissertantıyam. Eyni zamanda, Ankara Hacı Bayram Veli Universitetində 3 il diplom tanıtmaq təhsilini tamamlamışam.

Hazırda hər iki ölkədə vəkil işləmək hüququnu qazanmışam. İstanbul Vəkillər Kollegiyasının Beynəlxalq Hüquq Komissiyasının sədriyəm. Azərbaycan Mediasiya Şurasının üzvüyəm, eyni zamanda, Türkiyə Ticarət Palatasının Mediasiya Mərkəzinin arbitraj hakimiyəm.

15 ildir ki, İstanbulda Türk Dünyası ilə bağlı keçirilən əksər toplantıların fəal iştirakçısıyam. Avropa Vəkillər Qurumunun üzvüyəm. Türkiyədə və Azərbaycanda qeyri-hökumət təşkilatlarının işində fəal iştirak edirəm. Beynəlxalq konfranslarda Azərbaycanın haqq səsini bütün dünyaya yaymaq üçün çalışıram. 2022-ci ildə İslam Dövlətlərinin Hüquq konfransında 40-dan çox ölkənin nümayəndəsi iştirak edirdi. Mən Qarabağdakı tarixi qələbəmizdən qürurla danışmaqla bərabər, Qərbi azərbaycanlıların zaman-zaman başına gətirilən faciələr barədə faktları diqqətə çatdırdım.

Ötən ilin sonunda, daha dəqiq desəm, 7-9 noyabr tarixlərində Türk Dövlətlərinin Ticarət və Yatırım İş Birliyi xətti ilə keçirilən beynəlxalq görüşü Tarixi Zəfərimizə həsr etmişdim. Sevincim hədsiz idi. Zəfər bayramımızda Qala gecəsi keçirdim. Afrikadan tutmuş Avropaya qədər toplantıda təmsil olunan iştirakçılara bəyan etdim ki, bu gün Azərbaycanın Zəfəridir! Təkrar-təkrar deyirəm: Biz 30 il işğal altında qalan torpaqlarımızı şəhidlərimizin qanı ilə təmizlədik.

İnanın ki, rəhbəri olduğum bütün layihələrimdə Azərbaycana xüsusi yer ayırıram və özümü rahat hiss edirəm ki, mən də bu vətənə gərəyəm.

**Söhbətin sonunda Aygün xanım həyata keçirməyə hazırlaşdığı yeni layihələr barədə də məlumat verərək dedi:**

–Azərbaycan beynəlxalq arenada güc mərkəzi kimi tanınır. Bakı beynəlxalq konfransların keçirildiyi şəhər kimi ən yüksək səviyyədə özünü təsdiq edib. Ona görə də istənilən beynəlxalq toplantını, görüşü Bakıda keçirmək üçün tərəddüd keçirmirəm, əksinə, çox böyük qürur hissi ilə möhtəşəm layihələrin Azərbaycanda reallaşması istiqamətində inamla addım atıram.

2025-ci il aprelin əvvəllərində 40-dan çox ölkənin iş adamlarının iştirakı ilə Azərbaycanda yeni beynəlxalq toplantı keçirməyi nəzərdə tutmuşam. Bilirəm ki, bu, layihənin gözəl əks-sədası olacaq. Arzular, planlar çoxdur. Yeni yolun başlanğıcına uğurlu imza ataramsa, xalqıma, dövlətimə, Vətənimə daha çox xidmət etmiş olaram. Bu hiss mənə əlavə güc və ruh verir!

***Söhbəti qələmə aldı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

Regional təhlükəsizlik

# Fransa Gürcüstandan qətiyyən əl çəkmir

**(əvvəli 1-ci səhifədə)**



Baş nazir, həmçinin ATƏT PA rəhbərinə Gürcüstana kömək etmək istəyinə görə təşəkkür edib: “Xanım Pia Kaumaya ölkəyə kömək etmək arzusuna, istəyinə və münasibətinə görə təşəkkür etmək istərdim. Onun Gürcüstana səfərə hazır olması bununla bağlı olub, amma səfər baş tutmadı. Xüsusi subyektlərin mövqelərini gördünüz. Bu, tamamilə çirkin mövqedir”.

Qeyd edək ki, ATƏT PA sədri yanvarın 8-dən 10-dək Gürcüstana səfər etməyi planlaşdırmışdı. Amma müxalifət Kaumanın Gürcüstana səfərinə qarşı çıxıb. “Səfər yalnız yeni seçkilərə hazırlıq prosesinə töhfə verəcəyi təqdirdə məqsədəuyğun hesab ediləcək”, – deyə ATƏT PA sədrinə göndərilən məktubda qeyd olunub.

Bundan əvvəl, ABŞ-nin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Co Uilson də oxşar məzmunlu məktubla ona müraciət edərək Gürcüstana səfər etməməyə çağırıb. Uilson məktubunda Gürcüstan rəsmilərinin bu səfəri “hakimiyyətin legitimləşdirilməsi vasitəsi” kimi istifadə edəcəyini deyib. “ABŞ vergi ödəyicilərinin pulu qeyri-legitim hökumətin tanınması üçün istifadə edilməməlidir”, – deyə Uilson qeyd edib.

Belə bir şəraitdə Fransa kənarda qala bilməzdi. Fransa prezidenti Makronun müxalifəti dəstəkləyən açıqlaması da bunun bariz nümunəsidir. Onun sözlərinə görə, Gürcüstandakı mövcud böhranı aradan qaldırmaq üçün yenidən seçki tələb olunursa, bu seçkilər keçirilməlidir. O, Gürcüstandaki seçkilərə Rusiyanın müdaxilə etdiyini və seçki qutularına bülletenlərin atıldığını da söyləyib. Bu onu göstərir ki, Fransa hakimiyyəti Gürcüstanda sabitliyi pozmağa çalışır.

Doğrudan da, ATƏT PA sədrinin xoş niyyətli səfəri yuxarıda qeyd olunan təzyiqlər səbəbindən təxirə salındı. Bu barədə xanım Ria Kaumanın özü məlumat verib. O, “bitərəf” qalmaq istədiyini bildirib: “ATƏT/DTİHB-nin yekun hesabatının dərcindən sonra Gürcüstana səfərin məqsədi “hökumət, müxalifət və vətəndaş cəmiyyəti ilə dialoq açmaq” idi. Burada həyata keçirilməli olan 12 əsas və ən vacib tövsiyədən söhbət gedir. Biz bu prosesdə kömək etməyə hazır idik. Məqsədimiz səfərimizi hakimiyyətin tanınması kimi təqdim etmək, kiməsə legitimlik vermək deyildi. Bu, bizim işimiz və mandatımız deyil”.

Kauma Gürcüstana səfəri qeyri-müəyyən müddətə təxirə salmaq qərarını ATƏT PA nümayəndə heyəti ilə “indiki mərhələdə tərəflərin görüşə hazır olmaması” ilə izah edib: “Bunun üçün “ölkədə kifayət qədər xoş niyyət olmalıdır”.

O qeyd edib ki, müxalifət partiyalarının tələblərindən biri Gürcüstanda yeni seçkilərin tarixinin müəyyən edilməsi, digəri isə həbs edilmiş etirazçıların azad edilməsi ilə bağlı olub: “İndiki mərhələdə nümayəndə heyəti bu tələbləri yerinə yetirə bilməyəcək. Lakin onu da əlavə etmək istərdim ki, iqtidar bizimlə görüşmək və DTİHB-nin tövsiyələrini müzakirə etmək istəyirdi. Amma hökumətlə təkbətək görüşmək istəmədim. Çünki bu, ATƏT PA-nın qarşı tərəfin tələblərinə məhəl qoymadan hökuməti dəstəkləməsi mənzərəsi yarada bilərdi”.

Bununla belə, o, tərəflər arasında dialoqun tərəfdarı olduğunu bildirib: “Lakin bu gün “hakim partiya və müxalifət bir-birindən çox uzaqdır və baxışları çox fərqlidir”.

Qərbin Gürcüstanda nifrətin qızışdırılmasına yönəlik açıqlamalarına hakim partiyadan sərt reaksiya gəlib. Xarici işlər naziri Maka Boçorişvili prezident Makronun Rusiyanın Gürcüstanda keçirilən parlament seçkilərinə müdaxilə etməsi barədə bəyanatına münasibət bildirərkən deyib: “Makronun Gürcüstanda seçkilərin saxtalaşdırılmasına dair sözləri yalan məlumatlara əsaslanır və həqiqəti əks etdirmir”. Nazirin sözlərinə görə, ümumiyyətlə, yanlış məlumat əsasında təsəvvürlər yarananda çox üzücü olur. “Gürcüstanda elektron seçkilər keçirildi və heç kim seçkilərə təsir edəcək qədər qutuya bülleten qoya bilmədi, o da bunu bilməlidir. Əgər bilmirsə, Fransa səfirindən soruşaq. O, Gürcüstanda gedən proseslərlə bağlı öz hökumətini nə dərəcədə düzgün məlumatlandırır? Görünən budur ki, səfir öz hökumətini düzgün məlumatlandırmayıb. Makron da yanlış məlumatlar əsasında yanlış təsəvvür yaradır. Bunun arxasında ya qəsdən pis niyyətlər var, ya da bunu hazırlayanlar qeyri-peşəkarlardır ”, – deyə M.Boçorişvili vurğulayıb.

Baş nazir İrakli Kobaxidze isə Makronun sözlərini yalan adlandırıb və ona diqqətini “qurban verilmiş və dağıdılmış” Ukraynaya yönəltməyi tövsiyə edib. Kobaxidze deyib: “Fransa prezidenti məhv olmaq üçün qurban verdikləri Ukraynaya baxmalıdır. Mən əsl problemin nə olduğunu deyirəm. Yalanlara şərh verə bilmərəm. Mən hamının üzləşdiyi problemi şərh edirəm, bu, məhv edilmiş Ukraynadır”.

Deməli, Parisin müdaxilə etdiyi hər yerdə, rüsvayçı şəkildə uğursuzluq baş verir. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirdiyi kimi, Afrikadan danışmağın mənası yoxdur, necə deyərlər, hər şey göz qabağındadır... Gürcüstanda da sabitliyi pozmaq üçün həmin cəhdlər edildi, hər kəsə aydındır və sirr deyil ki, bu hərəkətlər o qədər qeyri-diplomatik və aşkar edilmişdi ki, bunlar belə diplomatik ənənələri olan ölkə üçün təəccüb doğurur”.

Beləliklə, Fransa hər cür vasitə ilə Afrikada itirilmiş təsirini Cənubi Qafqazda, xüsusilə Gürcüstanda bərpa etməyə çalışır. Amma alınmır, hər gün bölgədə, bütövlükdə, beynəlxalq arenada mövqeyini itirir.

***P.ƏFƏNDİYEV***
***XQ***

Futbol tariximizdən

# “Neftçi”nin “qrossmeysterləri”

**Onlar güclü rəqibləri gözlənilməz gedişlərlə çıxılmaz vəziyyətə salıb, mat edən böyük şahmatçılar olmadılar. Heç qarşılarına belə bir məqsəd də qoymamışdılar. Şahmat onlar üçün yalnız bir əyləncə, istirahət növü idi. Fotodan da gördüyümüz kimi, yaşıl futbol meydanında gərgin məşqlərdən, ağır mübarizədən sonra istirahət vaxtlarında bu qədim və müdrik oyunla məşğul olmuşlar.**



Əvəzində, futbolda yaxşı iz qoymuşlar. Neçə-neçə illər ərzində Sovet İttifaqı çempionatlarının güclülər dəstəsində çiyin-çiyinə Azərbaycan futbolunun flaqmanı “Neftçi”nin heyətində oynamaq hüququ qazanmaq hər futbolçunun işi deyildi. Onlar isə respublikanın 1 nömrəli komandasının tarixində özlərinə layiqli yer etməyi bacardılar. Söhbət köhnə azarkeşlərin bu gün də yaxşı xatırladıqları Əli Rəhmanov, Asəf Namazov və Rafiq Quliyevdən gedəcək.

Lakin əvvəlcə bu qeydlərin “meydana” çıxmasına səbəb olan və yazılarımda yaxın köməkçimə çevrilmiş “Neftçi”–70. Unudulmayan keçmiş. 1937–2007” kitabı (müəlliflər Səbuhi Səfiyarlı, Elçin Rüstəmov) haqqında. Hörmətli mütəxəssisimiz Tahir Süleymanovun 2010-cu il oktyabrın 7-də “Neftçi”nin vitse-prezidenti kimi komandanın bazasındakı otağında imzalayıb mənə təqdim etdiyi bu kitab əvəzsiz töhfədir. Son 2 ildə futbol adamlarımız haqqında qələmə aldığım bir çox yazının hazırlanmasında onun rolu danılmazdır. Ona görə də yeri gəldikcə bu vacib məqamı xatırlamağı özümə borc bilirəm. Tahir müəllimə isə 15 il əvvəlki çox dəyərli hədiyyəsinə görə bir daha təşəkkürümü, eyni zamanda, yeni ildə ən xoş arzularımı bildirirəm. Bu gün diqqətinizə çatdırdığımız fotonu məhz həmin kitabdan götürmüşük.

Fotoda soldan birinci Əli Rəhmanovdur. Neçə-neçə görüşdə “Neftçi”ni meydana kapitan kimi çıxarıb. Yarımmüdafiəçi idi. Meydanın mərkəzində hadisələrin gedişinə yaxşı nəzarət edir, soyuqqanlı və dəqiq oyunu ilə komandasının hücum xəttinə də, müdafiəçilərə də yaxından kömək edirdi.

Kapitan sarğısının ona etibar edilməsi təsadüfi deyildi. Qətiyyətli, əzmkar futbolçu kimi komanda yoldaşları arasında böyük hörmət qazanmışdı. Bir sözlə, əsl lider və oyundaşları üçün nümunə idi.

Mərhum həmkarım, Əməkdar jurnalist Abas Əzimovun 2007-ci ildə nəşr etdirdiyi “Neftçi–70” kitabında qeyd olunmuş statistik göstəricilərə əsasən, Ə.Rəhmanov 1967–70 və 1977–79-cu illərdə “Neftçi”-nin heyətində SSRİ çempionatlarının güclülər dəstəsində üst-üstə 131 oyun keçirmiş və 10 qolun müəllifi olmuşdur.

Şəkildə şahmat taxtası arxasında Ə.Rəhmanovun rəqibi isə Asəf Namazovdur. O, yadımda mərkəz müdafiəçisi kimi qalıb. Arxa xəttin dayağı idi. Meydanda bütün 90 dəqiqə ərzində cəsarətli, fədakar mübarizəsi ilə müdafiəçi yoldaşlarını da fəal oyuna ruhlandırırdı. İndikindən fərqli, o illərdə stadionumuzun tribunalarına toplaşan on minlərlə azarkeş də Asəfin etibarlı oyununa biganə qalmayıb, ona alqışlarını əsirgəmirdi.

Statistikaya müraciət edib, A. Namazovun SSRİ çempionatlarının güclülər dəstəsində keçirdiyi oyunlarla maraqlananda məlum olur ki, 1977–80 və 1982-ci illərdə 102 matçda meydana çıxmış və 1 qol vurmuşdur.

Şahmatda Rəhmanov–Namazov görüşünün nəticəsinə gəldikdə isə, maraqlıdır, görəsən, kim daha dəqiq oynayıb, yoxsa dostlar heç-heçəyə razılaşıblar.

Fotoda “qrossmeysterlər”in görüşünü diqqətlə izləyən Rafiq Quliyev də A.Namazov kimi, meydanda arxa xətt oyunçusu funksiyasını yerinə yetirirdi. Sağ kənar müdafiəçisi idi. Rəqiblərlə gərgin mübarizədə qüvvə və bacarığını əsirgəmirdi. Savadlı oyunu ilə özü haqqında yaxşı təsəvvür yaratmışdı.

Statistikaya görə, R.Quliyev 1968–72 və 1977–79-cu illərdə güclülər dəstəsində 162 oyunda iştirak etmiş və 1 qolun müəllifi olmuşdur.

Beləliklə, təxminən yarım əsr əvvəl bütün Azərbaycanın sevimlisi “Neftçi”nin heyətində diqqət mərkəzində olmuş daha üç futbolçunu onlara minnətdarlıq hissi ilə xatırladıq. Həyat isə davam edir. Allahın izni və kitabların köməyi ilə keçmişi yenə yada salmağa cəhd göstərərik…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

**“Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu”**

*PHŞ-nin elm şöbələrində vakant olan vəzifələrin siyahısı*

**Arterial hipertoniya şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 4.0 yer
3.Elmi işçi – 4.0 yer
4.Kiçik elmi işçi – 3.0 yer
5.Böyük laborant – 2.0 yer

**Ritm pozğunluğu şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 3.0 yer
3.Kiçik elmi işçi – 1.0 yer

**Miokard infarktı şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi - 2.0 yer
3.Kiçik elmi işçi – 3.0 yer

**Profilaktik kardiologiya şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 2.0 yer
3.Elmi işçi – 3.0 yer

**Reabilitasiya şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 1.0 yer
3.Elmi işçi – 1.0 yer
4.Kiçik elmi işçi – 3.0 yer

**Ürək çatışmazlığı şöbəsi**

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 4.0 yer
3.Elmi işçi – 2.0 yer
4.Kiçik elmi işçi – 4.0 yer

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 03 (30697) 9 yanvar 2025-ci il, cümə axşamı

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# İlk Novruz çərşənbəsi – 25 fevral

**Su çərşənbəsi fevralın 25-i, İlaxır çərşənbə–Torpaq çərşənbəsi isə martın 18-i olacaq.**



Martın 4-də Od, 11-də Yel, 18-də isə İlaxır çərşənbə – Torpaq çərşənbəsi qeyd olunacaq.

Yaz fəslinin Azərbaycana daxil olması martın 20-si Bakı vaxtı ilə saat 13:01:25-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş düz şərqdə doğub, qərbdə batır. Günəş ekliptika üzrə hərəkət edərək, ekvatoru kəsib Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir. Həmin andan Şimal yarımkürəsində yaz, Cənub yarımkürəsində isə payız başlayır.

Yaz fəslinin uzunluğu 92 gün 17 saat 40 dəqiqə 46 saniyə olacaq.

**FİDAN**
**XQ**

İdman

# Olimpiya çempionlarımız ilk təlim-məşqdə

**Azərbaycanın cüdo üzrə milli komandası Avstriyanın Mittersil şəhərində keçirilən Olimpiya təlim-məşq toplanışına qatılıb.**



Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, beynəlxalq toplanışda 30 azərbaycanlı cüdoçu, o cümlədən Olimpiya çempionları Hidayət Heydərov və Zelim Kotsoyev iştirak edirlər. Avropa Cüdo Birliyi tərəfindən təşkil olunan bu təlim-məşq toplanışı yeni mövsümə hazırlığın əsas mərhələsi hesab olunur.

Yanvarın 15-dək davam edəcək hazırlıq prosesində, ümumilikdə, 44 ölkədən 848 idmançı iştirak edir.

# Minifutbolçumuz Avropanın "ən yaxşı"sı oldu

**Azərbaycanın minifutbol yığmasının üzvü Vüsal İsayev Avropada ilin ən yaxşı müdafiəçisi seçilib.**



O, Avropa Minifutbol Federasiyasının sosial şəbəkədə azarkeşlər arasında keçirdiyi səsvermə nəticəsində bu ada layiq görülüb.

Qeyd edək ki, minifutbol üzrə Dünya çempionatı bu il Bakıda keçiriləcək. Xatırladaq ki, Azərbaycanın minifutbol millisi 2022-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən Avropa çempionatının qalibi olub.

*L.QURBANOVA*
*XQ*

Yaşıl adalar

**Adı çəkiləndə zərif, ürkək ceyranların yada düşdüyü Şirvan Milli Parkı Kür-Araz ovalığında, Xəzər dənizinin qərb sahillərində yerləşir. Sahəsi 54 min hektardan bir qədər çoxdur. Landşaftı, əsasən, yarımsəhradır.**

Ərazidə ən çox iydə, ağacşəkilli gəngiz, Xəzər şahsevdisi, Xəzər sarıbaşı, ağacşəkilli çərən, şoviç yovşanı və s. bitki növlərinə, eləcə də su-bataqlıq quşları (cüllütkimilər, qazkimilər, qızılqazlar), canavar, çaqqal, dovşan kimi heyvanlara rast gəlinir.

# Nə gözəl yaraşır Muğana ceyran!



Qeyd etmək lazımdır ki, burada qorunan ceyran, qamışlıq pişiyi, adi qızılqaz, bəzgək Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilib.

Quşların miqrasiya yollarında yerləşən parkda 230 növ quş qeydə alınmışdır. Miqrasiya zamanı və quşların qışlama dövründə göllərin və dənizin dayaz yerlərində yaşılbaş ördəklər, fitçi cürə, boz ördək, marek, cırıldayan cürə, enliburun ördək, flaminqo, fısıldayan qu, qaşqaldaq, dərin su sahələrində isə qırmızıburun, qırmızıbaş, kəkilli və dəniz dalğıcları, güləyən ördəklər bir yerə toplaşırlar. Bu mənzərəni seyr etmək özü başqa bir zövqi-səfadır!

Parkda yırtıcı quşlardan çay qaraquşu, ağquyruq dəniz qartalı, çöl sarı, adi sar, çöl qartalı, böyük qartalça, imperator qartalı, ütəlgi qızılquş, şahin və s. növlərə də rast gəlinir.

Yeri gəlmişkən, Bəndovan palçıq vulkanı da Şirvan Milli Parkının ərazisində yerləşir. Bəndovan burnunda yerləşən vulkan morfoloji cəhətdən xüsusiləşmiş dağdan ibarətdir. Onun əsasının diametri 2 kilometrdən artıqdır. Vulkanın şimal-şərq və cənub-qərb yamacı dərin qobularla kəsilmişdir.

Şirvan Milli Parkı turistlərin çox sevdiyi məkanlardandır. Parkın əməkdaşları və ziyarətçiləri üçün müəyyən qaydalar və məhdudiyyətlər müəyyənləşdirilib. Birinci növbədə, ətrafa məişət tullantılarının atılması qadağan olunub. Yanğına səbəb olacaq hərəkətlərdən çəkinmək də tələb olunur.

Turistlər parka daxil olanda onlara bələdçi tərəfindən təhlükəsizlik qaydaları izah olunur. Tövsiyə olunur ki, ziyarətçilər kol-kosa girməsinlər, yaxud buradakı hansısa otu, yaxud gülləri yığmaq fikrinə düşməsinlər. Axı ceyran və cüyürləri qorxuda bilərlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Şirvan Milli Parkının ən başlıca özəlliyi, gözəlliyi və heç şübhəsiz, bəzəyi, ceyranlardır. Yarım əsr bundan əvvəl parkda ceyranların nəsli kəsilmək üzrə idi, məlumatlara görə, cəmi 70 ceyran qalmışdı. Son 10-12 ildə isə vəziyyət yaxşılığa doğru xeyli dəyişib. Belə ki, ceyranların mühafizəsi və populyasiyasının gücləndirilməsi sahəsində görülən işlərin nəticəsində bu təbiət gözəllərinin sayı artırılaraq 6200-ə çatdırılıb. Ceyranların sayları artdıqca onları digər uyğun coğrafi areallara, yəni qoruq və yasaqlılara köçürürlər. Son illər Şirvan Milli Parkından yüzlərlə ceyran Acınohur qoruğuna köçürülüb. Bura el arasında Ceyrançöl adlanır.

Hörmətli oxucu! Həcmcə heç də böyük olmayan bu yazıda Xalq şairi Səməd Vurğunun dillər əzbəri olan məşhur şeirini xatırlamamaq, ən azı, insafsızlıq olardı. Bu gözəl şeirin son bəndini burada yada salmağı özümüzə borc bildik:

*Ovçu, insaf elə, keçmə bu düzdən,*
*O çöllər qızını ayırma bizdən!*
*Qoyma ağrı keçə ürəyimizdən,*
*Qıyma öz qanına boyana ceyran,*
*Nə gözəl yaraşır Muğana ceyran!*

*M.HACIXANLI*
*XQ*

Sağlamlıq

# Nəyi, nə vaxt yeməli?

**Axşam sonuncu qida qəbulu yuxudan 3 saat əvvəl olmalıdır. İnsanın gecə saat 11-də artıq yuxuda olduğunu nəzərə alsaq, yemək maksimum 8-də yeyilib bitməlidir.**



Qastroenteroloq Dmitri Fedulov yuxudan əvvəl bəzi qidaları yeməyin neqativ təsirindən danışıb. Deyib ki, axşamlar qaz, köp yaradan tərəvəzlərdən və paxlalılardan uzaq durmaq lazımdır.

Eləcə də, nişastalı kartof, qarğıdalıdan olan yeməkləri axşam yedikdə şəkər, insulin qalxır, çəki artır.

Qlükozası çox olan meyvələr– banan, üzüm, şirin alma da axşamlar yemək üçün münasib deyil.

Süd də qarında kəskin sancı və köp yaradır. Süd məhsullarından yağsız yoqurt, kəsmik, kefir yemək məsləhətdir.

Bu qidaları günün birinci yarısında yemək lazımdır ki, fiziki aktivlik yaranan zərəri aradan götürsün.

Axşam yeməyində təzə və ya pörtlədilmiş tərəvəzlər, zülal, proteinli qidalar yaxşı təsir edir. Eyni zamanda, toyuq əti, file, yumurta, balıq, kəsmik, alma da məsləhətdir.

Optimal kalori bölgüsü: 30 faiz səhər, 50 faiz günorta, 20 faiz axşam üçün nəzərdə tutulmalıdır.

Axşamlar şirin desert, duza qoyulmuş tərəvəzlər (kələm, pomidor, xiyar və s.) və yağlı qidalar seçməyin, bunlar qaraciyər və mədəaltı vəzin yüklənməsinə səbəb olur.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

# Yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 4-8°, gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# Gənc rəssamlarımızın Romada sülh sərgisi

**Yanvarın 23-dən 30-dək Romanın "Medina Art Galereya"sında azərbaycanlı gənc rəssamların "Mədəni diplomatiya sənəti – Sülh naminə incəsənət" adlı qrup sərgisi açılacaq. Sərgi Azərbaycanın İtaliyadakı səfirliyi, burada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək.**

"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzindən bildirilib ki, sərgidə 22 gənc rəssam iştirak edəcək və onların 57 rəsm əsəri ilə yanaşı, gənc heykəltəraş Kənan Həsənquliyevin "Qarabağ cəngavəri" adlı heykəli də nümayiş olunacaq.

Sərginin məqsədi Azərbaycanın gənc rəssamlarının istedadını italyanların və İtaliyada olan turistlərin diqqətinə çatdırmaqdır.

Qeyd edək ki, bu, "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin İtaliyada sayca üçüncü sərgisidir. Mərkəz tərəfindən bu ölkədə təşkil olunan ilk sərgi 2012-ci ildə Romada, ikinci sərgi isə 2014-cü ildə Milanda açılıb.

*Leyla İLKİNQIZI,*
*tələbə-jurnalist*

## ALLAH RƏHMƏT ELƏSİN

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev Şahbazovlar ailəsinə əzizləri
**EMİN MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2589
SİFARİŞ 9
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00